RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 135 (8728) CÜMƏ, 2 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev strategiyası Azərbaycanı kosmosa yüksəltdi

## İqtisadi gücümüzün daha bir göstəricisi orbitə çıxarılan peyklərimizdir

Azərbaycan tarixən kainatın və səma cisimlərinin Yerin təbiətinə və insanın həyatına təsirini öyrənən elmi-fəlsəfi cərəyanların mərkəzində olub. Burada Şərq elmi məktəbinin Nəsirəddin Tusi kimi dahi nümayəndələri yetişib, elmi kitabxanalar yaradılıb, rəsədxanalar qurulub.

Milli kosmik sənayemiz isə Ümummilli Lider Heydər Əliyevin hələ sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdə təşəkkül tapıb. Ölkəmizin müasir kosmik sənayesinin yeni səhifələrinin açılması Prezident İlham Əliyevin adı ilə bağlıdır. Bu sahənin də yenidən qurulması və müasir prinsiplərlə formalaşdırılması dövlət başçısının uzunmüddətli strateji yanaşması ilə mümkün olub.

2008-ci ildə Prezident İlham Əliyev “Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında” sərəncam imzaladı. 2009-cu ildə “Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı” təsdiqləndi, növbəti ildə peyklərin orbitə çıxarılması, idarə edilməsi və istismarı işlərinin həyata keçirilməsi məqsədilə “Azərkosmos” Açıq Səhmdar Cəmiyyəti təsis edildi.

2013-cü il fevralın 8-də Azərbaycan Respublikasının ilk peyki - “Azerspace-1” orbitə buraxıldı. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva peykin orbitə buraxılması prosesini izlədilər. Bu möhtəşəm hadisə Azərbaycanın növbəti böyük uğuru kimi səciyyələndirildi. Dövlət başçısı bu münasibətlə Azərbaycan xalqını təbrik etdi: “Bu gün birinci Azərbaycan telekommunikasiya peyki orbitə çıxarıldı. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu, doğrudan da, tarixi bir gündür, böyük nailiyyətdir, dövlətimizin böyük qələbəsidir. Bu hadisə onu göstərir ki, müstəqil Azərbaycan dövləti sürətlə, hərtərəfli inkişaf edir və biz artıq kosmik klubun üzvüyük. Bu hadisə münasibətilə bu işdə iştirak etmiş bütün qurumlara, bütün insanlara, ilk növbədə, Azərbaycan mütəxəssislərinə minnətdarlığımı bildirmək istəyirəm”.

2014-ci il iyunun 30-da “Azersky” Yerin məsafədən müşahidəsi, bir neçə il sonra isə “Azerspace-2” telekommunikasiya peyki orbitə çıxarıldı.

Ardı 6-cı səh.

# Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlini qoyub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov görülən işlər barədə dövlət başçısına məlumat verib.

Bildirilib ki, Ələt Azad İqtisadi Zonasının ümumi sahəsi 850 hektar olacaq. İqtisadi zonanın ümumi sahəsinin 60 hektarında layihələndirilmə artıq başa çatıb və inşaat işləri başlayıb, bütün infrastrukturun yaradılması üçün zəruri addımlar atılıb.

Ardı 2-ci səh.

# Müzəffər Ordunun mükəmməl təminatı

## Azərbaycan əsgəri bu gün Qafqazın ən sivil, modern və hazırlıqlı hərbçisidir





Vətən müharibəsindəki şanlı qələbədən aylar ötməsinə baxmayaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli ordusunun böyük döyüş yolu, zəfər yürüşünün parlaq qələbəsinin sevincini hələ də qürurla yaşamaqdayıq.

İyunun 26-da - Silahlı Qüvvələr Günündə isə Azərbaycan Ordusu ilk dəfə idi ki, qalib qüvvə kimi özünün ildönümünü qeyd etdi. Fəxarətlə dünyaya bəyan etdik ki, bu gün Azərbaycan əsgəri Cənubi Qafqazın ən sivil, modern və hazırlıqlı hərbçisinə çevrilib və 44 günlük Vətən müharibəsi bunun əyani təzahürüdür.

“Gülüstan” sarayında Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşdə Ali Baş Komandan da bu məsələyə xüsusi toxunaraq vurğuladı ki, bu gün qürur hissi ilə Silahlı Qüvvələr Gününü müzəffər Ordu olaraq qalib xalq kimi qeyd edirik. Bu, tarixi nailiyyətdir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq zəfər olmayıb.

### Ən mobil, ən yüksək döyüş hazırlığına malik ordu

Etiraf etməliyik ki, bu, heç də asan başa gəlməyib.

Prezident İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğı, Silahlı Qüvvələrin döyüş hazırlığı, maddi-texniki bazasının daim yenilənməsi və ən əsası, hər bir əsgərin döyüş əzminin yüksəkliyi hər zaman prioritet olaraq qalır.

Ardı 6-cı səh.

# Ələt Azad İqtisadi Zonasının yaradılması uğurumuzun növbəti addımı olacaq



## İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib

Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlini qoyduqdan sonra Azərbaycan Televiziyasına müsahibə verib.

**Müxbir: Salam, cənab Prezident, xoş gördük Sizi. Cənab Prezident, bu gün təməli qoyulan Ələt Azad İqtisadi Zonasının yaradılması ideyası necə yaranıb?**

**Prezident İlham ƏLİYEV:** Bu zonanın yaradılması ideyasının təməlində bizim siyasətimiz dayanır. Xüsusilə son illər qeyri-neft sektorunun inkişafı ilə əlaqədar görülən işlər bu zonanın yaradılmasına təkan vermişdir. Biz gördük ki, qeyri-neft sektoruna qoyulan sərmayə daha çox dövlət sərmayəsidir, yaxud da ki, yerli şirkətlərin sərmayəsidir. Xarici şirkətlər daha çox neft-qaz sektoruna sərmayə qoymağa meyillidirlər. Ona görə bu zonanın yaradılması əminəm ki, Azərbaycanın qeyri-neft sektorunun, iqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafına xidmət göstərəcəkdir. Eyni zamanda burada yaradılacaq infrastruktur investorlar üçün cəlbedici olacaq, ölkəmizə yeni texnologiyalar gələcək, yeni iş yerləri yaradılacaq və burada işləyəcək Azərbaycan vətəndaşlarının əməkhaqqı yüksək olacaq, rəqabətqabiliyyətli məhsul istehsal ediləcək və bizim qeyri-neft sektorumuzun ixrac imkanları genişlənəcək.

Ardı 2-ci səh.

# Dünyanın yeni qorxusu - “Delta” ştammı...



Koronavirus bəlasının biri bitməmiş digəri başlayır. İndi də dünya bu təhlükəli virusun yeni növü - “Delta” ştammından danışır.

Bu ştammın simptomlarının test və izolyasiya tədbirlərindən kənarda qalmağa səbəb olması həyəcanverici xəbərlərdəndir. Mütəxəssislərin fikrincə, bu, indiyədək yayılan ən təsirli mutasiyadır. Digər mutasiyalarla müqayisədə 60 faiz daha sürətlə yoluxur.

Qripə bənzəyən bu ştammın əsas əlamətləri baş, boğaz ağrısı, burun axıntısı, bəzən də öskürəkdir. “Delta” ştammında eşitmənin itməsi əlamətinin də olması barədə alimlər məlumat veriblər. Bildirilib ki, bu ştamm xüsusən gənclərdə ağır qrip keçirmə hissi yaradır.

“Delta” ştammının əsas xarakterik xüsusiyyətlərindən biri də hüceyrələrə sürətlə nüfuz etməsidir. Vaksinasiyadan keçmiş şəxslərdə virusun hüceyrəyə keçməsinə əngəl olan qalxan formalaşdığı üçün yoluxma ehtimalı azalır.

Ardı 9-cu səh.






# İngilis soyuqqanlılığı alman “maşını”na qalib gəldi



**İngiltərə - Almaniya - 2:0**
**Qollar:** Sterlinq, 75, Keyn, 86
**Baş hakim.** Denni Makkeli (Niderland)
*London. “Uembli” stadionu*

**Çox qəribədir, hər dəfə İngiltərə və Almaniya komandaları qarşılaşanda 1966-cı il mundialı və məşhur hakim, həmyerlimiz Tofiq Bəhramov yada düşür.**

1966-cı il dünya çempionatının İngiltərə - Almaniya FR finalında (4:2) ingilislərin vurduğu məşhur üçüncü qol o zamandan bəri futbolda ən böyük mübahisələrə səbəb olsa da, “Sky Sports”un “Monday Night Football” verilişinin komandası 2016-cı ildə “Opta”dan alınan statistik məlumatlar, üstəlik “Sky Pad” toxunma ekranı və “EA Sports”un virtual reallığı sayəsində yan xətt hakimi, azərbaycanlı Tofiq Bəhramovun doğru qərar verdiyini, topun qapı xəttini keçdiyini sübut edə bilib.

Ardı 10-cu səh.

# Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlini qoyub









*Əvvəli 1-ci səh.*

Diqqətə çatdırılıb ki, zonanın yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etməkdir. İnnovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu şirkətlərin Azərbaycan şirkətləri ilə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində çox vacib layihələr icra olunub. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanda bu proseslər uğurla davam edir. Ələt Azad İqtisadi Zonasının yaradılması bunun bariz nümunəsidir. Bu layihənin icrası Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, “Şərq-Qərb” və “Şimal-Cənub” tranzit-nəqliyyat dəhlizlərində mühüm rolu olan respublikamızın strateji əhəmiyyətini daha da artıracaq. Bu iqtisadi zonanın yaradılması dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, yeni investisiyaların cəlb edilməsinə şərait yaradacaq.

Dövlət başçısı Ələt Azad İqtisadi Zonasının təməlini qoydu.

# Ələt Azad İqtisadi Zonasının yaradılması uğurumuzun növbəti addımı olacaq




## İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib

*Əvvəli 1-ci səh.*

Çünki bizim ümumi daxili məhsulumuzun strukturuna baxsaq görərik ki, neft sektoru artıq üstünlük təşkil etmir. Ancaq ixraca baxdıqda görərik ki, ixracımızın mütləq əksəriyyəti neft-qaz məhsulları ilə təmin edilir. Ona görə bax, burada da islahatların aparılması və xarici investorların xüsusilə sənaye sahəsinə cəlb edilməsi əsas amillərdən biri idi. Əlbəttə ki, bu ideya çoxdan müzakirə olunurdu. Ancaq bu layihənin reallaşdırılması üçün vaxt düzgün seçilməli idi, biz buna hazır olmalı idik və hesab edirəm ki, bu gün biz buna hazırıq.

**- Cənab Prezident, Ələt Azad İqtisadi Zonasının yaradılması ilə bağlı hansı addımlar atılıb?**

- İlk növbədə, biz təşkilati işləri görməli və elə bir şərait yaratmalı idik ki, investorları cəlb edə bilək. Aydın məsələdir ki, Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkələrdəndir və belə ölkələrdə azad iqtisadi zonaları yaratmaq daha çətindir. Çünki əlverişli coğrafi vəziyyəti olan ölkələrdə bu zonalar çox böyük uğur qazanıb və ilk növbədə, coğrafi yerləşməyə görə. Ona görə bizə gəldikdə, bu coğrafi vəziyyəti nəzərə alaraq daha da səmərəli işləməli idik və investorlar üçün daha da cəlbedici şərtlər təqdim etməli idik. İlk növbədə, qanunvericilik sahəsində işlər görülməli idi və mən 2017-ci ildə Ələt Azad İqtisadi Zonasının yaradılmasının sürətləndirilməsinə dair müvafiq sərəncam imzaladım, 2018-ci ildə qanun qəbul edildi. Bu həm dövlət maraqlarımızı, həm investorların maraqlarını tam təmin edən çox mütərəqqi qanundur. Bu çox önəmlidir. Çünki əgər qanunvericilikdə investorlar üçün hansısa qeyri-müəyyən məqamlar olsaydı, əlbəttə ki, onları buraya cəlb etmək mümkün olmazdı. Xüsusilə nəzərə alsaq ki, son illərdə dünyada cərəyan edən iqtisadi və maliyyə böhranı investisiyaların həcmini də azaldıb. Əlbəttə ki, pandemiya da dünya iqtisadiyyatına mənfi təsir göstərib. Belə bir tarixi məqamda bu addımı atmaq, əlbəttə ki, həm böyük cəsarət tələb edir, həm də bizim inamımıza əsaslanır. Ona görə hesab edirəm ki, qanunvericilik sahəsində görülən işlər həm investorların, həm də Azərbaycan dövlətinin maraqlarını tam təmin edir. Ondan sonra 2018-ci ildə artıq praktiki işlərə başlanılmışdır. Bu 850 hektarlıq ərazi ayrılmış, Ələt Azad İqtisadi Zonasının konsepsiyasının işlənməsinə start verilmiş, işçi qrup yaradılmış və artıq işlər praktik müstəviyə keçmişdir.

Təbii ki, pandemiya işimizə müdaxilə etdi və bizim planlarımızı bir qədər təxirə saldı. Ancaq indi pandemiya həm ölkəmizdə, həm də bir çox ölkələrdə səngiyir. Hesab edirəm, bu gün bu təməlqoyma mərasiminin keçirilməsi artıq onu göstərir ki, biz buna tam hazırıq. Bundan sonra isə artıq praktiki işlərin başlanmasına start verilir və əminəm ki, bu işlər də vaxtında başa çatacaq.

**- Cənab Prezident, Azad İqtisadi Zona niyə məhz Ələtdə yaradılır?**

- İlk növbədə, Ələt qəsəbəsinin ərazisində böyük boş torpaq sahələri var və bu torpaq sahələrinin mütləq əksəriyyəti kənd təsərrüfatı üçün yararsız torpaqlardır. Digər tərəfdən, Ələt qəsəbəsi Bakı şəhərinə yaxındır. Bu da vacib şərtlərdən biridir. İnfrastruktur layihələrinin icrası üçün artıq bütün ilkin şərtlər vardır. Səngəçalda 300 meqavat gücündə elektrik stansiyası mövcuddur və infrastruktur layihələrinə qoyulan xərclər də nisbətən az olacaq. Burada Beynəlxalq Dəniz Limanı yerləşir. Bu da iqtisadi zonanın fəaliyyəti üçün önəmli amillərdən biridir. Hesab edirəm ki, Ələtin inkişaf perspektivi də çox uğurlu ola bilər. Əgər bu zona istədiyimiz kimi formalaşsa, - mən buna əminəm, - bu bölgənin inkişaf dinamikası ümumi inkişafımıza da böyük müsbət təsir göstərəcək. Bax, bu amillər bu yerin seçilməsində əsas rol oynamışdır. Eyni zamanda buradan bizim beynəlxalq dəhlizlərimiz də keçir. “Şərq-Qərb” dəhlizi, “Şimal-Cənub” dəhlizi Ələtin ərazisindən keçir. Ona görə logistika, nəqliyyat baxımından bu yer çox əlverişlidir. Məhz buna görə Ələt bu məqsədlər üçün seçilmişdir.

**- Cənab Prezident, fikrinizcə, investorları bu Azad İqtisadi Zonaya nə cəlb edəcək və onlar nəyə görə məhz buraya sərmayə qoyacaqlar?**

- Biz də bu sualı özümüzə verirdik və ona görə bu zonanın yaradılması ilə bağlı görülən işlər məhz bu suala cavab verməli idi. Çünki bu gün dünyanın müxtəlif ölkələrində azad iqtisadi zonalar var. Qeyd etdiyim kimi, bəzi ölkələrdə bunu təbii şərait, coğrafi yerləşmə şərtləndirir. Açıq dənizlərə çıxışı olmayan ölkələrdə azad iqtisadi zonaların yaradılması təcrübəsi o qədər də uğurlu deyil. Biz uğurlu və uğursuz təcrübəni öyrənmişik, təhlil aparmışıq. Hesab edirik bu gün Azərbaycanda bütün ilkin şərtlər var ki, investorları məhz bu zonaya cəlb edək. Hesab edirəm ki, ilk növbədə, bu yerin coğrafi vəziyyəti əlverişlidir- dənizin kənarında, dəniz limanının böyründə yerləşir, kifayət qədər böyük ərazidir. İlkin mərhələdə artıq 60 hektarlıq yer inkişaf üçün hazırdır. Amma, ümumiyyətlə, 850 hektar torpaq sahəsi ayrılıb. Bu torpaq sahəsinə bitişik olan torpaq sahələri də artıq müəyyən edilib ki, orada hər hansı bir tikinti aparılmasın, bu, gələcək inkişaf üçün lazımdır.

Azərbaycanda çox gözəl sərmayə iqlimi vardır. Biz bunu həm neft-qaz layihələrinin icrası zamanı nümayiş etdirmişik, həm də digər sahələrdə aparılan islahatlar nəticəsində çox gözəl investisiya iqlimi yaradılmışdır. Təsadüfi deyil ki, Dünya Bankının “Doing Business” hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerə layiq görülüb. Bu, dünya miqyasında çox böyük nailiyyətdir. Biz bir çox inkişaf etmiş ölkələri bu parametrlər üzrə qabaqlamışıq. Yəni, gözəl investisiya iqlimi investorları cəlb etmək üçün əlbəttə ki, əsas şərtlərdən biridir.

Digər vacib məsələ, - nə üçün biz hesab edirik ki, investorlar gələcək, - müasir infrastrukturun mövcudluğudur. Biz bu infrastrukturu son illər ərzində ardıcıl şəkildə yaratmışıq. Bu gün yenə də beynəlxalq mötəbər qurumlara istinadla deyə bilərik ki, bu sahədə də böyük uğurlar əldə etdik. Bilirik ki, potensial investorlar, ilk növbədə, Dünya Bankının “Doing Business” hesabatına baxırlar, eyni zamanda, Davos Ümumdünya İqtisadi Forumunun reytinq cədvəlinə baxırlar. Hər iki yerdə bizim üstünlüyümüz göz qabağındadır. İnfrastruktur layihələrinin səviyyəsinə görə, baxın, Azərbaycan hansı yerlərə layiq görülüb. Elektrik təchizatı sahəsində Azərbaycan Davos Forumunun hesabatında dünya miqyasında ikinci yerdədir. Təsəvvür edin, dünya miqyasında ikinci yerdə. Dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci yerdə. Hava nəqliyyatının səmərəliliyinə görə 12-ci yerdə. Avtomobil yollarının keyfiyyətinə görə 24-27-ci yerləri bölüşür. Xəzər gəmiçiliyi gəmiçilik xidmətlərinə görə 25-ci yerdədir. Bütün bunlar bizim əldə etdiyimiz böyük uğurlardır. Bu uğurlar bu gün ölkəmizin dinamik inkişafını təmin edir. Çünki əsas infrastruktur layihələri artıq ya başa çatıb, ya da başa çatmaq üzrədir. İnvestorlar üçün bunlar çox önəmli şərtlərdir - investisiya iqlimi, infrastruktur layihələri.

Həmçinin son illər ərzində Azərbaycanda çox güclü kadr potensialı yaradılıb. Bu sahəyə xüsusi diqqət göstərilir. Biz dövlət xətti ilə minlərlə gənci dünyanın aparıcı ali məktəblərində oxutmuşuq. Onların böyük hissəsi Azərbaycana qayıdıb və müxtəlif yerlərdə çalışır. Neft konsorsiumlarında çalışan azərbaycanlılar artıq bizim intellektual potensialımızın inkişafına xidmət göstərirlər. Kadr potensialı var, bu da investorları cəlb edəcək.

Azərbaycanda təhlükəsizlik təmin edilir. Azərbaycan dünyanın bəlkə də ən təhlükəsiz ölkələrindən biridir. İnvestorlar üçün bu amil də çox önəmlidir.

Azərbaycanda mədəniyyətlərarası dialoq, dini tolerantlıq məsələləri dünya miqyasında artıq nümunə kimi göstərilir. Biz istəyirik ki, bütün dünya ölkələri buraya gəlsinlər və investisiya qoysunlar. Bu amil də çox önəmlidir.

Digər tərəfdən, ölkəmizdə mövcud olan sabitlik hər bir investor üçün əsas şərtlərdən biridir. Sabitlik olmayan ölkələrə heç kim sərmayə qoymur. Bu, aksiomdur. Sərmayə qoyuluşu baxımından cəlbedici ölkələrin təcrübəsinə baxsanız, bunu görərsiniz. Bu gün Azərbaycana qoyulan və qoyulacaq sərmayələrin əsas şərtlərindən biri, bəlkə də birincisi ictimai-siyasi sabitlikdir, xalq-iqtidar arasındakı birlikdir.

Digər vacib amil ondan ibarətdir ki, bizim sözümüzlə əməlimiz heç vaxt fərqlənmir. Yəni nəyi deyiriksə, onu da edirik. Sözümüzü tutan insanlarıq və həyat bunu dəfələrlə göstərib. İnvestorlar üçün çox cəlbedici şərait yaradılıb. Təkcə neft-qaz layihələrinə baxmaq kifayətdir görək ki, 1994-cü ildən bu günə qədər imzalanmış kontraktlarda bir vergül belə dəyişdirilməyib. Ancaq bir çox yerlərdə müəyyən mərhələ keçəndən sonra ölkələr şərtləri özlərinə daha uyğun tərzdə dəyişdirməyə cəhd göstərirlər. Biz bunu etməmişik. Çünki bunu etsək, investorları qaçırdacağıq. Yəni bütün bu amillər və əlbəttə ki, İkinci Qarabağ müharibəsində qazandığımız Qələbə və Dağlıq Qarabağ münaqişəsinin həlli artıq yeni bir vəziyyət yaradıb. Hesab edirəm ki, uzunmüddətli sabitlik, sülh artıq investorlar üçün də gün kimi aydın məsələdir. Bütün bu amillərin mövcudluğu və bizim gələcəyimizə olan inam, əminəm ki, xarici sərmayədarları bu zonaya cəlb edəcək.

**- Cənab Prezident, sonuncu sualım, Ələt Azad İqtisadi Zonası investorları qəbul etməyə nə vaxt hazır olacaq?**

- Bu gün qoyulan təməl artıq işlərin başlanmasına təkan verir. Artıq birinci görüləcək işlər planlaşdırıldı, 850 hektarın 60 hektarı artıq layihələndirildi, detallı, müfəssəl layihələndirmə işləri aparılmışdır. Bu gündən etibarən tikinti işləri başlanacaq, infrastruktur layihələri, biznes mərkəzi, gömrük-keçid məntəqəsi və lazım olan digər sahələrdə işlər görüləcək. Hesab edirəm ki, bir ildən sonra - gələn ilin iyul ayından başlayaraq, biz investorları qəbul etməyə hazır olacağıq.

O vaxta qədər Azad İqtisadi Zonanın rəhbərliyi həm ölkə daxilində, həm də xaricdə müxtəlif tədbirlər keçirəcək. Təqdimatlar keçirilməlidir, potensial investorlarla birbaşa təmaslar qurulmalıdır. Eyni zamanda Azad İqtisadi Zonanın nümayəndələri müxtəlif ölkələrə ezam olunacaq, həmçinin xaricdən potensial investorlar dəvət ediləcək. Bununla bərabər, mən indi bizim bütün xarici ölkələrdəki səfirliklərə göstəriş verirəm ki, öz təmasları əsnasında bu zonanın yaradılması ilə bağlı potensial investorlara məlumat versinlər. Bizim bir çox ölkələrlə hökumətlərarası komissiyalarımız var. Bu komissiyaların rəhbərlərinə də tapşırıram ki, komissiyaların iclaslarının keçirilməsi zamanı Azad İqtisadi Zonanın nümayəndələri mütləq təmsil olunsunlar və bu mövzu mütləq gündəliyə salınsın. Bir daha demək istəyirəm, çünki bizim bir çox ölkələrlə belə komissiyalarımız var. Amma bu komissiyaların işini təhlil edərkən görürəm ki, xarici şirkətlər Azərbaycanda daha çox podratçı kimi fəaliyyətə cəhd göstərirlər. Yəni Azərbaycanda daha çox pul qazanmaq istəyirlər, bunun mənası budur. Biz etiraz etmirik. Çünki indi biz hətta azad edilmiş torpaqlara xarici podratçıları, kontraktorları cəlb edirik. Ancaq biz istəyirik ki, xarici investorlar Azərbaycana sərmayə qoysunlar. Çünki dövlət sərmayəsi artıq öz rolunu oynayıb. Biz bütün əsas infrastruktur layihələrini icra etmişik. Təbii ki, azad edilmiş torpaqlarda indi böyük tikinti-quruculuq işlərinə start verilir. Bu da böyük iqtisadi canlanmaya gətirib çıxaracaq. Ancaq biz başa düşməliyik ki, birbaşa xarici investisiyalar olmadan ölkəmiz istədiyimiz qədər inkişaf edə bilməz. Ona görə başqa ölkələrlə hökumətlərarası komissiyaların işi də, ilk növbədə, xaricdən vəsaiti Azərbaycana gətirməkdir. Hesab edirəm ki, məhz bu zona potensial investorlar üçün cəlbedici ola bilər.

Beləliklə, bir ildən sonra - gələn ilin iyul ayında zona investorları qəbul etməyə hazır olacaq. Əminəm, biz görəcəyik ki, bax, burada göstərilən mənzərə həyatda öz əksini tapacaq. Çünki bu günə qədər bütün təşəbbüslərimiz, bütün planlarımız həyatda öz əksini tapıb. Elə bir təşəbbüs olmayıb ki, o, reallığa çevrilməsin. Ən çətin layihələr, transmilli layihələr, çox çətin geosiyasi vəziyyətdə həyata keçirdiyimiz layihələr uğurla başa çatıb. Bunları sadalamağa ehtiyac yoxdur, hər kəs bilir söhbət nədən gedir. Ona görə bu zonanın yaradılması əminəm ki, uğurumuzun növbəti addımı olacaqdır.

**- Cənab Prezident, suallarımızı ətraflı cavablandırdığınız üçün çox sağ olun. Minnətdarıq Sizə.**

- Sağ olun.

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 109-cu kitabı çapdan çıxıb




Bu müharibəni biz şəhidlərimizin canı, qanı bahasına, hərbçilərimizin şücaəti hesabına qazanmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah onların yaxınlarına səbir versin! Bütün şəhid ailələri dövlət tərəfindən qayğı ilə əhatə olunub. Bütün şəhid ailələrinə dövlət tərəfindən mənzillər, evlər veriləcəkdir. Artıq bu ildən başlayaraq göstəriş verildi. Şəhid ailələri üçün müavinət 300 manatdan 500 manata qaldırıldı və daim o ailələr diqqət mərkəzində olacaqdır. Birinci Qarabağ müharibəsində həlak olmuş 9 min şəhidin ailəsinə dövlət tərəfindən artıq mənzillər, evlər verilib.

Yaralı hərbçilərimiz dövlət tərəfindən qayğı ilə əhatə olunub. Əlil olmuş hərbçilərin reabilitasiyası, onların müasir protezlərlə təmin edilməsi məsələsi öz həllini tapacaq. Müharibədə qəhrəmanlıq göstərmiş minlərlə hərbçi mənim tərəfimdən yüksək orden və medallarla təltif edilib.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 109-cu kitabında yer alan bu fikirləri Azərbaycan Prezidenti yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı söyləyib.

Çoxcildliyin yeni kitabındakı materiallar 2020-ci ilin dekabrından 2021-ci ilin fevralınadək olan dövrü əhatə edir.

Bu cildə Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərləri, Füzuli-Şuşa avtomobil yolunun və Füzuli rayonunda hava limanının təməlqoyma mərasimində iştirakı barədə materiallar, Şuşada, Cıdır düzündə çıxışının mətni daxil edilib. Dövlət başçısının Füzuli rayonunda hava limanının təməlqoyma mərasimində söylədiyi "Böyük qayıdış başlayır, bütün işlərə start verildi. Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, - cəmi 44 gün ərzində, - bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik" sözləri xalqımızın tarixi günlər yaşadığını bir daha təsdiqləyir.

Oxucular yeni nəşrdə Prezident İlham Əliyevin Moskvaya işgüzar səfəri çərçivəsində Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin üçtərəfli görüşü haqqında informasiya, 2021-ci il 11 yanvar tarixli birgə bəyanatın, mətbuata bəyanatlarla çıxışların mətnləri, Rusiya Prezidenti ilə görüşünə dair materiallarla tanış ola bilərlər.

Kitaba Azərbaycan Prezidentinin Türkiyənin milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyəti, Rusiya Federasiyası hökumətinin sədr müavini, Rusiya-Azərbaycan İqtisadi Əməkdaşlıq üzrə hökumətlərarası birgə Komissiyasının həmsədri Aleksey Overçuk, ISESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyəti, İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif, Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Dövlət katibi Jan Batist Lömuan ilə görüşlərinə dair informasiyalar daxil edilib.

Çoxcildliyin 109-cu kitabında Azərbaycan Prezidentinin 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə söylədiyi nitqlərin mətnləri, Sabunçu rayonunda yenidən inşa edilmiş 90 saylı və Suraxanı rayonunda 97 saylı tam orta məktəblərdə, Xırdalan şəhərində 3 saylı Texniki-təbiət fənləri təmayüllü məktəb-liseydə yaradılmış şəraitlə tanışlığına, Yasamal rayonunda yeni salınmış meşə tipli parkın, Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilmiş binasının açılış mərasimlərində və digər tədbirlərdə iştirakına dair materiallar yer alıb.

Yeni nəşrdə Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına, Milad bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasına müraciətinin mətnləri də verilib.

"Azərnəşr" tərəfindən buraxılan 109-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## Azərbaycanda Qurban bayramı ilə əlaqədar iş və istirahət günlərinin yerləri dəyişdirilib

Azərbaycanda Qurban bayramı ilə əlaqədar iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2021-ci il 19 iyul iş günü ilə 17 iyul istirahət gününün yerləri dəyişdirilib.

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar Baş nazir Əli Əsədov "İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında" Qərar imzalayıb.

## İşçi qrupların birgə iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Hərbi-mülki əlaqələndirmə məsələləri üzrə İşçi Qrupu ilə Ekoloji məsələlər üzrə İşçi Qrupunun birgə iclası keçirilib.

Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası katibinin xidmətinin, Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Dövlət Sərhəd Xidmətinin və digər müvafiq dövlət qurumlarının məsul nümayəndələri iştirak ediblər.



İclasda işğaldan azad olunmuş ərazilərdə yanğınların qarşısının alınması və bu istiqamətdə aidiyyəti qurumların səylərinin birləşdirilməsi məsələləri də müzakirə olunub. Yanğınların qarşısının alınması üçün hərbi qulluqçular və mülki işçilər arasında maarifləndirmə işlərinin səmərəliliyinin artırılmasının, təbliğat işlərinin intensivləşdirilməsinin və bu tədbirlərdə kütləvi informasiya vasitələrinin iştirakının genişləndirilməsinin, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin həmin ərazilərdə yerləşən hərbi hissələri, müvafiq dövlət orqanları və təşkilatlar arasında məlumat mübadiləsinin operativliyinin artırılmasının vacibliyi vurğulanıb.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

## Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar üzrə İşçi Qrupunun növbəti iclası

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, İşçi Qrupa daxil olan aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirak etdiyi iclasda işğaldan azad edilmiş ərazilərdə nəqliyyat və rabitə infrastrukturunun bərpası məqsədilə hazırda icra edilən layihələr, o cümlədən dəmir və avtomobil yollarının, hava limanlarının tikintisi üzrə görülən işlər, həmin ərazilərdə mövcud tələbata uyğun olaraq telekommunikasiya şəbəkələrinin qurulması və rabitə xidmətlərinin təşkili üzrə layihələrin icra vəziyyəti barədə aidiyyəti qurumlar tərəfindən ətraflı məlumatlar verilib və müzakirələr aparılıb.

İclasda hazırda icra edilən strateji əhəmiyyətli infrastruktur layihələrinin keçdiyi ərazilərin minalardan təmizlənməsi məsələləri xüsusi olaraq müzakirə edilib, bu istiqamətdə görülən işlər barədə məlumatlar dinlənilib, qarşıya çıxan problemlər və onlardan çıxış yolları barədə təkliflər səsləndirilib.

Bununla yanaşı, icrasına başlanan və planlaşdırılan layihələr üzrə layihə smeta sənədlərinin hazırlanması, müvafiq qaydada razılaşdırılması, infrastruktur layihələri altına düşən torpaq sahələrinin və obyektlərin layihə smeta sənədlərində müvafiq qaydada nə-



zərə alınması məsələləri müzakirə edilib. İclasda həmçinin mövsümlə əlaqədar havaların isti keçməsi səbəbindən işğaldan azad edilmiş ərazilərdə layihələri icra edən qurumlar və podratçı təşkilatlar tərəfindən yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl edilməsi iclas iştirakçılarının nəzərinə çatdırılıb.

İşğaldan azad olunan ərazilərdə nəqliyyat və rabitə infrastrukturunun bərpası üzrə bütün qurumlar tərəfindən görülən işlərin İşçi Qrupu vasitəsilə İdarələrarası Mərkəzlə əlaqələndirilməklə icra edilməsinin, hər bir qurum və nümayəndə tərəfindən bu proseslərdə aktiv və qarşılıqlı əməkdaşlıq şəraitində iştirakın təmin edilməsi və görülən işlərə töhfə verilməsinin vacibliyi vurğulanıb.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Azərbaycan-Macarıstan parlamentlərarası əlaqələri müzakirə olunub





Milli Məclisin Sədri Sahibə Qafarova Macarıstana rəsmi səfəri çərçivəsində iyunun 30-da bu ölkənin Milli Assambleyasının sədri Laszlo Kover ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədrini və nümayəndə heyətini salamlayan Laszlo Kover dəvətini qəbul edərək Macarıstana səfərə gəldiyinə görə Azərbaycan parlament nümayəndə heyətinə təşəkkürünü bildirib. Diqqətə çatdırıb ki, müasir dünyada parlament diplomatiyasının əhəmiyyəti getdikcə artmaqdadır. Laszlo Kover dost və strateji tərəfdaş münasibətlərinə malik olan Macarıstan və Azərbaycan parlamentlərində fəaliyyət göstərən dostluq qruplarının əlaqələrimizin inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Qeyd edib ki, deputatlarımız beynəlxalq parlament təşkilatlarında da uğurla əməkdaşlıq edir, ölkələrimizin maraqları baxımından bir-birilərinə dəstək verirlər.



Laszlo Kover Macarıstanın müşahidəçi statusuna malik olduğu TÜRKPA çərçivəsində türk dünyası ilə artan əməkdaşlığın ölkələrimizin mövqelərinin daha da möhkəmlənməsinə xidmət edəcəyinə inamını bildirib. Macarıstan parlamentinin sədri çətin anlarda, o cümlədən pandemiya dövründə macar xalqına verdiyi dəstəyə görə Azərbaycana təşəkkürünü bildirib. "Bu dostcasına hərəkət bizim üçün çox dəyərlidir", - deyən L.Kover iki xalq arasında əlaqələrini yüksək qiymətləndirdiyini diqqətə çatdırıb.

Görüşdə çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova göstərilən qonaqpərvərliyə və bu ölkəyə rəsmi səfərə dəvətinə görə həmkarına minnətdarlığını ifadə edib. Macarıstanın Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən biri olduğunu qeyd edən Sahibə Qafarova ölkəmizin Macarıstanla hərtərəfli əlaqələrin inkişafında maraqlı olduğunu deyib. Qeyd edib ki, bu gün bu münasibətlər dostluq və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Münasibətlərimizin inkişafında dövlət başçılarımızın qarşılıqlı səfərlərinin, keçirdikləri görüşlərin və imzalanan sənədlərin xüsusi rolu var.

Azərbaycanla Macarıstan arasında ticarət dövriyyəsinə dair göstəricilərə toxunan Milli Məclisin Sədri vurğulayıb ki, ticarət dövriyyəsini artırmaq üçün daha yüksək potensial var. Qeyd edilib ki, hazırda Azərbaycan Cənubi Qafqazın böyük iqtisadi mərkəzidir. Ölkəmiz enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaşdır, Avropaya enerji təchizatı marşrutlarının şaxələndirilməsinin təmin edilməsində mühüm rol oynayır. Humanitar əlaqələrdən danışan Milli Məclisin Sədri bu münasibətlərin inkişafındakı xidmətlərinə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Macarıstanın Ali mükafatı ilə təltif olunduğunu xatırladıb.

Söhbət zamanı Sahibə Qafarova bildirib ki, parlamentlərarası əlaqələrimiz də daim inkişaf edir. Hər iki ölkənin parlamentlərindəki qarşılıqlı dostluq qrupları qanunverici orqanlar arasındakı münasibətlərin daha da dərinləşməsinə töhfə verir. Deputatlarımızın beynəlxalq təşkilatlardakı əməkdaşlığı təqdirəlayiqdir. Milli Məclisin Sədri Macarıstan hökumətinə, Macarıstan parlamentinin rəhbərliyinə və deputatlara 44 günlük Vətən müharibəsi dövrü də daxil olmaqla, Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəklədiyinə görə təşəkkürünü bildirib.

S.Qafarova diqqətə çatdırıb ki, artıq müharibə başa çatıb və Azərbaycan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlayıb. Tərəflər 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatla bütün məsələləri həll etmək barədə razılığa gəlsələr də, Ermənistanın azad edilmiş torpaqlarımızdakı minalanmış ərazilərin tam xəritəsini verməməsi nəticəsində hərbi qulluqçular və mülki şəxslər, o cümlədən jurnalistlər mina partlayışlarının qurbanı olur. Milli Məclisin Sədri minalanmış ərazilərin təmizlənməsi işində Macarıstanın ANAMA-ya verdiyi dəstəyə görə minnətdarlığını ifadə edib və beynəlxalq ictimaiyyətin Ermənistanı minalanmış ərazilərin tam xəritəsini verməyə məcbur etməsinin vacibliyindən danışıb.

Sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barəsində fikir mübadiləsi aparılıb.

# Milli Məclisin Sədri Macarıstan Diplomatik Akademiyasında çıxış edib





Budapeştdə rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlamentinin nümayəndə heyəti iyunun 30-da Macarıstan Diplomatik Akademiyasında keçirilən tədbirdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Milli Məclisin Sədri Sahibə Qafarova ilə Macarıstanın Dövlət katibi - Macarıstan Diplomatik Akademiyasının prezidenti Orsolya Pacsay Tomassiç arasında görüş olub.

Sonra Milli Məclisin Sədri Macarıstan Diplomatik Akademiyasında keçirilən konfransda çıxış edib. Sahibə Qafarova tədbir iştirakçılarına Azərbaycanın keçdiyi tarixi yol barədə məlumat verib, minillik tarixə malik dövlətçilik ənənələrimizdən danışıb.

Ölkələrimiz arasında münasibətlərə toxunan Milli Məclisin Sədri qeyd edib: "Macarıstan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Gələn il diplomatik münasibətlərimizin 30 illiyini qeyd edəcəyik. Ortaq tarixi köklərə və oxşar tarixi taleyə malik olan xalqlarımız arasında ikitərəfli münasibətlər yüksək səviyyədədir. Dövlət başçılarının qarşılıqlı səfərləri, görüşlər və indiyədək imzalanmış sənədlər əməkdaşlığımızın gələcək inkişafı üçün möhkəm zəmin yaradıb. İqtisadi əlaqələrimiz günbəgün genişlənir".

Parlamentlərarası əməkdaşlığa toxunan Sahibə Qafarova deyib ki, bu səviyyədə təmaslar dövlətlərarası əlaqələrin daha da möhkəmlənməsinə töhfə verir. İnanıram ki, parlamentarilərimiz mövcud əməkdaşlıq ənənəsini Parlamentlərarası Birlik, AŞ PA, ATƏT PA, NATO PA, eləcə də Avropa Parlamenti və digər beynəlxalq parlament təşkilatları çərçivəsində davam etdirəcəklər.

Çıxışında TÜRKPA-nın fəaliyyətini xüsusi qeyd edən S.Qafarova Macarıstanın həmin qurum çərçivəsində türk dünyası ilə artan əməkdaşlığı təşviq etməsindən məmnunluğunu bildirib.

Milli Məclisin Sədri qeyd edib ki, son illərdə Azərbaycanın təşəbbüsü ilə genişmiqyaslı qitələrarası enerji və nəqliyyat layihələri uğurla həyata keçirilib. Sahibə Qafarova bu baxımdan Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft kəməri və "Cənub qaz dəhlizi" barədə danışıb.

Azərbaycan parlamentinin rəhbəri ərazilərimizin 30 il müddətində Ermənistan tərəfindən işğalda saxlanmasının uzun illər Qafqazda regional inkişafa və inteqrasiyaya əsas maneə olduğunu vurğulayıb. S.Qafarova ötən il Azərbaycanın öz hərbi-siyasi imkanları hesabına erməni işğalına son qoyduğunu bildirib. O, təəssüflə qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi üç onillik ərzində kağız üzərində qalmışdı. Nəhayət, Azərbaycan özü bu qətnamələrin icrasını təmin edərək ərazi bütövlüyünü bərpa etdi.

Sahibə Qafarova vurğulayıb ki, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan tarixi torpaqları olan Qarabağı tamamilə azad etdi və Ermənistanı 10 noyabr 2020-ci ildə təslim aktını imzalamağa məcbur etdi. O, Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəklədiklərinə görə Macarıstan hökumətinə və macar həmkarlarına təşəkkürünü bildirib. İşğal dövründə erməni vandallarının şəhər və kəndlərimizə vurduqları ziyandan danışıb, onların tarixi-mədəni abidələrimizi məhv etdiklərini bildirib, məscidlərimizi dağıtdıqlarını, milli sərvətlərimizi talan etdiklərini macar ictimaiyyətinin diqqətinə çatdırıb. Milli Məclisin Sədri məlumat verib ki, Azərbaycan artıq azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlayıb.

S.Qafarova xatırladıb ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində 1 milyon qaçqın və məcburi köçkünümüz var. Onlar öz evlərinə qayıtmalıdırlar. Biz məcburi köçkünlərin təhlükəsizliyini təmin etməliyik. Ancaq bu yolda çoxlu maneələr var, - deyən Milli Məclisin sədri işğaldan azad edilmiş ərazilərin, ilk növbədə, minalardan təmizlənməli olduğunu vurğulayıb. Qeyd edib ki, Ermənistan azad olunmuş torpaqlarımızdakı minalanmış ərazilərin xəritələrini verməkdən imtina edir. Bunun nəticəsində Azərbaycan vətəndaşı olan hərbi qulluqçu və mülki şəxslər, o cümlədən jurnalistlər mina partlaması nəticəsində yaralanıb və ya həlak olublar. O, bir daha beynəlxalq ictimaiyyəti Ermənistanı minalanmış ərazilərin xəritələrini verməyə məcbur etməyə çağırıb.

Milli Məclisin Sədri Ermənistanın uydurma "hərbi əsirlər" iddiasına da diqqət çəkərək onların işğaldan azad olunmuş ərazilərdə törətdikləri təxribatlardan, müharibə cinayətlərindən danışıb, erməni tərəfinin üçtərəfli bəyanata əməl etməyərək sərhəddə təxribatçı əməllərə əl atdığını söyləyib.

Milli Məclisin Sədri Sahibə Qafarova tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, Prezident İlham Əliyevin dəfələrlə dediyi kimi, Azərbaycan bölgədə sülh və sabitlik arzulayır. Azərbaycan bunun üçün bütün lazımi addımları atır və atmağa davam edəcək.

# Məhkəmə-hüquq islahatları ilə əlaqədar qanunvericilik təkmilləşdirilir

İyulun 1-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi ilə birgə videokonfrans formatında iclası keçirilib.

İclasda Mülki Prosessual, İnzibati Prosessual məcəllələrində və "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə 3 layihə ikinci oxunuşda müzakirəyə çıxarılıb.

Tədbiri açan Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, müzakirəyə çıxarılan dəyişikliklərlə bağlı müəyyən suallar səsləndirildiyi üçün iclasa Milli Məclisin digər komitələrindən deputatlar, Ali Məhkəmənin hakimləri, Vəkillər Kollegiyasının üzvləri və digər aidiyyəti qurumların nümayəndələri dəvət olunub. Əli Hüseynli təklif olunan dəyişikliklərin hazırlanması ilə birbaşa bağlı olan Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərova söz verib.

Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov bildirib ki, qanun layihələri Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli fərmanından irəli gələn məsələlərə müvafiq olaraq ədalət mühakiməsinin səmərəliliyini artırmaq, məhkəmə prosesi iştirakçılarının hüquq və səlahiyyətləri daha dolğun müəyyənləşdirmək, məhkəmə icraatında müasir dövrün tələblərinə uyğun qabaqcıl informasiya texnologiyalarını tətbiq etmək məqsədilə hazırlanıb.



Müzakirələrdə Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini Qüdrət Həsənquliyev, komitə üzvləri Kamal Cəfərov, Bəhruz Məhərrəmov, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Mədəniyyət komitəsi sədrinin müavini Fazil Mustafa, deputat Etibar Əliyev çıxış edərək təklif olunan dəyişikliklər barədə fikirlərini açıqlayıblar. İclas iştirakçıları bütövlükdə qanun layihələrinin mütərəqqi xarakter daşıdığını diqqətə çatdırıblar, xüsusən məhkəməyə hazırlıq, elektron məhkəmə imkanlarının genişləndirilməsi, məhkəmə-hüquq islahatlarının davam etdirilməsi və dərinləşdirilməsi baxımından yüksək qiymətləndiriblər.

İclasda Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri Anar Bağırov, vəkillər İlhamə Həsənova, Gülşən Salmanova, Muxtar Mustafayev, Anar Qasımlı, Sima Yaqubova, Azər Quliyev təklif olunan dəyişikliklərdə əsasən vəkillik fəaliyyəti ilə bağlı məqamlar barədə fikirlərini bildiriblər.

Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov müzakirələrdə səslənən suallara cavab verib, təklif olunan dəyişikliklərlə bağlı bir sıra məsələlərə aydınlıq gətirib. O, qanun layihələri hazırlanarkən məhkəmələrin, nazirliklərin, aidiyyəti qurumların təkliflərinin toplanaraq işçi qrupda təhlil edildiyini, bu sahədə beynəlxalq təcrübənin nəzərə alındığını bildirib.

Çingiz Əsgərov təklif olunan dəyişikliklərin bir qisminin prosessual hüquqlardan sui-istifadəyə qarşı yönəldiyini, ədalət mühakiməsinin səmərəli qaydada həyata keçirilməsinə manea törədən hərəkətlərin qarşısının alınması üçün nəzərdə tutulduğunu deyib. Vurğulanıb ki, təklif edilən dəyişikliklər məhkəmələrin nüfuzunun artırılmasına, ədalət mühakiməsinin və vətəndaşlara göstərilən hüquqi yardımın keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Müzakirələrə yekun vuran Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli iclas iştirakçılarına səmərəli fikir mübadiləsinə görə təşəkkür edib, fəal müzakirələrin bu qanun layihələrinin vacibliyini bir daha nümayiş etdirdiyini bildirib.

Sonra deputatlar gündəlikdəki qanun layihələrinin hər üçünü ikinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Şuşa Bəyannaməsi dostluq və qardaşlığı yeni səviyyəyə qaldırıb

Milli Məclisin Mədəniyyət komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Qənirə Paşayeva iyunun 30-da Türkiyə Respublikasının Azərbaycanda yeni fəaliyyətə başlayan fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı ilə görüşüb.

Komitə sədri bildirib ki, dahi rəhbərlər - Mustafa Kamal Atatürkün və Heydər Əliyevin "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", "Biz bir millət, iki dövlətik" kəlamlarının ruhuna, fəlsəfəsinə uyğun olaraq, Türkiyə ilə Azərbaycan arasında strateji münasibətlər mövcuddur. "Dövlət başçıları Rəcəb Tayyib Ərdoğanın və İlham Əliyevin imzaladığı "Şuşa Bəyannaməsi" bu dostluq və qardaşlığı yeni səviyyəyə qaldırıb.

Qənirə Paşayeva diqqətə çatdırıb ki, qardaş ölkələrimizin parlamentləri səviyyəsində də işbirliyi yüksək səviyyəsi ilə seçilir. Parlament sədrlərinin dəstəyi ilə qarşılıqlı maraq doğuran məsələlər mütəmadi olaraq müzakirə edilir, o cümlədən mədəni əlaqələrin daha güclü davamı və inkişafı ilə bağlı ardıcıl işlər görülür. Strateji müttəfiqliyimizi təsbit edən Bəyannamənin məhz Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşa şəhərində imzalanması özünəməxsus rəmzi məna daşıyır.

Hər iki ölkənin parlamentlərində qarşılıqlı əlaqələr üzrə geniştərkibli işçi qruplarının fəaliyyət göstərdiyinin məmnuniyyətlə vurğulandığı görüşdə, o da bildirilib ki, deputatlarımız müxtəlif nüfuzlu beynəlxalq qurumlarda bir-birini daim dəstəkləyir, ortaq mövqedən çıxış edirlər.

Türkiyə ilə Azərbaycan arasında strateji münasibətlərin möhkəm tarixi köklərə malik olduğunu vurğulayan səfir Cahit Bağçı səmimi görüşə görə təşəkkür edib. Səfir Azərbaycanda çox tarixi bir dövrdə diplomatik fəaliyyətə başlamasından böyük şərəf duyduğunu bildirib.

Görüşün sonunda Qənirə Paşayeva Cahit Bağçıya dekorativ sənət nümunəsi olan "Xarıbülbül" xatirə hədiyyəsi təqdim edib, ona səfirlik fəaliyyətində uğurlar arzulayıb.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Şəhərsalma və Arxitektura Komitəsi "Qədim Qarabağın yenilənən siması" müsabiqə proqramına başlayır

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi "Qədim Qarabağın yenilənən siması" adlı müsabiqə proqramına başlayır. Komitə Qarabağda Sarıcanlı, Horadiz, Zar, Şəlvə, Böyük Mərcanlı kəndlərinin və Xudafərin qəsəbəsinin memarlıq planlaşdırma həlləri üzrə müsabiqədə iştiraka dəvət edir.

AZƏRTAC xəbər verir ki, bu barədə iyulun 1-də Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev komitənin bu aktual məsələyə həsr etdiyi iclasda deyib.

Aidiyyəti dövlət qurumlarının təmsil olunduğu işçi qrupun iclasını açan A.Quliyev bildirib ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən Ermənistanın 30 illik işğalçı siyasətinə son qoyulub və ölkəmiz 44 günlük Vətən müharibəsində tarixi Qələbə qazanaraq regionda təhlükəsizliyin, ədalətin bərqərar olması və öz ərazi bütövlüyünün bərpa edilməsinə nail olub. İşğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamına əsasən, Əlaqələndirmə Qərargahı, İdarələrarası Mərkəz və müvafiq sahələr üzrə İşçi Qrupları yaradılıb. Dövlət başçısının tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası, dağıdılmış yaşayış məntəqələrinin baş planlarının və digər ərazi-planlaşdırma sənədlərinin hazırlanması, şəhərsalma proseslərinin sistemli və əlaqələndirilmiş şəkildə təşkili üçün Əlaqələndirmə Qərargahının nəzdində yaradılmış Şəhərsalma Məsələləri üzrə İşçi Qrupu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyi ilə uğurla fəaliyyət göstərməkdədir.

A.Quliyev qeyd edib ki, iyulun 1-də Şəhərsalma Məsələləri üzrə İşçi Qrupun geniştərkibli növbəti 15-ci iclasında Qarabağın dirçəldilməsi üzrə görülən kompleks planlaşdırma işlərinin davamı olaraq regionun bir neçə kənd və qəsəbələri üçün memarlıq planlaşdırma həlləri üzrə "Qədim Qarabağın yenilənən siması" adlı açıq müsabiqənin keçirilməsi barədə qərar qəbul olunub.

O, həmçinin işğaldan azad olunmuş ərazilərin bərpasının planlı və sistemli təşkili üçün komitə tərəfindən Qarabağ regionunun şəhərsalma konsepsiyasının və ərazi-planlaşdırma sənədlərinin hazırlanması üzrə işlərin sürətlə və əlaqəli şəkildə davam etdirildiyini, bu məqsədlə bir sıra yerli və nüfuzlu beynəlxalq şirkətlərin cəlb edildiyini diqqətə çatdırıb.

Qeyd edilib ki, ötən müddət ərzində regionun Ümumi planının hazırlanması çərçivəsində şəhərlərin, bir çox kənd və qəsəbələrin sərhədləri dəqiqləşdirilib, müvafiq ərazi-planlaşdırma sənədlərinin işlənməsinə başlanılıb. Buna paralel olaraq, uzun illər işğal altında olmuş yaşayış məntəqələrinin, xüsusən də əhalinin böyük hissəsinin yaşadığı kənd ərazilərinin tarixinə əsaslanaraq gələcək simasının, memarlıq planlaşdırma həllərinin müəyyən edilməsi də mühüm əhəmiyyət kəsb edir.

"Qeyd olunanları nəzərə alaraq, Qarabağın öz qədimliyini, tarixiliyini, memarlıq ənənələrini qoruyaraq yenidən canlandırmaq və burada milli ruhun müasir tələblərə cavab verən infrastrukturla vəhdətini təmin etmək məqsədilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Azərbaycan Memarlar İttifaqı və "Bakı Abadlıq Xidməti" MMC ilə birgə təşkil olunan memarlıq planlaşdırma həlləri üzrə "Qədim Qarabağın yenilənən siması" adlı müsabiqə proqramına başlayır. Qarabağın bir sıra kənd və qəsəbələrini əhatə edəcək müsabiqə proqramının ilk mərhələsində təqdim olunan layihələrdə Ağdam rayonunun Sarıcanlı, Füzuli rayonunun Horadiz, Kəlbəcər rayonunun Zar, Laçın rayonunun Şəlvə və Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndlərində, həmçinin Cəbrayıl rayonunun Xudafərin qəsəbəsində yaşayış məskənlərinin gələcək sosial, iqtisadi, texnoloji inkişafının həlledici istiqamətləri, milli memarlıq ənənələrinə bağlılıq və müasir həllərin mümkün inteqrasiyası, yüksək bədii-estetik görünüşün və həyat keyfiyyətinin inkişaf etdirilməsi, mühit-məkan həllinin müəyyənləşdirilməsi kimi vacib məqamlar öz əksini tapmalıdır", - deyə komitə sədri bildirib.

Diqqətə çatdırılıb ki, ümumi mükafat fondu 60 min manat olan müsabiqədə layihə müəllifləri fərdi və ya qrup şəklində iştirak edə bilərlər. İştirakçılar yuxarıda qeyd olunan kəndlərdən birini və ya bir neçəsini seçmək hüququna malik olsalar da, seçilmiş hər bir ərazi üzrə ayrılıqda bir layihə təqdim olunmalıdır. Müsabiqədə iştirak etmək istəyənlər 2021-ci il iyulun 15-dək qeydiyyatdan keçməli, layihələr isə iyulun 31-i saat 18:00-dan gec olmayaraq Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə tam tərkibdə təqdim olunmalıdır. Müsabiqədə iştirak üçün hər hansı ödəniş tələb olunmur. Bu il avqustun 15-də elan olunacaq nəticələrə əsasən münsiflər heyətinin seçdiyi 3 nəfər mükafatlandırılacaq. Belə ki, 1-ci yerin sahibi 5000 manat mükafat və 1-ci dərəcəli diplomla, 2-ci yerin sahibi 3000 manat və 2-ci dərəcəli diplomla, 3-cü yerin sahibi isə 2000 manat və 3-cü dərəcəli diplomla təltif olunacaqlar. Digər iştirakçılara həvəsləndirici hədiyyələr və iştirakçı sertifikatları təqdim ediləcək. Müsabiqənin əhatə etdiyi kəndlərdə bərpa-quruculuq işləri aparılacağı təqdirdə qalib gələn layihələr nəzərə alınacaq. Layihədə maraqlı şəxslər qeydiyyatdan keçmək, habelə müsabiqə tapşırığı, iştirak şərtləri, qaydalar və digər detallarla tanış olmaq üçün bu məqsədlə xüsusi hazırlanmış "Qədim Qarabağın yenilənən siması" internet səhifəsini (**www.bizimqarabagh.az**) ziyarət etməyə dəvət olunur.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsi müdirinin müavini Nüsrət Süleymanov şəhərsalma sahəsində işlərin sistemli və planlı şəkildə həyata keçirilməsinin önəmli olduğunu vurğulayıb. O deyib ki, dövlətimizin qarşısında duran vacib məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsidir və hazırda bu istiqamətdə müvafiq tədbirlər görülür. Bu işlərə paralel olaraq, işğaldan azad olunmuş ərazilər üzrə şəhərsalma istiqamətində konsepsiyanın hazırlanması və şəhərlər üzrə baş planın hazırlanması sahəsində də ölkə başçısının tapşırığına uyğun olaraq sistemli şəkildə fəaliyyətlər həyata keçirilir.

Prezident Administrasiyasının rəsmisi Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması və onun vəzifələri, eləcə də görülən işlər barəsində də geniş məlumat verib.

N.Süleymanov qeyd edib ki, Əlaqələndirmə Qərargahı Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılıb. Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir. Əlaqələndirmə Qərargahının yaradılmasında məqsəd isə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bütün fəaliyyətlərin mərkəzləşdirilmiş sistemli şəkildə və əlaqələndirilmiş qaydada həyata keçirilməsini təmin etməkdir: "Hazırda Əlaqələndirmə Qərargahının nəzdində İdarələrarası mərkəz fəaliyyət göstərir. Sözügedən mərkəzin nəzdində 10-dan çox işçi qrupu mövcuddur. Bu işçi qruplar, demək olar ki, fəaliyyətin bütün istiqamətlərini əhatə edir".

İclasda məruzə ilə çıxış edən Bakı Dövlət Layihə İnstitutunun direktoru İlqar İsbatov müsabiqə, onun keçirilməsinin zəruriliyi və şərtləri ilə bağlı ətraflı məlumat verib.

Tədbirdə qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin sistemli və sürətli şəkildə aparılması, həmçinin memar, urbanist və layihəçilərin hər birimizin qürur mənbəyi olan Qarabağda baş verən şəhərsalma proseslərində yaxından iştirakını təmin etmək məqsədilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən digər kəndləri də əhatə edəcək müsabiqə proqramlarının həyata keçirilməsi planlaşdırılır.

# İqtisadiyyat naziri Çin şirkətlərini Ağdam Sənaye Parkına investisiya yatırmağa dəvət edib

İqtisadiyyat naziri Mikayıl Cabbarov Çin Xalq Respublikasının ölkəmizdəki səfiri xanım Quo Minlə görüşüb.

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Çin Kommunist Partiyasının yaradılmasının 100 illiyi ilə bağlı səfirə təbriklərini çatdıran nazir Azərbaycanın Çinlə əlaqələrə böyük önəm verdiyini və əməkdaşlığın bütün sferalarda genişləndirilməsində maraqlı olduğunu vurğulayıb. Qeyd edilib ki, dövlət başçılarının siyasi iradəsi, yüksəksəviyyəli səfərlər və keçirilən görüşlər tərəfdaşlığın inkişafına əlverişli zəmin yaradır. Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən dövlətlərdəndir. Beynəlxalq arenada ölkələrimizin ərazi bütövlüyünə və suverenliyinə qarşılıqlı olaraq ifadə edilən dəstək xüsusi əhəmiyyətə malikdir.



M.Cabbarov deyib ki, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyası ölkələrimiz arasında əlaqələrin genişlənməsində əlverişli platformadır. Azərbaycanın Çində ticarət nümayəndəsi, 3 ticarət evi, 3 şərab evi, ticarət şəbəkələrində 3 ticarət bölməsi fəaliyyət göstərir və bu istiqamətdə tədbirlər davam etdirilir. Azərbaycanda Çin sərmayəli şirkətlər fəaliyyət göstərir, uğurlu investisiya əməkdaşlığı həyata keçirilir. Sənaye sahəsində Çinlə bir sıra layihələr üzrə danışıqlar aparılır.

Görüşdə işğaldan azad olunan ərazilərimizdə aparılan bərpa işləri barədə məlumat verilib, Çin şirkətlərinin burada yenidənqurma işlərində iştirak imkanları vurğulanıb.

Nazir Azərbaycan iqtisadiyyatının prioritetlərini, qeyri-neft sektorunun dayanıqlı artımını, ticarət, investisiya, nəqliyyat-tranzit və sair sahələrdə tərəfdaşlığın möhkəmləndirilməsi üçün perspektivləri qeyd edərək Çin şirkətlərini ölkəmizdə yaradılmış əlverişli işgüzar mühitdən yararlanmağa, sənaye parklarına, o cümlədən bu yaxınlarda təməli qoyulan Ağdam Sənaye Parkına investisiya yatırmağa dəvət edib.

Görüşdə Azərbaycanın əlverişli nəqliyyat-tranzit potensialı, Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi və Zəngəzur dəhlizinin əhəmiyyəti diqqətə çatdırılıb.

Səfir Q.Min ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini vurğulayaraq, iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı istiqamətləri barədə fikirlərini bölüşüb, Zəngəzur dəhlizinin Çinin "Bir kəmər, bir yol" nəqliyyat layihəsinə töhfə verəcəyinə əminliyini bildirib. Səfir Azərbaycanın iqtisadiyyat nazirini Çində keçiriləcək növbəti Çin Beynəlxalq İdxal Sərgisinə dəvət edib.

Görüşdə iqtisadi tərəfdaşlığın möhkəmləndirilməsi və ticarət dövriyyəsinin artırılması barədə müzakirələr aparılıb.

# Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycan ərazisində terror-təxribat cinayətləri törədən erməni silahlılarının növbəti məhkəməsi keçirilib

Ötən il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatla atəşkəsin elan edilməsindən sonra Azərbaycan Respublikasının ərazisinə gizli yollarla qanunsuz keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin üzvləri ilə bağlı cinayət işi üzrə iyulun 1-də Bakı Ağır Cinayətlər Məhkəməsində növbəti məhkəmə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, hakim Azad Məcidovun sədrliyi ilə keçirilən prosesdə bu cinayət işi üzrə təqsirləndirilən 13 nəfər - Karapetyan Rafik Robertoviç, Qolayan Qurgen Hovannesoviç, Tadevosyan Hrayr Seryojeviç, Maloyan Vaqarşak Merojanoviç, Yerğiazaryan Sasun Seyranoviç, Vardanyan Arsen Araikoviç, Bahrekyan Vahagen Edikoçiv, Soğomanyan Setrak Samveloviç, Dilanyan Arman Vazgenoviç, Martoyan Manuk Xovanesoviç, Anbardanyan Vels Karapetoviç, Mikaelyan Andranik Vazgenoviç, Qriqoryan Feliks Arşakoviçin terror-təxribat cinayətləri ilə bağlı cinayət işinə baxılıb.

İctimaiyyətə açıq və şəffaf şəkildə keçirilən məhkəmə iclasında media nümayəndələri, vətəndaş cəmiyyətinin təmsilçiləri, xarici ölkələrin Azərbaycandakı səfirliklərinin əməkdaşları iştirak ediblər.

Məhkəmə iclasında təqsirləndirilən şəxslərə hüquqları izah edilib, onların dövlət hesabına vəkillər və tərcüməçi ilə təmin olunduqları bildirilib.

İclasda təqsirləndirilən şəxslərin anket məlumatları bir daha dəqiqləşdirildikdən sonra ittiham aktı elan olunub.

Fasilədən sonra məhkəmə iclası təqsirləndirilən şəxslərin sərbəst ifadələrinin alınması ilə davam etdirilib. Təqsirləndirilən şəxslərdən Dilanyan Arman Vazgenoviç, Soğomanyan Setrak Samveloviç, Karapetyan Rafik Robertoviç ifadələrində olduqları ərazidə Azərbaycan Ordusunun hərbçiləri gələcəyi təqdirdə silahlı müqavimət göstərməklə bağlı tapşırıq aldıqlarını bildiriblər.

İfadə verən şəxslər məhkəmə prosesində hakimin, prokurorun və vəkillərin suallarını cavablandırıblar.

Növbəti məhkəmə iclası iyulun 5-nə təyin edilib.

Xatırladaq ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli bəyanatla atəşkəsin elan olunmasından sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən 2020-ci il dekabrın 13-də keçirilmiş antiterror əməliyyatı nəticəsində tərk-silah edilmiş üzvləri barəsində cinayət işinin istintaqı DTX-nin İstintaq Baş İdarəsində aparılıb.

İstintaqla müəyyənləşdirilib ki, cinayətkar silahlı birləşmələrin üzvləri 2020-ci il noyabrın 26-27-də Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq mütəşəkkil dəstə halında keçməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik və digər ərazilərində döyüş mövqeləri tutaraq dekabrın 13-dək olan müddətdə ölkə ərazisində yerləşən müəssisə, idarə, təşkilatlara, habelə ayrı-ayrı şəxslərə silahlı basqınlar etdikləri, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər terror əməlləri törədiblər.

Bu faktlarla bağlı qanunsuz silahlı birləşmənin üzvləri Mikaelyan Andranik Vazgenoviç, Soğomonyan Setrak Samveloviç, Karapetyan Rafik Robertoviç və digərləri də daxil olmaqla, ümumilikdə daha 13 təqsirləndirilən şəxs Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1-ci, 214.2.3-cü (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə), 228.3-cü (mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə), 279.2-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunurlar.

# Azərbaycan ərazisində terror-təxribat cinayətləri törədən erməni silahlı dəstələrinin üzvləri ilə bağlı növbəti məhkəmə iclası keçirilib

Ötən il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatla atəşkəsin elan edilməsindən sonra Azərbaycan Respublikasının ərazisinə gizli yollarla qanunsuz şəkildə daxil olub Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin üzvlərinin cinayət işi üzrə iyulun 1-də Bakı Apellyasiya Məhkəməsində növbəti məhkəmə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, ictimaiyyətə açıq və şəffaf şəkildə keçirilən məhkəmə iclasında yerli və xarici media nümayəndələri, vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak ediblər.

Hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə bu cinayət işi üzrə təqsirləndirilən 13 nəfər - Astanyan Yeqiş Oqanesoviç, Aramyan Karen Armenoviç, Avakyan Tiqran Manikoviç, Qevorkyan Qriqor Qevorqiyeviç, Manukyan Ovsep Robertoviç, Martirosyan Qevorg Samveloviç, Qevorkyan Robert Ovikoviç, Avetisyan Vaqarşaq Aşotoviç, Akopyan Volodya Qaqikoviç, Sukiasyan Andranik Srapoviç, Manukyan Andranik Tiqranoviç, Saqatelyan Qriqor Seyranoviç və Giraqusyan Eduard Armenoviç ilə bağlı məhkəmə istintaqının başlanması barədə qərar qəbul olunub.

Sonra ittiham aktı elan edilib.

Növbəti məhkəmə iclası iyulun 5-nə təyin olunub.

Xatırladaq ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli bəyanatla atəşkəsin elan olunmasından sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2020-ci il dekabrın 13-də keçirilmiş antiterror əməliyyatı nəticəsində tərk-silah edilmiş üzvləri barəsində cinayət işinin istintaqı DTX-nin İstintaq Baş İdarəsində aparılıb.

İstintaqla müəyyən edilib ki, Ermənistan Respublikasının vətəndaşlarından ibarət bir qrup şəxs qanunsuz şəkildə odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə edərək qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr yaratmışlar. Həmin birləşmələrin üzvləri 2020-ci il noyabrın 26-27-də Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq mütəşəkkil dəstə halında keçməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik və digər ərazilərində döyüş mövqeləri tutaraq 2020-ci il dekabrın 13-dək ölkə ərazisində yerləşən müəssisə, idarə, təşkilatlara, habelə ayrı-ayrı şəxslərə silahlı basqınlar edib, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər terror əməlləri törədiblər.

Bu faktlarla bağlı qanunsuz silahlı birləşmənin üzvləri Avakyan Qraç Arzumanoviç, Serobyan Geğam Samveloviç və digərlərinin, ümumilikdə 14 təqsirləndirilən şəxsin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1-ci, 214.2.3-cü (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə), 228.3-cü (mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə), 279.2-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunurlar.

# Azərbaycanı zəfərə qovuşduran siyasət

Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixində özünəməxsus yeri var. O elə bir şəxsiyyət idi ki, zaman keçdikcə onun dahiliyi, böyüklüyü bizə daha çox aydın olur. Belə bir misal var, uca dağ uzaqdan daha əzəmətli görünür.

Heydər Əliyevin 14 iyul 1969-cu ildə birinci dəfə respublikamızda siyasi hakimiyyətə gəlməsi xalqımızın tarixi taleyində misilsiz rol oynadı. Onun həyata keçirdiyi məqsədyönlü iqtisadi siyasət nəticəsində 1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrildi. Azərbaycanda gedən prosesləri analiz edən istənilən siyasi ekspert qeyd edir ki, həmin illərdə ölkə birmənalı şəkildə bütün istiqamətləri üzrə müstəqilliyə hazırlanırdı. Sonralar həmin dövrdə həyata keçirdiyi tədbirləri xatırladan Ulu Öndər Heydər Əliyev demişdir: "Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur".

Heydər Əliyev istər Azərbaycan SSR-in rəhbəri, istərsə də Moskvada yüksək vəzifədə olanda respublikamıza olan hücumların qarşısını ala bilirdi. Ona görə Azərbaycanı istəməyən qüvvələr daim çalışırdılar ki, Heydər Əliyev vəzifədən uzaqlaşdırılsın. Məqsədləri də bu idi ki, respublikamıza qarşı öz məkrli niyyətlərini həyata keçirsinlər. Bu qüvvələr birinci növbədə mənfur qonşularımız olan ermənilər, digər erməni xislətlilər və milli satqınlar idi. Nəhayət, həmin ünsürlər Mixail Qorbaçovun əli ilə 1987-ci ilin oktyabrında Heydər Əliyevin istefasına nail oldular.

İstefadan çox qısa müddət sonra M.Qorbaçovun müşaviri olan erməni Aqanbekyan Fransanın "Humanite" qəzetinə müsahibəsində dedi ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılmalıdır və Ermənistana verilməlidir. Və bildirdi ki, onun bu məsələ ilə əlaqədar Qorbaçovla söhbəti olub. Elə özü büruzə verdi ki, bu işin arxasında M.Qorbaçov durur. Ondan sonra məlum hadisələr başladı.

1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıya və digər rayonlara sovet qoşunu yeridildi və böyük faciələr baş verdi. O vaxt istefada olan Heydər Əliyev İlham Əliyevlə birlikdə Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək xalqımıza başsağlığı verdi və bu hadisələrdə əsas günahkar kimi respublika və SSRİ rəhbərliyini, birinci növbədə isə Qorbaçovu göstərdi. Bu, 20 Yanvar hadisələrinə verilmiş ilk siyasi qiymət idi.

Bu hadisədən sonra Ulu Öndərimizə qarşı çox böyük hücumlar başladı. Mən o vaxt Elmlər Akademiyasında çalışırdım. Bizim kollektiv çox maraqlı elmi tədqiqatlar aparırdı. Heç düşünmürdük ki, nə vaxtsa siyasi fəaliyyətə başlayacağıq. Kollektivimizin adından Heydər Əliyevə qarşı aparılan çirkin kampaniyaya öz kəskin etirazımızı bildirirdik. Əvvəllər bu müraciətləri Bakıdan göndərirdik, lakin başa düşdük ki, müraciətlər öz ünvanına çatmır. Odur ki, məcbur olub Moskvadan göndərməyə başladıq.



Həmin dövrdə Heydər Əliyevin əleyhinə yazı dərc edən qəzetlərin redaksiyasına gedərək hazırladığımız materialları verirdik, amma dərc etmirdilər. Yadımdadır, "İzvestiya" qəzetinin əlavəsi olan "Nedelya" qəzetində Heydər Əliyevin əleyhinə həqiqətə uyğun olmayan yazı dərc etmişdilər. Mən o qəzetin redaktor müavininin yanında oldum, kəskin söhbət etdik. Hazırladığımız cavabı təqdim etdim və bildirdim ki, siz demokratiyadan, aşkarlıqdan danışırsınız, əgər belədirsə, bizim cavablarımızı da dərc edin. Dedi baxarıq, amma dərc etmədilər. Bir dəfə Moskvada olanda Cəlal Əliyev "İzvestiya" qəzetinin baş redaktorunun birinci müavininə zəng edib həqiqəti söylədi. Amma yenə də cavabımızı dərc etmədilər. Moskvada olanda xarici agentliklərin və qəzetlərin Moskvadakı nümayəndəlikləri ilə də əlaqə yaratmağa çalışırdıq.

Heydər Əliyev 1990-cı ilin iyun ayında çətinliklə də olsa, Moskvadan Bakıya gəldi. O vaxt respublikada vəziyyət çox gərgin idi. Artıq Qarabağ problemi başlamışdı. Ermənistandan soydaşlarımızı qovurdular, öldürürdülər. Belə bir məqamda Heydər Əliyevə Bakıda yaşamağa imkan vermədilər. Məcbur olub Naxçıvana getdi. Naxçıvanlılar Heydər Əliyevi qorudular. Heydər Əliyevin Naxçıvana gəlməsinin muxtar respublikaya, eləcə də Azərbaycana çox xeyri oldu. Ulu Öndər Naxçıvanı qorudu, Türkiyə və İranla əlaqələr yaratdı.

Ulu Öndər Naxçıvandan həm Azərbaycan Ali Sovetinə, həm də Naxçıvan Ali Məclisinə deputat seçildi. Xalqın tələbi ilə 1991-ci il sentyabrın 3-də Naxçıvan Ali Məclisinin Sədri seçildi.

Heydər Əliyev 1991-ci il martın 7-də Ali Sovetin birinci sessiyasında çox konseptual çıxış etdi. Təəssüf ki, vaxtilə çörək verdiyi, vəzifələrə qoyduğu insanlar rəhbərliyin tapşırığı ilə ayaqlarını yerə döyür, səs-küy salır, Heydər Əliyevə çıxış etməyə imkan vermək istəmirdilər. Martın 9-da Ulu Öndərlə görüşdük. Həmin vaxt Heydər Əliyev mənə çıxışını verdi. Mən bu çıxışın nüsxəsini çıxardaraq yaydım. Çıxışın əslini isə qiymətli bir sənəd kimi bu gün də saxlayıram.

Heydər Əliyevin Moskvada Azərbaycanın daimi nümayəndəliyindəki çıxışının videosu da məndə idi. Mən onu Bakıda çox adama göstərdim, sonra qardaşıma verdim. Qardaşım rayonda Təhsil Şöbəsində işləyirdi və bir videomaqnitafon tapıb çıxışı müəllimlərə, fəallara göstərmişdi. Bundan Dövlət Təhlükəsizlik Komitəsinin rayon şöbəsi xəbər tutmuşdu. O vaxt rayonun birinci katibi Əli Rzayev idi. O, Heydər Əliyevə rəğbəti olan insanlardan idi. Videonu qardaşımdan alıb, baxıb və deyib işinə davam et, amma bir az ehtiyatlı ol. Bu işlərə o vaxt ehtiyac var idi. Çünki Ulu Öndərin haqqında güclü antitəbliğat aparılırdı.

AXC-nin hakimiyyəti dövründə ölkədə çox xaotik vəziyyət yaranmışdı. Buna görə biz 91 nəfər ziyalı 1992-ci ilin 16 oktyabrında Ulu Öndərimizə müraciət etdik. Müraciətdə bildirilirdi ki, ölkədə vəziyyət çox təhlükəlidi, müstəqilliyimizi itirmək təhlükəsi var. Biz istəyirik ki, böyük siyasətə qayıdasınız, partiya yaradasınız, onun rəhbəri olasınız, ölkəni bu vəziyyətdən xilas edəsiniz. Ulu Öndər 25 oktyabrda ziyalılara müsbət cavab verdi. 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası təsis olundu və müxalif siyasi təşkilat kimi fəaliyyətə başladı.

AXC-Müsavat cütlüyü hakimiyyətə xəyanət nəticəsində Şuşanın işğalından sonra gəldilər. Bundan bir neçə gün sonra Laçın işğal edildi, ardınca Kəlbəcər. Vəziyyət son dərəcə gərginləşdi. Respublikada xaos və özbaşınalıq baş alıb gedirdi. Surət Hüseynov hakimiyyətə qarşı qiyam qaldırdı. Hakimiyyətin yüksək vəzifə tutanları və Prezident Əbülfəz Elçibəy kömək üçün Heydər Əliyevə müraciət etdilər. Heydər Əliyev 1993-cü il iyunun 9-da Prezidentin göndərdiyi təyyarə ilə Bakıya gəldi. Mən həmin gün təyyarənin trapının yanında idim. Ulu Öndər təyyarədən düşəndə biz əmin olduq ki, Azərbaycanın xilaskarı gəlir. Həqiqətən də belə oldu.

Ulu Öndər orada müsahibə verdi, sonra ziyalılarla görüşdü, Ali Sovetdə çıxış etdi və bildirdi ki, vəziyyəti yerində aydınlaşdırmaq üçün Gəncəyə getməlidir. Bu addımın özü çox riskli idi. O vaxt Gəncədə başıpozuq dəstələr vardı. Onun həyatına hər an təhlükə ola bilərdi. Amma o situasiyada Heydər Əliyev böyük siyasətçilərə xas olan yeganə düzgün addım atdı.

İyunun 15-də Heydər Əliyev Ali Sovetin Sədri seçildi. Həmin günü xalqımız Milli Qurtuluş Günü kimi bayram edir. Düşünürəm ki, Milli Qurtuluş Günü dövlət bayramları içərisində ən önəmlisidi. Çünki o gün olmasaydı, bugünkü uğurlara imza atılmayacaqdı.

Dahi rəhbər Heydər Əliyev 1993-cü ilin oktyabrında Prezident seçildi. Bundan sonra ölkədə vəziyyət sabitləşdi. Mərkəzi hakimiyyətə tabe olan ordu hissələri yaradılmağa başlandı. Noyabrın 2-də Ulu Öndər xalqa müraciət edərək bildirdi ki, Vətəni xilas etmək lazımdı. 1993-cü ilin axırı - 1994-cü ilin əvvəllərində ilk yaranan ordu hissələri Horadiz əməliyyatını keçirdilər. Qısa müddətdə Füzulinin 22 kəndi, o cümlədən Horadiz qəsəbəsi və Cəbrayılın Cocuq Mərcanlı kəndi işğaldan azad olundu. Eyni zamanda Beyləqanın işğal olunmaq təhlükəsi aradan qalxdı.

AXC hakimiyyəti dövründə ABŞ Konqresi 907-ci düzəlişi qəbul etdi ki, Azərbaycana dövlət səviyyəsində kömək edilməsin. Bu o demək idi ki, dünyanın super dövləti olan ABŞ Ermənistanın tərəfindədir. Bu vəziyyəti dəyişmək lazım idi. Heydər Əliyev 1994-ci il sentyabrın 20-də dünyanın böyük dövlətlərinin şirkətləri ilə "Əsrin kontraktı"nı imzaladı. İqtisadiyyatı inkişaf etdirmək üçün əsaslar yaratdı. Yaranan imkanlar hesabına ordu quruculuğuna başlanıldı. Əlində xəritə böyük dövlətlərlə, beynəlxalq təşkilatlarla danışıqlar apardı.

Heydər Əliyev dövlət quruculuğunu həyata keçirdi. Müstəqil Azərbaycanın qanunvericilik orqanı formalaşdırıldı, yeni Konstitusiyası qəbul olundu. Dövlətçilik ənənələri yaradıldı, beynəlxalq təşkilatlara üzv qəbul olunduq.

Ulu Öndər 2003-cü ilin prezident seçkilərində cənab İlham Əliyevi dəstəkləmək üçün xalqa müraciət etdi. Dedi ki, onun həll edə bilmədiyi taleyüklü məsələləri İlham Əliyev həll edəcəkdir və ona özü qədər inanır.

Cənab İlham Əliyev andiçmə mərasimində bəyan etdi ki, Heydər Əliyev siyasətini davam etdirəcək. Prezident İlham Əliyev ölkəni daha da inkişaf etdirdi, güclü ordu yaratdı, çox fəal xarici siyasət apardı. Qardaş Türkiyə ilə çox yaxın əlaqələr qurdu. Ötən ilin Vətən müharibəsində qazanılan tarixi qələbə məhz bu siyasətin məntiqi nəticəsidir.

Möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyev bütün imkanlardan istifadə edərək 44 gün ərzində torpaqlarımızı işğaldan azad etdi. İlham Əliyev eyni zamanda siyasi arenada bütün xarici təzyiqləri dəf etdi.

Bu yaxınlarda Gürcüstanın eks-prezidenti Mixail Saakaşvili Azərbaycan Prezidenti İlham Əliyevlə təyyarədə baş tutan söhbətini xatırladıb. "Mən İlhamla (Əliyev-red.) onun təyyarəsində Strasburqdan uçdum (Avropa Şurasında birgə çıxış etmişdik). Təyyarə Qara dəniz sahili üzərində uçurdu. Mən ondan Abxaziya üzərində təyyarənin bir qədər aşağı endirilməsini xahiş etdim. İstəyirdim ki, yuxarıdan da olsa baxım, çünki Abxaziya üçün darıxmışdım, ailəm oradandır". "Bilirsən, Mişa, həm bizim, həm də Sizin üçün bir neçə ilin məsələsidir, o torpaqları qaytaracayıq. Biz sadəcə gecə-gündüz bu haqda düşünməliyik. Bunu heç vaxt unutmamalı və hazırlaşmalı, hər gün hazırlaşmalıyıq", - Saakaşvili əlavə edib.

Torpaqlarımız işğaldan azad olandan sonra cənab Prezident təhlükələrə baxmayaraq, həmin ərazilərə, o cümlədən Şuşaya 4 dəfə səfər edib və oradan mühüm mesajlar verib. Cənab İlham Əliyevin bütün fəaliyyəti göstərir ki, o, vətənini, torpağını, xalqını çox sevir. Əsl Prezident, Ali Baş Komandan belə olmalıdır və belə lideri dəstəkləmək hər birimizin borcudur.

Cənab Prezidentin tapşırığı və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada mayın 12-13-də möhtəşəm "Xarıbülbül" musiqi festivalı keçirildi. Ölkəmizin incəsənət xadimlərinin, müxtəlif xalqlarının nümayəndələrinin, xarici qonaqların, Şuşanın azad olunmasında əməyi olan hərbçilərin iştirakı ilə keçirilən festival dostlarımızı sevindirdi, düşmənlərimizin gözünə bıçaq kimi batdı.

İyun ayının 15-də - Milli Qurtuluş Günündə Şuşada yenidən möhtəşəm bir tarix yaşandı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya səfər etməsi və orada Prezident İlham Əliyevlə birlikdə Azərbaycan və Türkiyə arasında müttəfiqlik bəyannaməsinin imzalanması Vətən müharibəsindəki Zəfərin növbəti mühüm hadisəsi oldu. Dövlət başçılarının Şuşadan verdikləri bəyanatlar bir daha göstərdi ki, Azərbaycan-Türkiyə münasibətləri Heydər Əliyevin müdrikcəsinə dediyi "Bir millət, iki dövlət" prinsipi ilə daha da dərinləşir.

Heydər Əliyev müasir, müstəqil Azərbaycanın xilaskarı və qurucusu olduğuna görə əbədi olaraq dövlətçilik tariximizdə yaşayacaq. Eyni zamanda Azərbaycanı yüksəklərə ucaldan, qalib ölkəyə çevirən Prezident İlham Əliyev kimi layiqli davamçısını yetirdiyinə görə də Ulu Öndər xalqımız tərəfindən hər zaman böyük məhəbbətlə anılacaq.

***Novruz QULİYEV,***
***AMEA-nın müxbir üzvü, professor***

# Erməniliyin kasıb tarixi və yaxud tarixi irsimizə qarşı erməni iddiaları

Tarix oğurlamaq, başqasının abidələrini mənimsəmək və bunu özününküləşdirmək erməni tarixçilərinin düşüncəsinə elə yeriyib ki, onu dəyişmək əsla mümkün deyil.

Məğlubiyyət damğası ilə möhürlənmiş erməniçilik ideologiyasının qürubunda artıq heç bir "günəşin doğması" real görünmür. Hazırda dünya səhnəsindəki bəlkə də ən ümidsiz xalq olan erməni xalqının milli faciəsi məhz digər xalqların, xüsusilə qonşu azərbaycanlıların tarixi dəyərlərinə həqarətlə yanaşmaqla başlamışdır. Həqiqət olanı danmaq, yalan üzərində tarix qurmaq, hətta "erməni tarix fəlsəfəsi" kimi cəfəng metaforalar işlətmək son 200 ilin erməni tarixçilərinin xəstəliyidir.

Bu yazımızda dırnaq işarələrinin çox işlənməsi hörmətli oxucunu yormasın. Çünki tarixinin, ideologiyasının tamamilə yalanlar üzərində qurulması ermənilərlə bağlı hər bir ifadəni, hər bir termini məhz bu formada verməyə bizi məcbur edir.

Ermənilərin "çoxəsrlik" tarixinə yazılacaq tətil günləri çoxdur. Təqvimlərində daha çox dini bayramlara yer verən ermənilərin bundan sonra ağır kədərlə və dərin hüznlə qeyd edəcəkləri bir gün də olacaq: torpaqlarımızın işğalına son qoyan müqəddəs qələbə günümüz.

Erməni tarixçilərinin düşünülmüş, həqiqəti əks etdirən, real tarixə köklənmiş təsəvvürləri olmayıb. Hər şeyi erməni kilsəsi və kilsəyə xidmət edən ideologiya müəyyən edir. Kilsə üçün isə tarixi obyektivlik qarşısında edilən böyük günah "ən müqəddəs xidmət"dir. Kilsə tarixçilərin və tarixlə məşğul olanların hər zaman "azad iradə" deyilən anlayışını daim nəzarətdə saxlayıb, "müqəddəs disiplinlər" sistemini ortaya qoyur. Əslində isə bu müqəddəs qaydalar mistik, yalan üzərində qurulmuş, mifik keçmişə, inanclara, "Böyük Ermənistan" adlanan sərsəmləmələrə mütləq dərəcədə məhkumluqdur. Maks Veberin təbirincə desək, bu, ermənilərin "tarixi ənənə" anlayışıdır. Zehni xəstəliyə tutulan ermənilər hər zaman hər bir şeyi saxta tarix içində qavramışlar.

Erməni saxtakarlığı, ermənilərin tarixi irsimizi oğurlayıb öz adlarına çıxarmaları bugünün işi deyil. Qafqaza köçürülən vaxtlardan bu günə kimi onlar qonşu xalqlar, ələlxüsus da Azərbaycan xalqının maddi mədəni irsi hesabına özlərinə saxta tarix yaratmış və bu yolda dayanmadan çalışmaqdadırlar.

Qazax, Ağstafa, Göygöl, Gədəbəy, Kəlbəcər, Daşkəsən və digər rayonlarımızda onlarca alban kilsələri var ki, hamısı ermənilərin yaratdıqları saxta internet saytlarında adları dəyişdirilərək erməni kilsəsi kimi təqdim olunur. Hacıkənd yaxınlığında məşhur Yeghnasar alban kilsəsi, Ordubadda Nəsirvaz alban kilsəsi (ermənilər buraya Maştos kilsəsi adını veriblər), Xocalıda Qandzasar kilsəsi və Çanaxçı kəndindəki alban məbədi, Xocavənddə Tuğ kəndindəki alban kilsəsi, Kəlbəcərin Qoçaqot, Kolataq, Qozlu kəndlərində və adlarını saymaqla bitməyən onlarca belə tarixi alban kilsələri erməniləşdirilib, kilsə xaçları dəyişdirilib və saxtalaşdırılıb.

Azıx mağarasında qanunsuz olaraq xarici ölkə mütəxəssisləri ilə birlikdə illərlə arxeoloji qazıntılar aparılmış, Ağdamın məşhur Şahbulaq saray kompleksində "Tiqranakert" adı altında muzey yaratmışlar. Ağdam ərazisində apardıqları arxeoloji qazıntılar zamanı ərazidə 15-dən çox Xocalı-Gədəbəy mədəniyyətinə aid məşhur kurqanları dağıdaraq əldə etdikləri maddi sübutları Ermənistana daşıyıb aparmışlar. Zəngilanın Quyudərə və Xocalının Çanaqçı kəndindəki Tunc dövrü nekropollarında da arxeoloji qazıntıların aparılması, artefaktların əsl talançılıq yolu ilə Ermənistanın muzeylərinə daşınması faktları da məlumdur. Erməniləşdirilə bilməyən xeyli abidələrimiz isə sadəcə məhv edilib. Laçın rayonunun Hoçaz kəndindəki mağara məbəd, Kosalar kəndindəki Ağoğlan qəsri, Zabux kəndindəki Xallanlı qəbiristanlığı, Kəlbəcərin Qanlıkənd kəndində Lök qalası, Qubadlının Qayalı kəndində qəbiristanlıq, Zəngilanın Məmmədbəyli kəndində səkkizguşəli türbə və s. onlarca belə abidələr dağılmış vəziyyətdədir. Ulu əcdadlarımızın qədim tarixinin və mənəvi mədəniyyətinin simvolları sayılan təkzibolunmaz daş at və qoç fiqurlu qəbir daşlarının isə tamamilə izləri itirilmişdir. Laçın rayonunun Malıbəyli, Güləbird, Küsülü kəndlərində, Kəlbəcərin Zar və Zəylik kəndlərində. Cəbrayılın Şıxlar, Qubadlının Mahmudlu kəndlərindəki onlarca belə daş qoç və daş at fiqurlu başdaşlı qəbirlərdən əsər-əlamət belə yoxdur. Çünki bu tip abidələrin erməni xalqına heç bir aidiyyətinin olmadığını dünya alimləri yaxşı bilir. Buna görə də onları elə yerindəcə dağıdıb məhv etmək məqsədli və düşünülmüş addımdır.

Ermənilər Qarabağ xalçaları qrupuna daxil olan Malıbəyli "Gövhər" xalçalarını dünyada erməni xalçası kimi təqdim edirlər. Üzərindəki milli ornament və bəzəklərin türkçülüklə bağlı olmasını görməmək üçün ən azı kor olmaq lazımdır. Laçın rayonunun Hoçaz kəndindəki mağara məbədin divarlarına dini məzmunlu şəkillər - freskalar və ikonalar çəkiblər. Zəngilan rayonunun Rəzdərə kəndindəki IX əsrə aid məscid və VII əsrə aid türbə tamamilə dağıdılmış və yerlə-yeksan edilmişdir. Bu dini abidələr Azərbaycanın Qarabağ bölgəsində islam memarlığının ilk abidələrindən hesab edilirdi.

Əlbəttə, bu vəziyyətdə Kəlbəcərin məşhur Dəlidağında, hələ ötən əsrin 60-70-ci illərində kəşf olunan qədim qayaüstü təsvirlərin varlığının nə dərəcədə qorunması da şübhəlidir. Ehtimal edilir ki, Kəlbəcər yaylaqlarındakı petroqliflərin ümumi sayı 5000-dən artıqdır. "Erməni alimləri" digər tarixi abidələrimizi öz adlarına çıxarmaq cəhdləri kimi Kiçik Qafqaz petroqliflərinin də əsl mahiyyətini gizlədir, Azərbaycan folkloru ilə səsləşməsini inkar edirlər. Onlar Zəngəzur, Göyçə ərazilərindəki, eləcə də Dəlidağın ətəklərindəki qayaüstü təsvirlərin Azərbaycanın qədim tarixinin, mədəniyyətinin və incəsənətinin problem məsələlərinin öyrənilməsi üçün xüsusi əhəmiyyət kəsb etdiyini anlayır və öz saxtakarlıqlarını hər vəchlə yeritməyə çalışırlar. Kiçik Qafqaz petroqliflərininin bir hissəsini də indiki Ermənistan adlandırılan qədim Azərbaycan torpaqlarında - Qərbi Azərbaycandakı qayaüstü təsvirlər təşkil edir. Zəngəzurda, Soyuqbulaqda, Göyçə gölü hövzəsində, Göyəm dağlarında Tunc dövrü maldarları tərəfindən minlərlə təsvirlər yaradılmışdır. Lakin təəssüf ki, bu təsvirlər çox az öyrənilmişdir. Ermənilər öz xislətlərinə sadiq qalaraq digər abidələrimiz kimi, bu abidələri də "erməniləşdirməyə" çalışmışlar. Q.O.Qaraxanyan, P.Q.Safyan Zəngəzur petroqliflərinin, A.A.Martirosyan və A.R.İsraelyan Göyəm dağı petroqliflərinin əsl mahiyyətini gizlətməyə, bu abidələrimizin tarixini erməni maraqlarına qurban verməyə cəhd etmişlər. Onlar Göyəm dağının adını "Geğam" adı ilə, Dəvəboynu abidələrini isə "Uxtasar" adı ilə dünya elminə ixrac etməyə çalışmışlar. Q.O.Karaxanyan və P.Q.Safyan tərəfindən 1970-ci ildə Zəngəzur petroqliflərindən bəhs edən "Sünik ərasizinin qayaüstü təsvirləri" adlı kitab, 1971-ci ildə isə İrəvanda A.A.Martirosyan və A.R.İsraelyanın müəllifi olduqları "Göyəm dağının qayaüstü təsvirləri" adlı kitab nəşr olunmuşdur. Qeyd olunan kitablarda xeyli sayda təsvirlər öz əksini tapmış, erməni xalqının maddi mədəniyyət nümunələri kimi qeyd olunmuşdur.

Gəmiqaya, Kəlbəcər, həmçinin indi Ermənistan adlandırılan Qərbi Azərbaycan abidələrinin yaradıcıları eyni etnik xüsusiyyətləri daşıyan Azərbaycanın qədim maldar tayfaları olmuşlar. Qədim Azərbaycan sakinləri Göyəm dağı, Zəngəzur, Soyuqbulaqda, Göyçə gölü hövzəsində və s. minlərlə belə təsvirlər yaratmışlar. Rəsmlərin əksəriyyəti bu diyarın qədim sakinlərinin təsərrüfatının, iqtisadiyyatının əsasını təşkil edən, ovlanan heyvan təsvirləridir. Göyəm dağı və Zəngəzur petroqlifləri Tunc dövründə həmin ərazidə yaşamış əkinçi maldar tayfaların iqtisadi və ictimai həyatının qaranlıq qalan bəzi məsələlərinin öyrənilməsi baxımından qiymətli mənbələrdir. Çox təəssüf ki, indiki Ermənistan sərhədləri daxilində olan bu qədim abidələrimizi öyrənmək baxımından müəyyən çətinliklər var.

Erməni tarixçiləri o qədər saxta məlumatlara müraciət edirlər ki, bunlar bəzən hiddət yox, gülüş doğurur. Erməni tarixçiləri öz paranoik ideyalarını gerçəkləşdirmək, ermənilərin Cənubi Qafqaz regionunda məskunlaşmasını az qala Nuh peyğəmbərin dövrü ilə bağlamaq üçün ən müxtəlif üsullara əl atırlar.

Ermənistan Milli Elmlər Akademiyasının Tarix İnstitutu Göyçə, Göyəm (indiki "Geğam"), Dəvəboynu (indiki "Uxtasar") petroqliflərini vaxt itirmədən erməniləşdirmək, onları "erməni xalqının qədim maddi-mənəvi irs nümunəsi kimi" qələmə verib UNESCO-nun siyahısına daxil etmək məqsədilə "ARARAT" adlı ictimai təşkilat (Qayaüstü Təsvirlərin Öyrənilməsi üzrə Erməni Birliyi ) yaratmışdılar. Bu birliyin sədri olan institutun əməkdaşı K.Toxatyan bildirirdi ki, "Ermənistan yaylasının qayaüstü incəsənətinin ənənələri, semantikası və təkrarolunmazlığı bu ərazinin qədim sivilizasiya mərkəzi olmasını və mədəniyyətlərin həmin mərkəzdən ətrafa yayılmasını təsdiqləyir. Çoxsaylı arxeoloji, etnoqrafik, astronomik və kulturoloji faktlar qədim dünyanın sivilizasiyalarının təşəkkülündə erməni mədəniyyətinin aparıcı rolunu göstərir". Bu qurumla əməkdaşlıq edən alimlərin biri V.Vaqanyan isə özünün "Qədim ermənilərin digər xalqların - iranlıların, hindlilərin, misirlilərin və Köhnə Avropanın sakinləri ilə dünyagörüşü mübadiləsi və mədəni əlaqələri" adlı və təkcə adı az qala yarım səhifəyə sığmayan məqaləsində Göyəm qayaüstü rəsmlərinin birində mifik Haykın Babil hökmdarı Bel üzərində qələbəsinin təsvir olunduğunu iddia edir. Halbuki qaya üzərində iki insanın rəqsi həkk olunmuş bu təsvir adı bəlli, soyu naməlum Haykın öz tayfasını Babilistan ərazisindən Ağrı dağı ətəklərinə gətirməsindən ən azı 2500 il əvvəl çəkilmişdir. Əlbəttə, belə uydurma, cəfəng, əslində elmdən uzaq erməni tarixini yazan saxtakarlar üçün elmi fantaziyaların heç bir həddi-hüdudu yoxdur.

Zəngəzurun qayaüstü rəsmləri qədim Azərbaycan tarixinin, mədəniyyətinin öyrənilməsi üçün unikal mənbələrdir. Zəngəzurda - qədim Azərbaycan torpaqları ərazisində yerləşən bu rəsmlər hələ XX əsrin əvvəllərində müəyyən araşdırmaçıların diqqətini cəlb etmişdir, lakin onları bu dövrdə öyrənmək mümkün olmamışdır. Zəngəzur qayaüstü rəsmlərinin ayrı-ayrı bənzərləri Qərbi Azərbaycanın digər ərazilərində də tapılmışdır, bunların çoxunun yaşı Tunc dövrünə gedib çıxır. Zəngəzurda 1966-1968-ci illərdə qayaüstü rəsmlərin zəngin bir ocağı, yəni böyük bir hissəsi tarixi Qarakilsə rayonunda Şəki kəndi yaxınlığında tapılmışdır. Şəki kəndi Zəngəzurun ən qədim və ən böyük azərbaycanlılar yaşayan kəndlərindən biridir.

Qərbi Azərbaycanın Loru mahalının Soyuqbulaq (1991-ci ildən Paqaxbyur) kəndi yaxınlığında, Armudlu və Qaçaqqırılan dərələrində e.ə. III-II minilliklərə aid qayaüstü təsvirlər vardır. Gəmiqayada, Qobustanda, Kəlbəcərdə aşkar edilmiş qayaüstü təsvirlərlə heyrətamiz dərəcədə yaxınlıq, hətta bəzi süjetlərdə eyniyyət təşkil edən Soyuqbulaq qayaüstü təsvirləri Qərbi Azərbaycan ərazisinin ən qədim zamanlardan məskunlaşdığını və həmin vaxtlardan üzü bəri azərbaycanlıların ana yurdu olduğunu təsdiq edir. Soyuqbulaq kəndində və ətraf kəndlərdə 1988-ci ilə qədər ancaq azərbaycanlılar yaşamışlar. Bu kəndlərə ilk ermənilər Qərbi Azərbaycan əhalisinin 1988-ci il deportasiyasından sonra köçürülmüşlər.

Kiçik Qafqazın gözəl guşəsi olan Qarabağ da spesifik xüsusiyyətlərilə formalaşıb inkişaf edən təsərrüfatı, maddi və mənəvi mədəniyyəti ilə birlikdə bir kökdən qidalanır.

"Qədim erməni mənbələri" adlandırılan əsərlərin hamısı isə erməni dilinə tərcümə edilmiş və ciddi şəkildə dəyişdirilmiş əlyazma kitablarıdır. Anonim erməni xronikalarını burada mütləq qeyd etmək lazımdır. IV-V əsrlərdə yazılmış bir neçə anonim erməni xronikasının adını çəkən erməni tədqiqatçıları tarixlərini qədimləşdirmək istəyirdilər. Yalnız XIX əsrin ikinci yarısında türk dilindən erməni dilinə keçmiş sözlərə rast gəlinməsi bu anonim xronikaların həqiqətən saxta olduğunu və həmin dövrdə yazıldığını, yaxud üzünün köçürüldüyünü təsdiqləyir.

Heç şübhə yoxdur ki, Musa Kalankatlının "Ağvan tarixi" əsəri erməni tərcüməçilərinin qələmindən çıxandan sonra öz orijinallığını xeyli dəyişib. İlk ustadı K.Patkanyan olan bu işin saxtakarlıqları haqqında akademik B.A.Dorn hələ 1875-ci ildə məlumat verib. Sonra S.Sumbatyan da Musa Kalankatlının "Ağvan tarixi" əsərinin məzmununu bir xeyli dəyişdirərək, özündən əlavələr də edib. T.İ.Ter-Qriqoryan özü yazır ki, "Ağvan tarixi" əsəri öz əvvəlki şəklində gəlib bizə çatmayıb. Onun üzünü köçürənlər erməni katolikoslarının göstərişi ilə mətni təhrif edib, sonradan öz xeyirlərinə nələrisə artırıblar. Aqatangelin məlum "Tarix" kitabının yunan dilindəki orijinalı iki, erməni tarixçilərinin qələmindən çıxmış variantı isə üç fəsildən ibarətdir. Yunan dilindəki mətndə bir dəfə də olsun "erməni" və "Ermənistan" sözləri işlənmədiyi halda, onun içini "erməni" və "Ermənistan" sözləri ilə doldurmaqla tərcümədən sonra əsəri ermənilər əməlli-başlı erməni tarixi etmiş və üstəlik həyasızcasına kitabın adını da dəyişib "Erməni tarixi" qoyublar. Arakel Təbrizlinin "Tarix" kitabının da əsli iki, müəllif öləndən sonra kilsədə işlənmiş saxta variantı üç fəsildir. Təbii ki, kilsə bu kitaba da öz "əlavələrini" etmiş və erməni xalqının tarixini daha qədimlərə çəkmişdir.

Ermənilərin uydurma faktlar əsasında yazdığı və bunu özlərinin də inanaraq sevə-sevə təbliğ etdikləri "müqəddəs tarix"lərində təyinedici olan iki anlayış yer alır: "qədim dövlətçilik" və "mədəni xalq". Buna görə də erməni tarixçiləri özlərinin uydurduqları "böyük tarixi" yaradarkən iki şeyin varlığına ehtiyac hiss etmişlər: kasıb tarixlərini zənginləşdirən maddi mədəniyyət abidələri və dövlətçilik irsi. Hər ikisinin olmaması isə onları yaşadıqları bölgədə abidə oğurluğuna və şişirdilmiş dövlətçilik ənənəsinin mövcudluğuna mifik inam hissinə məcbur etmişdir. Birincisi olmayan tarixin yaradılması və cəmiyyət həyatında "erməni milləti"nin inşası üçün gərəkli idisə, ikincisi idarə praktikasında əqliləşdirməni təmin etməyə əsaslanırdı. Bir tərəfdən kilsənin təmsil etdiyi rejimin möhkəmliyi nəzərdə tutulurdusa, digər tərəfdən dövlət təcrübəsini qazanmaq və nizamı inşa etmək əsas götürülürdü. Erməni ideologiyasının təməlini təşkil edən əzilən xalq, yazıq xalq obrazı saxta tarix sənədləri ilə dünyaya sırınmışdır. Soyqırımı əfsanələri uyduran, digərlərinin torpaqları üzərində varisliyini bərpa etməyə çalışmaq kimi cəfəng ideyalar erməni ideologiyasının xəstə, çürümüş, eyni zamanda çox təhlükəli niyyətlərini təcəssüm etdirir. Qonşu xalqlara qarşı düşmənçiliklə, onların tarixi-arxeoloji irsini oğurlamaqla, "böyük Ermənistan" kimi çılğın bir imanla döllənmiş zavallı bir xalqın bətnindən son 200 ildə bölgəmizin rifahına, dincliyinə qarşı susamış bir erməni xainliyinin coğrafiyası ortaya çıxmışdır. Müqəddəs Vətən müharibəsində parlaq qələbəmizin əslində daha dərin qatlarında məhz xəstə ruhlu, yoxsul tarixli erməni ideologiyasının puç olmasını, bir xalqın vicdani tərbiyə qaydalarının onlara başa salınmasını görmək olar.

Erməni dövləti anlayışı əslində rəmzi məna kəsb edir. Tarixin bütün dönəmlərində özlərinə tarix uyduran, dövlət qurmaq arzusu belə formalaşmayan bir xalq hər zaman nəyisə oğrulamışdır. Bəxtimizə yazılan ən kədərli səhifə isə bu xalqla qonşu olmaq və bizdən daha çox oğurlamaları olmuşdur. Nəinki tarixi abidələrimiz, hətta milli geyimlərimiz, adətlərimiz, mətbəximiz də bu qonşu oğurluğundan həmişə ziyan çəkmişdir.

***Şamil NƏCƏFOV,***
***arxeoloq, tarix üzrə fəlsəfə doktoru***

# İlham Əliyev strategiyası Azərbaycanı kosmosa yüksəltdi

*Əvvəli 1-ci səh.*

2018-ci il sentyabrın 26-da "Azerspace-2" peyki orbitə buraxılanda Prezident peyk layihələrinin həyata keçirilməsinin əsas məqsədlərini vurğulayaraq xalqımızı yenə də təbrik etdi: "Son beş il ərzində Azərbaycan orbitə 3 peyk çıxara bilmişdir. Azərbaycan bu gün dünyanın kosmik klubunun üzvüdür və dünyanın kosmik sənayesində öz mövqelərini möhkəmləndirir. Peyklərin orbitə çıxarılması dövlətimizin gücünü göstərir, bizim siyasətimizi göstərir... Bu peyklərin çox böyük əhəmiyyəti var. İlk növbədə, Azərbaycan informasiya təhlükəsizliyi baxımından daha da önəmli addım atır. Bu gün peyklərimiz vasitəsilə Azərbaycan telekanalları dünyaya öz verilişlərini təqdim edə bilirlər. Bu gün Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan götürübdür. Eyni zamanda, kadr hazırlığı üçün Azərbaycanın kosmik sənayesinin inkişafı önəmli rol oynayır. Peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislərdir və onların böyük əksəriyyəti gənclərdir. Kosmik sənayenin inkişafı bu sahədə beynəlxalq əməkdaşlığımızı da dərinləşdirir. Biz dünyanın bu sahədə böyük təcrübəyə malik olan aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edirik. Peyklərin, eyni zamanda, kommersiya tərəfi var. Bu gün Azərbaycan öz məhsulunu ixrac edir və peyklərin fəaliyyəti nəticəsində ölkəmizə valyuta gəlir. Azərbaycanın kosmik sənayedə əldə etdiyi uğurlar, eyni zamanda, qeyri-neft sektorumuzu inkişaf etdirir, qeyri-neft sənayemizi irəliyə aparır. Eyni zamanda, "Azersky" müşahidə peyki vasitəsilə biz nəinki ölkəmizin, dünyanın istənilən nöqtəsində baş verən bütün hadisələri daim müntəzəm olaraq izləyə bilirik, nəzarət edə bilirik".

Beləliklə, orbitdəki peyklərimiz ölkənin informasiya və milli təhlükəsizliyinin təmin olunmasına xidmət etmək kimi əsas vəzifəni yerinə yetirir. Azərbaycan televiziya kanallarının fasiləsiz peyk yayımı Azərbaycan həqiqətlərinin ölkəyə və dünya ictimaiyyətinə maneəsiz çatdırılmasını təmin edir.

Dövlət başçısı qeyd etmişdir ki, Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azersky" peykinin xüsusi rolu var. Bu peykin fəaliyyəti nəticəsində sözügedən sahədə də xaricdən asılılığı tamamilə aradan qaldırdıq və bir çox ölkələr üçün peyk xidməti göstəririk.

Yeri gəlmişkən vurğulayaq ki, ölkəmizin Vətən müharibəsində qazandığı Qələbədə peyk sisteminin əhəmiyyətli rolu olmuşdur. Belə ki, peyklərimizin, xüsusilə "Azersky" məsafədən müşahidə peykimizin imkanları bizə böyük üstünlüklər qazandırmışdır. Müharibənin gedişində "Azersky"dan əldə olunan təsvirlər operativ surətdə ordumuz üçün lazımi informasiyanın ötürülməsində xüsusi rol oynamışdır. Bu informasiyaların əsasında erməni faşistlərinin hərbi obyektləri və anbarları, zirehli texnikaları darmadağın edilmişdir.

Peyklərin yerinə yetirdiyi mühüm vəzifələrdən biri də ölkənin bütün regionlarının sosial-iqtisadi inkişafına xidmət etmək, milli iqtisadiyyata birbaşa və dolayısı ilə faydalar verməkdir. Kosmik proqramın həyata keçirildiyi ilk vaxtlardan dövlət başçısının qarşıya qoyduğu başlıca məqsəd peyklərin birinci növbədə Azərbaycanın daxili tələbatının ödənilməsinə, yəni ölkədəki sürətli sosial-iqtisadi inkişafın dəstəklənməsinə yönəldilməsi olub.

Odur ki, milli peyklər vasitəsilə ölkənin sosial-iqtisadi inkişafına dəstək davam etdirilir. Xüsusilə "Azersky" peykinin ən müasir analiz və monitorinq alətlərindən istifadə edilməklə elektron kənd təsərrüfatının qurulması, məhsuldarlığın qiymətləndirilməsi və öncədən proqnozlaşdırılması, subsidiyalara nəzarət məqsədilə bitki örtüyünün dəqiq xəritəsinin hazırlanması, ölkə üzrə istixanaların dəqiq inventarlaşdırılması, pivot suvarma sistemlərinin tətbiq olunduğu əkinlərinin təyini və digər əhəmiyyətli layihələr həyata keçirilir. Bütün bu imkanlar iqtisadiyyatın müxtəlif sahələrində yeni dəyərlərin yaradılmasına xidmət edir.

Eləcə də Yer səthinin məsafədən müşahidəsi xidmətlərinin inkişafı üzrə işlər aparılır. Belə ki, 2018-ci il noyabrın 15-də Prezidentin sərəncamı ilə "Azərbaycan Respublikasında peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair 2019-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq olunub. Dörd il müddətində icra olunacaq proqram 30-dək dövlət qurumunu əhatə etməklə iqtisadiyyatın əksər sahələrində yeni və alternativ məlumat mənbəyi kimi peyk müşahidəsini həyata keçirəcək. Məqsəd Yerin məsafədən müşahidəsi peyklərinin resurslarından müxtəlif sahələrdə - kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, fövqəladə halların idarəedilməsi, hasilat sənayesi, meliorasiya və su təsərrüfatı, nəqliyyat və yol infrastrukturu, turizmin inkişafı, xəritəçəkmə və şəhərsalma, dövlət əmlakının idarəolunması, kadastr işləri və naviqasiyada istifadəni genişləndirməkdir.

Daha bir vacib məsələ kosmik layihələrə sərf edilən vəsaitlərin kommersiya fəaliyyəti ilə geri qaytarılmasını təmin etməkdir ki, bu sahədə də gözlənilən nəticələrə nail olunur. Başqa sözlə, peyklərimiz milli qürur mənbəyimiz olmaqla yanaşı, konkret kommersiya məqsədlərinə xidmət edir.

Peyk layihələrinin həyata keçirilməsi üçün layihə xərcləri, uzunmüddətli öhdəliklər, genişmiqyaslı beynəlxalq əməkdaşlıq, habelə lazımi kəmiyyətdə və keyfiyyətdə mütəxəssislərin mövcudluğu da zəruridir. Bütün bunlar dövlət tərəfindən irihəcmli investisiyalar tələb edir. Bu baxımdan layihələrin həyata keçirilməsi üçün qoyulmuş investisiyaların geri qaytarılması məsələsi daim diqqətdə saxlanılır.

Peyk xidmətləri bazarında xüsusilə yüksək rəqabət şəraiti mövcuddur. Bu sahənin mütəxəssislərinin dili ilə desək, bazarın əksər hissəsi azsaylı böyük oyunçular tərəfindən bölüşdürülüb, orta ölçülü oyunçular arasında kəskin rəqabət mövcuddur, kiçik oyunçular isə öz spesifik seqmentini tapıb orada möhkəmlənməyə çalışırlar. Belə bir şəraitdə rəqabətə davam gətirə bilməyin heç də asan olmadığı görünür. Bu məqsədlə illər əvvəl peyk xidmətləri bazarına daxil olarkən bazarın dərindən öyrənilməsi məqsədilə geniş biznes-marketinq araşdırmaları aparılıb və araşdırmaların nəticələri əsasında peyklərin orbital mövqeyinin seçilməsi, texniki və biznes dizaynı həyata keçirilib. Sonrakı mərhələdə görülmüş tədbirlər nəticəsində peyk layihələrinin gəlirliliyi təmin edilib.

Peyklərimiz həmçinin elmi tədqiqatların aparılmasına dəstək verir və kadr potensialını inkişaf etdirir. Ötən illər ərzində peyk xidmətləri sahəsində qazanılan təcrübə və bu sahədə formalaşmış insan kapitalı imkan verir ki, kosmik sənaye quruculuğu yolunda daha irəli addımlayaq. Dövlət başçısının qeyd etdiyi kimi: "Bu gün Azərbaycan orbitdəki üç peyki və kosmik sahədə insan potensialı ilə dünyanın kosmik klubunun dəyərli üzvlərindən birinə çevrilib".

Təkcə bir faktı göstərmək kifayət edər ki, hazırda peyklərimizin idarə edilməsi tamamilə azərbaycanlı mütəxəssislər tərəfindən həyata keçirilir.

Kosmik sahə beynəlxalq əməkdaşlıq üçün çox möhkəm zəmindir. Belə ki, "Azərkosmos" beynəlxalq kosmik layihələr çərçivəsində xarici dövlətlərin kosmik agentlikləri ilə kosmosdan dinc məqsədlərlə istifadə üzrə qarşılıqlı fayda gətirən əməkdaşlıqlar qurur. Bu da öz növbəsində Azərbaycanın beynəlxalq ictimaiyyət qarşısında intellektual nüfuzunun daha da möhkəmlənməsinə xidmət edir.

Bu gün peyklərimiz dünyanın müxtəlif regionlarında insanların informasiyaya çıxışına imkan yaradır, regionlar arasında rəqəmsal uçurumun aradan qaldırılmasına dəstək verir. Eləcə də meşə yanğınları və neft çirklənmələri kimi təbii fəlakətlərin və fövqəladə halların nəticələrinin aradan qaldırılmasına köməyimizi göstəririk .

Prezident İlham Əliyevin düzgün və uzaqgörən strategiyası Azərbaycanı regionun ilk kosmik ölkəsinə, dünya kosmik klubun tamhüquqlu üzvünə çevirdi. Kosmosa ucalan Azərbaycanımızı bu sahədə də yeni üfüqlər gözləyir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Qafqaz Müsəlmanları İdarəsinin sədri KAICIID-in Direktorlar Şurasının növbədənkənar sessiyasında iştirak edib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə iyulun 1-də KAICIID Beynəlxalq Dialoq Mərkəzinin Direktorlar Şurasının növbədənkənar sessiyasında iştirak edib.



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, KAICIID Direktorlar Şurasının daxili prosedurlara həsr olunmuş onlayn toplantısının gündəmində duran əsas məsələ qurum adından bəyanatların verilməsi üçün meyarların müəyyən edilməsi idi.

Dünyanın ən nüfuzlu beynəlxalq hökumətlərarası təşkilatlarından olan KAICIID-in 9 nəfərlik Direktorlar Şurasında yer alan müsəlman dini lider Şeyxülislam Allahşükür Paşazadə onlayn sessiyada çıxış edib. Beynəlxalq Mərkəzin bəyanat meyarlarının diqqətlə nəzərdən keçirilməsini vacib kimi dəyərləndirən Şeyxülislam A.Paşazadə bildirib ki, Kommunikasiya departamentinin bununla bağlı təkliflərini müsbət qarşılayır. QMİ sədri xüsusi vurğulayıb ki, dünya dinlərinin təmsil olunduğu mərkəz olaraq KAICIID-in dini məkanların təhqir edilməsi hallarına olduğu kimi, bütün dinlərdə müqəddəs sayılan insan həyatına qəsd hallarına öz birmənalı münasibətini bildirməsi arzuolunandır.

KAICIID Beynəlxalq Dialoq Mərkəzinin Əsasnaməsində siyasətə qarışmamaq barədə müddəanı xatırladan Şeyxülislam A. Paşazadə qeyd edib ki, baş verən hər hansı zorakılıq hallarında qətl edilən uşaqlar, qocalar varsa, bu siyasi məsələdir və dinə aidiyyəti yoxdur demək, laqeydliklə susmaq düzgün olmaz. Azərbaycanın dini lideri mülki şəxslərə qarşı törədilən hər hansı terror və ekstremist aktlarını, nifrətə çağırışları, xüsusilə də insan tələfatı ilə nəticələnən əməllərin dini və ya qeyri-dini mahiyyəti üzrə təsnif edilməsinin əleyhinə çıxış edərək, KAICIID-in motivasiyasından asılı olmayaraq, zorakılıq faktlarına dair münasibətin bildirilməsinin məqsədəuyğun olduğuna diqqəti çəkdi. Şeyxülislam A. Paşazadə bunu onunla əsaslandırıb ki, din xadiminin, dini liderin borcu müqəddəs dəyər olan insan həyatının və mənəvi dəyərlərin qorunmasıdır. Bu baxımdan QMİ sədri KAICIID-in yalnız dinlər deyil, mədəniyyətlərarası, yəni, toplumlararası dialoq üzrə ixtisaslaşmasına uyğun olaraq təkcə dini deyil, bəşəri əhəmiyyətli humanitar məsələlərə öz münasibətini bildirməsini məqsədə müvafiq və zəruri hesab edib.

Bu əsnada çıxış edən Amerika Yəhudi Komitəsinin Dinlərarası məsələlər üzrə beynəlxalq direktoru baş ravvin David Rosen ölkəsində olan erməni din xadimlərinin ona müraciət edərək işğaldan azad olunmuş Azərbaycan torpaqlarında guya erməni dini abidələrinin dağıdılması barədə məlumatlar verməsi və buna dair bəyanat verməyə təhrik etdiklərini onlayn sessiya iştirakçılarının diqqətinə çatdırıb. David Rosen qeyd edib ki, onun bu məsələyə dair hər hansı bəyanat verməkdən imtinasının səbəbi həmin məlumatların həqiqəti əks etdirmədiyini, heç də dini təəssüb deyil, siyasi mahiyyət daşıdığını fərq etməsi olub. Belə ki, D. Rosen Direktorlar Şurasında həmkarı olan Şeyxülislam A.Paşazadənin KAICIID tribunasından etdiyi mütəmadi çıxışlardan Ermənistan tərəfindən işğal dövründə Azərbaycan ərazilərində 67 məsciddən 65-nin, 2 pravoslav kilsəsinin və sinaqoqların dağıdılıb təhqir olunması barədə məlumatlara malik olduğunu bildirib. Şeyxülislam A.Paşazadə öz növbəsində Amerika Yəhudi Komitəsinin Dinlərarası məsələlər üzrə beynəlxalq direktoru baş ravvin David Rosenin din xadiminə layiq mövqeyini təqdir edib və belə bir prinsipial yanaşmasına görə Azərbaycan xalqı adından ona təşəkkür edib.

Onlayn sessiya məhsuldar keçib.

# "Anadolu Qartalı - 2021" beynəlxalq taktiki-uçuş təlimi uğurla davam edir

Konyada keçirilən "Anadolu Qartalı - 2021" beynəlxalq taktiki-uçuş təlimlərinin növbəti günündə Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) hərbi pilotları şərti düşmənin hava hücumundan müdafiə vasitələrindən yayınmaqla, onun yerüstü hədəflərinin məhv edilməsi üzrə tapşırıqlarını yerinə yetiriblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın hərbi pilotları peşəkarlıq göstərərək qarşıya qoyulan tapşırıqları uğurla icra ediblər.



# Müzəffər Ordunun mükəmməl təminatı

## Azərbaycan əsgəri bu gün Qafqazın ən sivil, modern və hazırlıqlı hərbçisidir

*Əvvəli 1-ci səh.*

Əgər belə olmasaydı, iİlbəil orduya ayrılan vəsaitin həcmi artırılmazdı, maddi-texniki baza daha da gücləndirilməzdi, yeni-yeni silah-sursat və hərbi texnika alınmazdı. Məhz bütün bu proseslər, həmçinin ölkədə hərbi sənayenin inkişafı sayəsində Azərbaycan Ordusu regionun ən güclü ordusuna çevrildi. Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazası, intellektual potensialı inanılmaz dərəcədə inkişaf etdi. Bütün bunlar istər yerli, istərsə də beynəlxalq hərbi ekspertlərin Azərbaycan Ordusunu Cənubi Qafqazda ən mobil, ən yüksək döyüş hazırlığına malik silahlı qurum kimi dəyərləndirməsinə zəmin yaratdı.

Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirdi. Son illər ərzində yaradılan hərbi təyinatlı zavodlarda çoxsaylı məhsullar istehsal olundu, ordumuz təchiz edildi. Ən müasir texnika və silahlar alındı. Ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən birinə çevrildi.

Ali Baş Komandan tərəfindən Silahlı Qüvvələrdə aparılan islahatlar öz uğurlu nəticəsini verdi və Ordumuz qarşıya qoyulan məqsədə doğru inamla irəlilədi. Bu uğurlu addımlar isə bizi Qarabağa apardı...

Sentyabrın 27-də başlanan İkinci Qarabağ savaşında Azərbaycan Ordusunun zəfər yürüşü dünyaya səs saldı. Yeni taktika ilə Azərbaycan dünyaya göstərdi ki, necə bir qüdrətli orduya sahibdir.

Nəzərə almalıyıq ki, düşmən təqribən 30 il ərzində müdafiə səddini çox fəal şəkildə möhkəmləndirmişdi. Müdafiə xətləri, üstəgəl uzunmüddətli atəş nöqtələri, sığınacaqlar yaratmışdı. Dərin eşelonlaşdırılmış müdafiə xəttini yarmaq üçün çox böyük cəsarət, qorxmazlıq tələb olunurdu. Ancaq Azərbaycan Ordusunun hər bir hərbçisi əsl qəhrəmanlıq göstərərək düşmənin müdafiə xəttini yara bildi.

Şuşa əməliyyatı bu gün də müzakirə mövzusudur. Hətta ermənilər bele indiyədək anlaya bilmirlər ki, Azərbaycan Ordusu bu həmləni necə həyata keçirib.

Həqiqətən də bu əməliyyatlar tarixə düşüb. Həmin həmlələrdə iştirak edən xüsusi təyinatlılarımız, sərhəd xidmətinin xüsusi qüvvələri, daxili qoşunlar, təhlükəsizlik və kəşfiyyat xidmətləri, Naxçıvan ordusunun xüsusi qüvvələri bir daha Azərbaycan Ordusunun nəyə qadir olduğunu dünyaya nümayiş etdirdilər. Onların reallaşdırdıqları bütün əməliyyatların kombinasiyası uğurla nəticələnib.

Komandanlığın düzgün kombinasiyası ilə kəşfiyyat, artilleriya, zərbə pilotsuz uçuş aparatları, pilotsuz kamikadzelər, xüsusi təyinatlılar, ordu korpuslarının döyüş hazırlığı birlikdə qələbəni təmin etdi.

İyunun 26-da hərbçilərlə görüşdə İlham Əliyev bu qələbəni belə qiymətləndirdi: "Biz güclü iradə göstərdik, cəsarət göstərdik, milli ruh nümayiş etdirdik və istədiyimizə nail olduq. Bir daha demək istəyirəm ki, İkinci Qarabağ müharibəsi şanlı tarix kimi, şanlı qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazılıb. Azərbaycan bundan sonra müzəffər ölkə kimi yaşayacaq, Ermənistan bundan sonra məğlub edilmiş ölkə kimi yaşayacaq...Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Onlar bilməlidirlər ki, dəmir yumruq yerindədir".

### Yeni döyüş taktikası, peşəkarlıq və qələbə əzmi...

İşğalçı Ermənistanın silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan, 44 gün davam edən və Azərbaycanın Qələbəsi ilə nəticələnən Vətən müharibəsinin əhəmiyyəti, mahiyyəti və nəticələri uzun illər təhlil ediləcək, bu qələbənin şanına istər bədii, istərsə də elmi əsərlər yazılacaq.

İkinci Qarabağ müharibəsində Azərbaycan həm də yeni təcrübə topladı. Çünki ordumuz bunadək demək olar ki, müharibələrdə iştirak etmirdi, bu sahəyə yalnız nəzəri baxımdan yanaşırdı. Vətən müharibəsində zəfər qazanmağımızda böyük rolu olan amillərdən biri də Azərbaycan əsgər və zabitlərinin peşəkarlığı, yüksək mənəvi keyfiyyətləri, cəsurluğu, vətənpərvərliyi, inamı, şəxsi rəşadətləri, qələbə əzmi, döyüş əhvali-ruhiyyəsi idi.

Sözün həqiqi mənasında, döyüş meydanında yeni tarix yazan Azərbaycan Ordusunun hərbi qulluqçularının göstərdiyi qəhrəmanlıq, şəxsi rəşadət, igidlik, qanı və canı bahasına bu qələbənin əldə olunmasını təmin etməsi hər birimizə qürurverici anlar yaşatdı, qəlbimizi fərəhlə doldurdu.

Güclü ordunun yaradılması, Silahlı Qüvvələrimizin ən müasir döyüş vasitələri ilə təchiz edilməsi, şəxsi heyətin peşəkarlıq səviyyəsinin və hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, ordu ilə xalqın vəhdətinin təmin edilməsi möhtəşəm qələbənin kökündə dayanan həqiqətlərdir. Azərbaycan Ordusu Vətən müharibəsində qazandığı qələbəsi ilə hazırkı dünyanın ən güclü, müasir, hazırlıqlı, yüksək döyüş qabiliyyətinə malik olan orduları sırasında layiqli yer tutduğunu əyani şəkildə sübuta yetirdi.

### 76 mindən artıq hərbçi təltif edildi, maaşlar artırıldı

Bu şanlı qələbəni bizə yaşadan Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusunun hərtərəfli təminatı dövlətin ən prioritet vəzifələrindən biridir. İlham Əliyevin Orduya diqqət və qayğısı göz önündədir.

Prezidentin müharibənin başa çatmasından qısa müddət sonra - dekabrın 9-dan 30-dək imzaladığı sərəncamlarla döyüşlərdə iştirak edənlər müxtəlif orden və medallarla təltif olundu. Qazilərimizə xüsusi qayğı göstərildi və bu gün də o dəstək davam etdirilir. Bu istiqamətdə yaradılan "YAŞAT" Fondu şəhid ailələri, qazilərimiz, onların ailə üzvlərinin problemlərinin həlli istiqamətində lazımi iş aparır.

İyunun 24-25-də isə Prezident bu istiqamətdə hər kəsi sevindirəcək daha iki sərəncam imzaladı. Dövlət başçısı 24 iyun tarixli sərəncamı ilə Vətən müharibəsində qəhrəmancasına savaşan, rəşadət göstərən 76 min 349 nəfəri orden və medallarla təltif etdi. İyunun 25-də isə işğaldan azad edilmiş ərazilərimizdə hərbi xidmət keçənlərin maaşlarına 20-60 faiz həcmində əlavələri nəzərdə tutan sərəncam imzalandı.

Ümumiyyətlə, İlham Əliyevin rəhbərliyi ilə son illərdə hərbi quruculuq sahəsində aparılan islahatlar, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlər sırasında yeni hərbi hissə və hərbi şəhərciklərin yaradılması, mövcud olanların isə əsaslı şəkildə yenidən qurulması da xüsusi yer tutur. İstər paytaxtda, istərsə də bölgələrdə yerləşən hərbi hissələr müasir səviyyədə yenidən qurulub, yeni hərbi hissə və şəhərciklər salınıb. Bu isə ordu quruculuğu sahəsinə dövlət səviyyəsində göstərilən diqqətin təzahürü olmaqla yanaşı, həm də hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılmasında, onların döyüş qabiliyyətinin artırılmasında müstəsna əhəmiyyət daşıyır.

Ali Baş Komandanın iyunun 26-da Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin "N" saylı hərbi hissəsinin yeni istifadəyə verilən hərbi şəhərciyində və Hərbi Hava Qüvvələrinin hərbi qulluqçularının ailələri üçün nəzərdə tutulmuş xidməti mənzillərdə yaradılan şəraitlə tanış olması da deyilənlərin növbəti əyani təzahürü oldu.

Bundan əvvəlki dövrdə də Prezident hərbçilərin mənzil-məişət problemlərinin həlli, onların xidmət şəraitinin müasir standartlara uyğun yenidən qurulması, maaşlarının və ona əlavələrin yüksəldilməsi istiqamətində fərman və sərəncamlar imzalayıb. Yəni, bugünə qədər İlham Əliyev hərbçilərə qayğısını əsirgəməyib, onların sosial müdafiəsinin gücləndirilməsi üçün mütəmadi olaraq vacib addımlar atıb, əhəmiyyətli qərarlar verib.

Göründüyü kimi, Azərbaycan Ordusunun şəxsi heyətinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzindədir. Bu məqsədlə son illərdə paytaxtda və bölgələrdə xidməti yaşayış evləri tikilib, Prezidentin Ehtiyat Fondundan bu məqsədlə xeyli vəsait ayrılıb. Bu isə dünya praktikasında çox nadir hallarda müşahidə olunan haldır. Həyatını Vətəni qorumaq kimi şərəfli vəzifəyə həsr edən hərbçilərimizin rütbə və vəzifə maaşlarının artırılması, çoxsaylı güzəştlərin tətbiq olunması da daxildir. Bütün bunlar ordunun mənəvi-fiziki hazırlığını ən yüksək səviyyəyə qaldırmağa imkan verib.

### Struktur islahatları başlayır, ordumuzun say tərkibi artırılır

"Gülüstan" sarayında keçirilən görüşdə Ali Baş Komandan ordumuzun gücünü, qüdrətini belə dəyərləndirdi: "Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır... Bu gün biz elə bir güclü ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik. Ona görə ordumuzun müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, ordumuzun döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması - bütün bunlar məqsədyönlü şəkildə apardığımız siyasətin tərkib hissəsi idi".

Prezident bəyan etdi ki, Azərbaycan bundan sonra da güclənəcək və bu, şübhəsizdir. Azərbaycanın hərbi gücü daha da artacaq. Müharibədən sonra da müvafiq göstərişlər verilib, yeni müqavilələr imzalanıb, müasir silahların, texnikanın, texnologiyaların alınması prosesi başlanıb.

Prezident Silahlı Qüvvələrimizdə struktur islahatlarının aparılacağının da anonsunu verdi. Bu islahatlarla həm də ordumuzun say tərkibi və hərbi gücü artırılacaq. Azərbaycan Silahlı Qüvvələri daha da qüdrətlənəcək. Bu da ki, əlbəttə, düşmənə gözdağı olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi yanında İctimai Şuranın üzvləri ilə ilk iclas

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) yanında İctimai Şuranın üzvləri ilə ilk iclas keçirilib.

Agentlikdən AZƏRTAC-a bildiriblər ki, seçki komissiyasının sədri Samir Poladov İctimai Şura üzvlərini təbrik edib və gələcək birgə fəaliyyətdə hər birinə uğurlar arzulayıb.

ANAMA yanında İctimai Şuranın üzvləri arasında səsvermə yolu ilə şuraya sədr, müavin və katib seçilməsi təklif olunub. Səsvermə nəticəsində Umud Mirzəyev sədr, Emil Həsənov sədr müavini və Hafiz Səfixanov isə katib seçiliblər.

Agentliyin İdarə Heyətinin sədri Vüqar Süleymanov İctimai Şuranın üzvlərinə üzvlük vəsiqələrini təqdim edib. Şuranın üzvləri ilə keçirilən görüşdə gələcək fəaliyyət istiqamətləri, mina təhlükəsinə dair maarifləndirmə sahəsində vətəndaş cəmiyyətinin dəstəyi və beynəlxalq təşkilatların cəlb olunması, maarifləndirmə istiqamətində mətbuat konfranslarının daha geniş miqyasda keçirilməsi, eləcə də minadan zərərçəkənlərə yardım proqramı ilə bağlı müzakirələr aparılıb.

İctimai Şuranın üzvləri ANAMA-nın fəaliyyət sahələrində yaxından iştirak edəcəklərini, mina təhlükəsi ilə bağlı məsələlərin ictimai müzakirəsinin daha səmərəli təşkilinə xidmət göstərəcəklərini bildiriblər.

Şuranın fəaliyyətinin yüksək səviyyədə həyata keçirilməsinə ANAMA-nın rəhbərliyi tərəfindən zəruri dəstək veriləcək.





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!

**Artıq aforzmə çevrilmiş bir fikir bəşəriyyət üçün aktuallığı ilə seçilir: "Ordun varsa, yurdun var!" Azərbaycan xalqı bu gün əslində ötən il sentyabrın 27-dən başlayaraq düşmənə layiqli cavab verib, 44 günlük Vətən müharibəsində Zəfər çalan Ordusu ilə fəxr edir, qürur duyur! Bu şanlı Qələbənin müəllifi başda Silahlı Qüvvələrin Ali Baş Komandanı, "Dəmir yumruq"la düşmənə öz yerini göstərən Prezident İlham Əliyev olmaqla, Ordumuzdur! Azərbaycan Silahlı Qüvvələrinin yaradılması və formalaşması ötən əsrin 90-cı illərinin əvvəllərində dövlət müstəqilliyinin bərpasından, daha doğrusu, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra başladı.**



# Zəfər salnaməsi yazan Ordum!

Ermənistanın təcavüzə məruz qoyduğu Füzuli rayonunun böyük bir ərazisi yenicə yaradılan Milli Ordumuzun gücü ilə, Ümummilli Liderin qayıdışı şərəfinə işğaldan azad edildi. Bu, hələ ordu quruculuğunun ilk dövrü idi. Həmin ordu ilə torpaqlarımızın işğaldan azad edilməsi absurd görünürdü. Məhz buna görə də Ulu Öndər dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün iqtisadiyyatın inkişafı ilə yanaşı, ordu quruculuğunu da siyasətinin əsas hissəsi hesab edirdi.

Ulu Öndərin siyasi kursunu layiqincə və şərəflə davam etdirən Prezident İlham Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin regionun aparıcı, NATO standartları çərçivəsində formalaşması üçün 2003-cü ildən yeritdiyi siyasət ötən ilin 44 günlük Vətən müharibəsində özünü əsaslı şəkildə təsdiqlədi.

Nəhayət, Ali Baş Komandanın əmri ilə Müzəffər Ordumuz 44 gün ərzində zəfər tarixi yazdı. Başda Ali Baş Komandan İlham Əliyev olmaqla, əsgər və zabitlərimiz döyüş meydanlarında şücaət göstərdi, qəhrəmanlıq nümayiş etdirdi. Düşmənin silahlı qüvvələrinə ağır zərbələr vuruldu, torpaqlarımız işğaldan azad edildi.

Hələ 2003-cü ildə Prezident kimi andiçmə mərasimində cənab İlham Əliyev vəd etmişdir ki, ölkəmizdə bir dənə də olsun çadır şəhərciyi qalmayacaq, qalmadı!

Ali Baş Komandan ona da əmin idi ki, xalq-dövlət-ordu birliyi işğalda qalan tarixi ərazilərimizi tam azad edəcək və o yerlərə yeni növraq gələcək. Bütün bunların isə zamana ehtiyacı var idi. Bu gün həmin vədin də gerçəkləşdiyinin xoşbəxt şahidləriyik!

Müstəqil dövlətimizin şanlı zəfər tarixini yazan Azərbaycan Ordusu Ermənistanın təcavüzkarlığına layiqli cavab verdi! Qələbə sevincləri bir-birinin ardınca yaşandı. Ali Baş Komandan İlham Əliyevdən hər gün eşitdiyimiz qələbə xəbərləri ermənilərin və onların havadarlarının canına üşütmə saldı. 2016-cı ilin aprelində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin, eləcə də zəfər salnaməmizin yazıldığı Lələtəpənin düşməndən azad edilməsi ilə təsdiqlədik ki, bir qarış torpağımız da yağı tapdağında qalmayacaq!

...Vətən müharibəsi başa çatıb. Bu müddət ərzində Qarabağa yeni nəfəs gətirəcək xeyli işlər görülüb. Onlardan ən əsası 30 ilə yaxındır xəyallarımızda getdiyimiz Şuşaya, Laçına, Kəlbəcərə yolların çəkilməsi, vandalların barbarlıq siyasəti nəticəsində tamamilə xarabalığa çevrilən yurdlarımızın yenidən bərpası istiqamətində atılan ilk addımlardır. Uğurlu və davamlı olsun.

44 gün ərzində Müzəffər Azərbaycan Ordusu Ermənistanın silahlı quldurlarının saxta mifini darmadağın etdi. Qəhrəman əsgər və zabitlərimiz Azərbaycanın gücünü göstərdi. Düzgün planlaşdırılan və həyata keçirilən hərbi əməliyyatlar texniki imkanlardan istifadə edərək, cəsur igidlərimizin qəhrəmanlığına, rəşadətinə söykənərək, xalqımız, ordumuz, əlbəttə, Ali Baş Komandanımız başda olmaqla, mümkün olmayanı gerçəkləşdirdi - işğalçıları ağ bayraq qaldırıb məğlubiyyətlərini boyunlarına almağa məcbur etdi. Bu, əslində düşmənin diz çökməsi demək idi.

Məhz hərb tarixinə zəfər yazan Ordumuzun rəşadətli döyüşləri sayəsində 3 yüzdən çox yaşayış məntəqəsi, eləcə də qədim, doğma, Qarabağın zümrüd tacı olan Şuşanı işğaldan azad etdik. Bundan sonra silahlı quldur dəstələri haqqında "yenilməz", "basılmaz" mifi yaradan düşmən təslim oldu, kapitulyasiya aktına imza atdı. Kəlbəcər, Laçın, Ağdam da məhz həmin təslim aktından sonra döyüşsüz qaytarıldı. Düşmən buna məcbur etdirildi...

Müharibə artıq arxada qalıb. Müzəffər Azərbaycan Ordusu bizə Qələbənin yekunu olaraq Zəfər paradının sevinclərini də yaşatdı. Dövlət başçısının da qeyd etdiyi kimi, İkinci Qarabağ savaşı bizim əyilməz iradəmizi, birliyimizi, müharibə, qələbə rəmzinə çevrilən "Dəmir yumruq"umuzun gücünü göstərdi: "Bu həm birlikdir, həm gücdür. Cəmiyyətimizdə birlik də var, ölkəmizin gücü də var və həmişə olacaq. Əgər kimsə Ermənistanda bu gün revanş hissi ilə yaşayırsa, böyük səhv edir. O 44 günlük müharibəni onlar heç vaxt unutmasınlar. Bundan sonra əgər kimsə Azərbaycan xalqını təhqir etməyə çalışsa, elə dərsini alacaq ki, o 44 günlük müharibə onun yanında yalan olacaq...", - deyə dövlət başçısı bildirdi.

Azərbaycan Prezidenti bir daha bəyan etdi ki, biz tarixi ədaləti bərpa etdik. Biz göstərdik ki, heç kim xalqımızın iradəsi qabağında dura bilməz.

Azərbaycan Prezidenti onu da bildirdi ki, artıq torpaqlar azad edilib, Böyük Qayıdış və inkişaf prosesləri başlanmalıdır: "Ona görə, əlbəttə, biz bütün bu işləri daha da fəal, daha da məqsədyönlü şəkildə aparmalıyıq ki, Azərbaycanın imkanlarını genişləndirək və ölkəmizin inkişaf dinamikasını artıraq".

Müharibə başa çatıb. Bundan sonra icra olunan bərpa və yenidənqurma Böyük Qayıdışın əsaslarını qoyub. Bu isə onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur: "...Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin..."

Təcavüzkar Ermənistan istər diplomatiya, istərsə də döyüş meydanlarındakı məğlubiyyətini gizlədə bilmədi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin mətbuata müsahibələrində səsləndirdiyi fikirlər dünya ictimaiyyətində birmənalı şəkildə kimin haqlı, kimin haqsız olmasını ortaya qoydu. Bir daha aydın oldu ki, münaqişənin bu qədər müddətə uzadılmasında kimlərin məqsədi var.

Aradan keçən 30 ilə yaxın müddətdə Ermənistan-Azərbaycan münaqişəsinin sülh danışıqları yolu ilə həlli üçün yaradılan ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi tərəfləri qarşı-qarşıya gətirdi. Ötən müddət ərzində münaqişə tərəflərinin sülhə nə qədər yaxın-uzaq olması dəfələrlə özünü göstərdi. Ermənistan hər dəfə atəşkəsi, hətta dövlət sərhədini pozaraq, dinc sakinlərimizi, mülki əhalimizi, ön cəbhədən xeyli uzaqda yerləşən (Tovuz, Gəncə, Mingəçevir şəhərlərini, Abşeron, Siyəzən, Yevlax, Bərdə rayonlarını və s.) yaşayış məntəqələrimizi ağır artilleriyadan, eləcə də ballistik raketlərdən atəşə tutması nəticəsində xeyli itkilərə, dağıntılara məruz qoydular. Lakin bütün bunlar xalqımızı nə qorxutdu, nə də çəkindirdi. Azərbaycan Ordusunun qələbə müjdələri davam etdi. Düşmən məğlubiyyətini etiraf etdiyi halda, onun havadarlarının əndişəsi nə xalqımızı, nə də ordumuzu haqq yolundan çəkindirmədi!

Bir vaxtlar Şuşada əyləncə məclisi quran Ermənistanın baş naziri N.Paşinyan ötən il noyabrın 10-da imzaladığı kapitulyasiya aktı ilə məğlubiyyəti qəbul etdiyini təsdiqlədi. Məhz Şuşanın Azərbaycan Ordusu tərəfindən fəthindən sonra təslim aktına imza atan Ermənistan özünün havadarlarına bel bağladığının əbəs olduğunun da fərqinə vardı. Azərbaycan Ordusunun Zəfər bayraqları zirvələrdə dalğalandıqca, qonşu torpaqlarına xaincəsinə göz dikən daşnaklar gücün, qüvvənin xalq-hakimiyyət-ordu birliyinin şahidinə çevrildi. Müzəffər Azərbaycan Ordusu zəfər salnaməsi yazarkən Ermənistan təcavüzkarlığının, terrorçuluğunun, işğalçılığının acı aqibətini yaşayırdı. Qalib Ordunun 44 günlük Vətən müharibəsində atdığı hər addımın qazandırdığı uğur və nailiyyətlər, Bakıda açılan Hərbi Qənimətlər Parkında düşmənin nümayiş etdirilən hərbi texnikası və digər sursatları barədəki məlumatlar da kimin nəyə qadir olduğunu göstərir.

Bir sözlə, Ordumuzun zəfər salnaməsi hərb tariximizin şərəfli səhifələrinə yazılıb. Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyev heç də təsadüfi deməyib: "Müharibə Ermənistanın yadından çıxmasın, unutmasınlar ki, "Dəmir yumruq" yerindədir".

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

● Tarix yazan oğullar

# Vətən onu sevənlərindir

**Azərbaycan torpaqlarının 30 illik erməni işğalından azad edilməsi uğrunda gedən döyüşlərin iştirakçılarından biri də Şəmkir rayon Təzəkənd kəndinin yetirməsi Kamal Füzuli oğlu Süleymanovdur. O, 2002-ci il iyun ayının 18-də anadan olub. Orta təhsilini kənddəki S.Vurğun adına Təzəkənd orta məktəbində alıb. 2020-ci il iyul ayının əvvəllərində Vətənə borcunu yerinə yetirmək üçün Milli Ordu sıralarına çağırılıb.**



Ötən ilin sentyabrında ölkəmizin ərazi bütövlüyü uğrunda Ermənistan işğalçı qüvvələrinə qarşı Vətən müharibəsi başlayanda Kamal dörd ay idi Beyləqan istiqamətindəki "N" saylı hərbi hissədə qulluq edirdi. Müharibə xəbərini eşidəndə o, çoxdan bəri ürəyində gəzdirdiyi - erməni quldurlarından qisas almaq məqamının yetişdiyinə sevindi. Dərhal bölük komandirinə yaxınlaşıb - komandir, döyüş bölgəsinə - ön cəbhəyə göndərilmək üçün seçim olsa, birinci məni nəzərdə tutun deyib, özünü ermənilərlə üzbəüz döyüşdə görmək istədi...

Kamalın bu istəyi özündən xəbərsiz gündəmə gəldi. Artıq iki gündən sonra o, Xocavənd rayonunun Domi kəndində əsgər yoldaşları ilə hücum əmrini gözləyirdi.

Domidən başlayan döyüş yolu Dağdöşü, Qoçbəyli, Bulutan, Kiş, Köhnə Tağlar, Qarqar, Ağcakənd, Quşçular, nəhayət, Tuğ kəndindən keçmişdir. Bu kəndlərin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə onun qorxmazlıq göstərdiyi anlar çoxdur. Ancaq Kamal göstərdiyi şücaətlərin hər birində bölük yoldaşlarının əvəzsiz xidməti olduğunu bildirir və heç vaxt unuda bilmədiyi bir epizodu dilə gətirərək deyirdi: "Gecə yarıdan sonra Xırmançay yaxınlığında beş nəfərlə erməni tərəfə kəşfiyyata getmişdik. Bizdən sağda, xeyli aralıda mina partlayışı nəticəsində qonşu alaydan olan Azərbaycan əsgərlərinin itki verdiyini hiss etdik, nəticədə erməni quldurlarının mühasirəsinə düşdük. İki gün ermənilərdən xəbərsiz onlarla eyni dərəni bölüşdük. Komandirin tapşırığına əsasən yolumuzun üstündə keşikdə olan erməni quldurunu çətinliklə də olsa, səsi çıxmadan məhv etdik. Beləliklə, mən və yoldaşlarım komandir Adil Bəşirovun səyi nəticəsində mühasirədən itkisiz çıxa bildik".

Xocavənd erməni işğalçılarından azad edildikdən sonra komandanlığın əmri ilə Kamalın üzv olduğu alay Ağdama doğru istiqamət götürür. 1993-cü il iyunun 23-dən 85 faizi ermənilər tərəfindən işğal olunun rayonun ətraf ərazilərində mövqe tuturlar. Kamal Süleymanov kəşfiyyat tapşırıqlarını yerinə yetirmək üçün dəfələrlə Sarıcalı və Gülablı kəndlərinin ətrafındakı erməni səngərlərinə tək gedib, amma əli-qolu bağlı terrorçu erməni silahlısı ilə cüt qayıdır. O, Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən Azərbaycan əsgərinin qarşısına qoyulan məqsədə nail olmaq üçün neçə-neçə döyüş və kəşfiyyat əməliyyatlarının əsas iştirakçılarından olur. Kamalın çevikliyinin, bəlkə də Tanrının qismətidir ki, onun və əsgər yoldaşlarının kəşfiyyat, həmçinin döyüş əməliyyatları həmişə uğurla nəticələnir.

Kamal qürur hissi ilə bildirir ki, 44 günlük müharibə dövründə bizim bölükdən ölüm-itim olmadı. Əlbəttə, yaralanan, xəstəxanaya düşən var idi, elə məqamlar oldu ki, yaralı əsgər yoldaşımı kilometrlərlə çiynimdə özümlə apardım. Bölüyümüzdən olan yaralıların köməksiz qalmasına, əsir düşməsinə imkan vermədik...

Bütün bu şücaətlər, genişliyi ilə bələd olmadıqları dağ və ərazilərdə terrorçu erməni qoşun birləşmələri üzərində qazanılan hər qələbə Kamalın və onun döyüş yoldaşlarının vətənə olan sevgisi sayəsində başa gəlirdi. Silaha sarılan o igidlərimizin bir məqsədi var idi: ancaq irəli getmək, təpədən-dırnağadək silahlanmış terrorçu erməni silahlılarını torpaqlarımızdan qovmaq, Qarabağı işğalçılardan azad etmək. Sıravi əsgər Kamal Süleymanov bu sıradan olan hərbi tapşırıqları ləyaqətlə yerinə yetirdiyinə görə qulluq etdiyi hərbi hissənin rəhbərliyi tərəfindən dəfələrlə təşəkkür və fəxri fərmanlara layiq görülüb. Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 25 dekabr 2020-ci il tarixli sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalı ilə, habelə Ali Baş Komandanın 29 dekabr 2020-ci il tarixli sərəncamı ilə "Ağdamın azad olumasına görə" medalı ilə təltif edilmişdir.

Kamal Süleymanov o günlərdə yaşadığı duyğu dolu anları əsgər yoldaşları, dostları və ailə üzvləri ilə bölüşəndə Zəfərə gedən yolun iştirakçısı və Müzəffər Azərbaycan Ordusunun sıralarında olması ilə fəxr edir. Döyüş yoldaşlarını, bu torpaq uğrunda canından keçən şəhidlərin igidliyini fəxarətlə anır. Onların vətənpərvərliyi haqqında qürurla danışır.

Vətən müharibəsi iştirakçısı Kamal Süleymanovla söhbətimizdən o da aydın oldu ki, Böyük Qələbə xəbərinin sevincini hər biri fərqli, amma oxşar duyğular içərisində dadıblar. Kamal Qələbə xəbərini döyüşə hazırlaşdıqları məqamda aldıqlarını deyir: "Noyabrın 9-u gecə döyüş hazırlığı aparıldı, xəbər gəldi ki, düşmən təslim oldu".

Bu təslimiyyət uğurlu və qətiyyətli siyasətin, rəşadətli ordunun, yumruq kimi birləşmiş xalqın ümumi qələbəsi idi. Artıq bütün dünya, nəhayət, nankor ermənilər də dərk etdilər ki, Qarabağ Azərbaycandır! Vətən onu sevənlərindir!

Qalib ordunun qalib əsgəri Kamal Süleymanov digər silahdaşları ilə birgə bu gün də xidmətini davam etdirir.

***Rəhman SALMANLI, "Azərbaycan"***

● Vətən sənə oğul deyib

# Bir ailənin iki şəhidi

## Ömürləri də, ölümləri də bir olan əmioğlular kimi, 44 günlük Vətən müharibəsinin haqqında danışılacaq hələ çox qəhrəmanları var

**Müharibə, əlbəttə, ölüm-itim, ağrı-acı, dərd-sər deməkdir. Müharibələr məğlubun qalibə təslim olmağıdır. Ancaq müharibə yalnız bunlar demək deyil, həm də igidlərin vətənpərvərlik hisslərinin təsdiqi, yurda, doğma torpağa bağlılıqların imtahan meydanıdır. Ötənilki 44 günlük Vətən müharibəsində Azərbaycan oğulları bunu bir daha təsdiqləmiş oldular. Zəfər tarixi yazan Ordumuzun qaziləri, şəhidlərimiz bir daha təsdiqlədilər ki, Vətəni sevmək həm də onun uğrunda şirin candan keçməkdir.**



Belə oğullarımız az deyil. Onlardan ikisi haqqında söz açmağımız da təsadüfi deyil. Səfərovlar ailəsinin iki igidi də bu sıradan olan oğullardandır. Səfərov Cəsarət Xaliq oğlu və Səfərov Şahmar Nazim oğlunu deyirəm... Onlar yalnız əmioğlu yox, həm də dost, yoldaş, sirdaş, əslində, sanki qardaş idilər. Birlikdə böyümüşdülər. Ona görə də birlikdə vətənə xidmət etdilər və hər ikisi də Vətən uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşərək birlikdə şəhid oldular.

Dədə-babadan eşitmişik ki, insan taleyində ona verilən adın önəmi az olmur. Yəni uşağın taleyi bir çox hallarda adına bağlıdır. Ona görə körpəni əzizləyəndə deyirlər: "adıyla böyüsün". Cəsarətin də taleyində adın mühüm önəmi oldu. Sanki adıyla böyüyürmüş: cəsarətli, qorxmaz, əyilməz!

2001-ci il iyun ayının 27-də Bakı şəhərində dünyaya göz açan Cəsarətin builki ad günündə 20 yaşı tamam oldu. Amma 19 dəfə keçiriləndən fərqli qeyd edildi. Bəlkə də ilk dəfəydi bütün ölkə-mahal bildi ki, Cəsarətin ad günüdür! Axı şəhid ad günü idi.

Deyirlər ki, orta məktəbdə oxuduğu illərdə digər uşaqlardan ürək açıqlığı, mehribanlığı, vətənpərvərliyinə görə həmişə fərqlənib. Məktəbi bitirdikdən sonra Lənkəran Dövlət Universitetinə qəbul olunub və təhsilini qiyabi davam etdirib. Birinci kursu bitirdikdən sonra, 2019-cu ilin iyul ayında hərbi xidmətə çağırılıb. Gəncədə hərbi xidmətini davam etdirib.

Şəhidin bacısı Həqiqət xanım deyir ki, qismətindən əmioğlu Səfərov Şahmar Nazim oğlu da həmin hərbi hissədə zabit kimi qulluğa başladı: "Bir il eyni hərbi hissədə xidmət etdikdən sonra, 2020-ci ilin may ayında Şahmar xüsusi təyinatlı dəstəyə keçdi. Təyinatını Daşkəsənə verdilər. Bir müddət sonra Vətən müharibəsi başladı və sentyarın 27-si Şahmarı Murovdağ ərtafında gedən döyüşlər zamanı itirdik. Müharibənin ilk şəhidlərindən oldu. Dərd onun şəhidlik zirvəsinə ucalmağı deyildi. Dözülməyən dərd şəhidimizin nəşinin 53 gündən sonra ailəsinə təhvil verilməsi idi. Bakıda Üçüncü Fəxri xiyabanda dəfn edildi..."

Əkiz taleli igidlərin - Şahmarla Cəsarətin nəşi ailələrinə aylar sonra gətirilib.

Şahmarın da şəhidliyi əmisi oğlu Cəsarətinki kimi olub: nəşi 43 gün sonra ailəsinə verilib.

Cəsarət Füzuli, Xocavənd, Qubadlı, Zəngilan istiqamətlərində olan döyüşlərdə iştirak edib. Şahmarla axırıncı dəfə noyabrın 3-də danışıblar. Ondan sonra heç bir əlaqə olmayıb. Noyabrın 4-də Laçın-Şuşa yolu istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Əvvəllər itkin hesab edilib. Deyirmişlər ki, "neytral"da olduğu üçün götürə bilmirlər. Nəşi 43 gün sonra təhvil verilib və İkinci Fəxri xiyabanda dəfn edilib. Bacısının yazdıqlarından: "Mən ondan 7 yaş böyüyəm. O, mənim əllərimdən tutub böyüyüb. İlk sözü "bacı" olub. Sarı, qıvırcıq tellərini, qıyıq gözlərini, əlinin üstündəki kəsiyi, səbirsiz hallarını, ağızdolusu "bacı" deməyini, anası kimi sinəsinə basıb "canım" deməyini necə unudum?! İndi onu bağrıma basdığım yer sızıldayır".

Amma bütün bunlardan sonra şəhid bacısı bilir ki, Vətən belə oğullarla basılmaz olur. Ordumuz bu cür igid əsgərləri ilə düşmənə layiqli cavab verərək qalib gəlir. Qalibiyyətiniz mübarək, şəhid əmioğlular!

***M.NƏRİMANOĞLU, "Azərbaycan"***

● Vətənpərvərlik düşüncələri

# Zaman Azərbaycanın xeyrinə işləyir

**200 ildən artıq bir dövrdür ki, erməni millətçiləri xarici havadarlarının dəstəyi ilə Azərbaycana qarşı ərazi iddiası irəli sürərək xalqımıza qarşı soyqırımı, deportasiya, terror aktları həyata keçiriblər. XX əsrdə dəfələrlə azərbaycanlılara qarşı törədilmiş həmin fəlakətlər erməni vandalizminin nümunəsidir.**



1918-ci ilin mayında İrəvan xanlığının ərazisində ermənilərə dövlət qurulması, 1923-cü ilin iyulunda İrandan və Osmanlıdan Qarabağ xanlığının ərazisinə köçürülən ermənilərə muxtariyyət hüququ verilməklə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması, sovet hakimiyyətinin ilk illərində Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi ilə Naxçıvanın Azərbaycandan, Türkiyənin isə türk dünyasından ayrılması Ermənistanın məkrli siyasətinin əsas göstəriciləridir. Nəhayət, 1988-ci ilin əvvəllərində ermənilərin separatçı və terrorçu çıxışlarının silahlı münaqişəyə çevrilməsi iki ölkə arasında müharibənin başlanmasına səbəb oldu. 1991-1994-cü illərdə Ermənistanın təcavüzkar və işğalçılıq siyasəti nəticəsində Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon işğal edildi. Bununla da 30 ilə yaxın müddətdə Azərbaycan əraziləri işğalda saxlanılmaqla xalqımızın tarixi və mədəni irsi məhv edildi, saxtalaşdırıldı və ya qarət edildi, ərazilərimiz əsl barbarlığa məruz qaldı. Ermənilər bütün beynəlxalq prinsipləri və normaları pozaraq işğal etdikləri ərazilərimizdə görünməmiş ağır cinayətlər, vəhşiliklər törətdilər.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun davamçısı Prezident İlham Əliyev 17 illik rəhbərlik dövründə Azərbaycanın iqtisadi inkişafına nail oldu, yaranan imkanlar hesabına ölkənin hərbi qüdrətini artırdı, diplomatik sahədə apardığı düşünülmüş siyasət, ölkədə yaratdığı xalq-dövlət birliyi sayəsində Dağlıq Qarabağ münaqişəsinin həllinə nail oldu. Ali Baş Komandanın ətrafında yumruq kimi birləşən xalqımız 44 günlük Vətən müharibəsində "Dəmir yumruq" əməliyyatı ilə Ermənistan ordusunu darmadağın etdi. Sonda təcavüzkar Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu.

Bütün bu illər ərzində Ermənistanın niyyəti münaqişənin dondurulması olub, onun həllini istəməyib. İşğal etdikləri ərazilərimizdə milyonlarla dollar vəsaitlə nəhəng istehkamlar, müdafiə xətləri tikməklə Azərbaycana məxsus tarixi torpaqları həmişəlik işğalda saxlamaq məqsədi güdülüb. Ərazilərimizi azad etdikdən sonra gördüklərimizdən aydın olur ki, münaqişənin həll olunmaması üçün nə lazımdırsa ediblər. Bu, rəsmi İrəvanın cinayətkarlığının sübutudur.

Birinci Qarabağ müharibəsində ağır cinayətlər törədən Ermənistanın vandalizm və barbarlıq siyasəti o dövrün informasiya mühitinin fərqli olması səbəbindən sənədləşdirilməyib, beynəlxalq ictimaiyyətə çatdırılmayıb. Beləliklə, onların o vaxtlar törətdikləri müharibə cinayətləri gizlədilib.

Ancaq bu gün vəziyyət başqadır. Müharibə zamanı beynəlxalq ictimaiyyət erməni barbarlığının şahidi oldu. Hədəfi yaşayış kompleksləri olan Gəncə şəhərinə tuşlanan ballistik raketlərin gecə vaxtı insanların yatdığı vədədə bir dəfə yox, bir neçə dəfə atılmasını vaxtında və real görüntülərlə yerli və xarici media nümayəndələri beynəlxalq ictimaiyyətə çatdırdılar. Ermənilər günahsız mülki insanları öldürdülər, beynəlxalq ictimaiyyətin gözü qarşısında şəhər və kəndlərimizi hər gün ballistik raketlərlə bombaladılar, artilleriya atəşinə tutdular. Təkcə Tərtər şəhərinə 16 min bomba atılmışdı. Bərdəni, Naftalanı raket atəşinə tutdular. Mülki əhaliyə qarşı törədilmiş cinayətlər erməni siyasətinin xislətindən xəbər verirdi.

Cəmi 44 gün davam edən Vətən müharibəsi ötən il noyabr ayının 10-da bitdi. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin vahid rəhbərliyi, rəşadətli ordumuzun qüdrəti sayəsində Ermənistan ordusu yoxdur, fiziki baxımdan darmadağın olunub, mənəvi cəhətdən sarsılıb. Onların revanş niyyətinin qarşısı sərt şəkildə alınıb və bundan sonra da alınacaq. Çünki Azərbaycan ərazisində artıq ikinci erməni dövlətinin yaranması mümkün deyil. İndi bizim iqtisadi potensialımız, mənəvi gücümüz, hərbi qüdrətimiz var. Yenilməz orduya malik dövlətimiz və ona rəhbərlik edən qətiyyətli, güclü qalib liderimiz var. Gənc nəslin bu tarixi həqiqətləri bilməyə haqqı var.

Türkiyə Respublikasının Prezidenti R.T.Ərdoğanın Qarabağa, xüsusən də Şuşaya səfəri və orada iki qardaş dövlətin başçılarının imzaladıqları Şuşa Bəyannaməsi bir daha təsdiqlədi ki, Azərbaycan işğaldan azad etdiyi ərazilərdə yeni növraq qurmağa hazırdır. Düşmənin isə özünün layiqli cavabını almaqla, dünyada terrorçu, işğalçı, vandalizm siyasəti yürütməsi məlumdur. İndi ermənilərin vəziyyətdən çıxması üçün bir yolu var: Azərbaycanın dediklərini etmək.

***Rufina NAMAZOVA, Qazax rayon Heydər Əliyev Mərkəzinin əməkdaşı***

# REGİONLAR



## Ağdam artıq cəbhə bölgəsi yox, quruculuq və təsərrüfat işlərinin səngimədiyi rayondur





Ordumuzun qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsi bütün ölkəmizdə olduğu kimi, Ağdamda da yüksək əhvali-ruhiyyə yaratmışdır. Faşist xislətli ermənilərin odlara qalayıb viran qoyduğu, ruhlar şəhərinə çevirdiyi Ağdam bu gün başdan-başa yenidən qurulur.

Müharibədən sonra Qarabağın, o cümlədən Ağdamın bərpasına müxtəlif xarici şirkətlər dəvət edilmişdir. Bərdə-Ağdam dəmiryol xəttinin çəkilişində, həmçinin eyni istiqamətdə müasir tələblər səviyyəsində avtomobil yolunun inşasında işlər fasiləsiz davam edir. Separatçıların daş üstündə daş qoymadığı şəhər və kəndlərin yenidən qurulmasına, müasir sosial infrastrukturun yaradılmasına da artıq start verilmişdir.

Bu gün böyük inşaat meydanına çevrilən Ağdamda təsərrüfat işləri də zərbəçi ahəng almışdır. Cari ilin məhsulu üçün 13555 hektarda taxıl əkilmişdir. Aqrotexniki qaydalara ciddi əməl edilməsi sayəsində zəmilərdə bol məhsul yetişdirilmişdir. Böyük zəhmət bahasına hasilə gələn məhsulu tez və itkisiz yığıb tədarük etmək üçün rayonda bütün qüvvələr səfərbər edilmişdir. Hazırda zəmilərdə 22 kombayn işləyir. Arpa biçini başa çatmış, 2046 hektardan 7509 ton məhsul yığılmışdır. Məhsuldarlıq 36,7 sentnerdir. Buğda biçini isə davam edir. İndiyədək 4320 hektardan 17110 ton buğda biçilmişdir. Orta məhsuldarlıq 40 sentnerə yaxındır.

"Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində rayonun təsərrüfatlarında məqsədyönlü tədbirlər görülür. Baramaçılığın yem bazası yeni salınan tut bağları hesabına ildən-ilə möhkəmləndirilir, kümxanaların sahəsi yeni tikililər hesabına genişləndirilir. Çəkilən zəhmətin, həyata keçirilən tədbirlərin gözlənilən uğurlu nəticəsidir ki, bu il rayon üzrə 10902 kiloqram keyfiyyətli barama tədarük edilmişdir.

Rayon ərazisində pambıqçılıqla üç şirkət məşğuldur. MKT-IK MMC-nin 477 nəfər torpaq istifadəçisi ilə bağladığı müqavilə əsasında bu il 1025 hektar sahədə pambıq əkilmişdir. "P-Aqro" MMC 637,4, "AzPambıq" ASC isə 537,6 hektarda pambıq əkmişdir. Bütövlükdə 884 nəfər torpaq istifadəçisi ilə 2200 hektar sahədə pambıq əkib-becərmək üçün müqavilələr bağlanmışdır. Keçən təsərrüfat ilinin obyektiv çətinliklərinə - müharibə getdiyinə baxmayaraq, Ağdam kəndlisi əsl əmək fədakarlığı nümunəsi göstərmiş, 7100 ton pambıq istehsal etmişdir. Orta məhsuldarlıq 33,5 sentner olmuşdur ki, bu da yüksək nəticə sayılmalıdır. Amma ayrı-ayrı fermerlərin qazandığı nəticə daha yüksəkdir. Məsələn, Quzanlı qəsəbəsində təcrübəli fermer Mürsəl Qurbanov pambıq əkib-becərdiyi 50 hektar sahənin hər hektarından orta hesabla 42 sentner məhsul götürmüşdür. Mirəşşəlli kənd sakini Eldar Qasımov isə 10 hektardan 42,7 ton pambıq toplamışdır.

Bu günlər pambıq tarlalarının becərilməsində həlledici dövrdür. Hazırda cərgə aralarına kultivasiya çəkilir, yemləmə gübrəsi verilir, xəstəlik və zərərvericilərə qarşı kimyəvi mübarizə aparılır. Bütün becərmə tədbirlərində aqrotexniki tələblərə ciddi əməl olunur. Ağdam pambıqçılarının builki hədəfi hər hektarın orta məhsuldarlığını azı 35 sentnerə çatdırmaqdır.

Rayonun heyvandarlıq təsərrüfatlarında, bostan-tərəvəz əkini sahələrində, meyvə bağlarında da bu günlər baş qaşımağa vaxt yoxdur. Müharibə ab-havası artıq xatirələrə köçüb, raket, güllə səsləri eşidilmir. Odur ki, bütün insanlar təsərrüfat işlərinə köklənib.

***Lazım QULİYEV, "Azərbaycan"***

## Samuxlu kümçülərin builki hədəfləri daha yüksəkdir

Ölkəmizdə baramaçılıq sahəsində uğur qazanan rayonlardan biri də Samuxdur. Son illər rayonda bu gəlirli sahənin inkişafı istiqamətində bir çox məqsədyönlü işlər görülmüşdür. Bunun da nəticəsində rayon sakinləri arasında baramaçılığa maraq daha da artmışdır.



Samux Aqrar İnkişaf Mərkəzinin direktoru Rahil Həsənov deyir ki, əgər 2016-cı ildə rayonda baramaçılıqla məşğul olan 10 nəfər var idisə, indi onların sayı 25-ə yüksəlmişdir: "Dövlətin baramaçılığı və ipəkçiliyi dəstəkləməsi nəticəsində təsərrüfat sahibləri əsas işlərindən ayrılmadan əlavə gəlir əldə edə bilirlər. Bu il kümçüləri sevindirən daha bir məsələ öz həllini tapmışdır. Əvvəlki illərdən fərqli olaraq bu il məhsul təhvil veriləndə dövlətin nəzərdə tutduğu hər kiloqrama görə 5 manat subsidiya məhsulun satış pulu ilə eyni vaxtda verilir".

Keçən il 852 kiloqram məhsul verən rayon baramaçıları bu il daha yüksək göstərici - 2000 kiloqram barama istehsal etməyi hədəfləmişlər. Bunun üçün rayon kümçüləri 50 qutu barama qurdu götürmüşlər. Hazırda rayonun 23 kəndində barama saxlanılır.

Rayonda baramaçılıqda zəngin təcrübə toplayan kümçülər çoxdur. Onlardan biri də Poylu kəndinin sakini Kəmalə Musayevadır. Kəmalə bu il 4 qutu barama qurdu götürmüşdür. Ümumilikdə 188 kiloqram məhsul götürən kümçü gələn il daha çox məhsul istehsal etməyi qarşısına məqsəd qoyub.

İki qutu barama qurdundan Alıuşağı kəndinin sakini Elşad Xəlilov 117, Zazalı kəndinin sakini Coşqun Məmmədov 124, Yenikənd kənd sakini Elçin Cabbarov isə bir qutu barama qurdundan 72 kiloqram məhsul təhvil vermişlər.

Qeyd edək ki, rayonda barama qurdunun yemləndirilməsində elə bir problem yaşanmır. Belə ki, kənd ərazisində istənilən qədər tut ağacı mövcuddur. Bundan əlavə, payız aylarında rayonda 10 hektar tut bağının salınması da nəzərdə tutulmuşdur.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Bərəkət halallıqdan başlayır

Yay həm də bərəkət fəslidir. Məhz bu fəsildə kəndli əkdiyini biçir, toplayır, ruzisini qazanır. Məhz yayda çöllərdən traktor, kombayn səsi kəsilmir, bağlardan, plantasiyalardan insan əskik olmur.



Şimal bölgəsinin kənd təsərrüfatı məhsullarının istehsalı sarıdan fərqlənən rayonu Şabranda taxıl biçini Quba, Qusar və Xaçmaza nisbətən bir qədər tez başlayır. Cari mövsümdə rayon üzrə 5920 hektarda arpa əkilib və artıq arpa biçini yekunlaşıb. Məhsuldarlıq 22-24 sentner olub ki, bu da ötən ildəkindən çoxdur.

Rayonda bu təsərrüfat ili əkilən 14625 hektar taxılın 8705-i buğdadır. Bu günədək 3000 hektardan artıq ərazilər biçilib. Ağalıq, Ağbaş, Dağbilici kəndləri rayonun iri taxılçılıq təsərrüfatlarıdır. Onu da qeyd edək ki, Şabranda 24 kombayn var və onların hamısı işlək vəziyyətdədir.

Rayonun iri taxılçılıq təsərrüfatları biçinə hələ yazdan hazırlaşırdılar. Səbirə Vəliyeva, Qəşəm Həsənov, Vahid Əsədovun və digərlərinin təsərrüfatlarında bol məhsul yetişdirilib. Kombaynçı Vüqar Xeyrullayev, Rahim Məmmədov bildirdilər ki, havaların əvvəl yağışlı, sonra küləkli keçməsi işimizi bir qədər ləngitdi: "Aran ərazilərdə taxılçılar ona "ağ yel" deyir, əsdikcə arpanın sünbülünü silkələyib korlayır. Bu isə məhsul itkisi deməkdir. Yaxşı ki, belə havalar çox çəkmədi".

Kombaynların yanacaqla təminatı məsələləri də rayonda lazımi qaydada həll olunub. Biçin başlayandan bugünədək heç bir kombaynçı yanacaq və sürtkü yağları ilə bağlı problemlə üzləşməyib.

Hazırda ətraf rayonların kombaynçıları da Şabranın bərəkətli çöllərində biçinlə məşğuldur. "Nova", "Sampo", "Nyu Hollandiya" tipli müasir kombaynlar məhsulun itkisiz yığılmasında xüsusi rola malikdir. Onu da əlavə edək ki, bu gün fiziki şəxslərdə olan kombaynların sayı ötənilkinə nisbətdə xeyli artıb. Biçinə start verilən gündən heç bir texnika xarab olmayıb. Biçin başa çatdıqdan sonra kombaynlar kömək üçün qonşu rayonlara yollanacaqlar.

Şabranda yerli şəraitə və iqlimə uyğunlaşdırılmış müxtəlif buğda sortları əkilir. Bunlar "Qobustan", "Elit", "Azəri-95" və digər sortlardır. Mütəxəssislər həmin sortların Şabranda məhsuldarlığının yüksək olduğunu bildirirlər. Bu hesaba cari ildə hər hektardan 26 sentnerə yaxın məhsul götürüləcəyi hesablanıb.

Biçin zamanı təhlükəsizlik məsələlərinə də xüsusi diqqət verilir. Şimal bölgəsinin quraqlıq ərazisi sayılan Şabranda rayonun əlaqədar təşkilatları xüsusi iş rejiminə keçib. Taxıl sahələri arasına atılan şırımlar hər axşam yenilənir. Bu məqsədlə rayonun əlaqədar təşkilatları məlumatlandırılıb. Rayon rəhbərliyi tərəfindən yaradılan xüsusi briqadalar isə növbəli şəkildə sutkaboyu taxıl sahələrini nəzarətdə saxlayırlar. Bəzi sahələr elə biçilən günü şumlanır.

Bu gün rayonda taxıl biçinində fərqlənənlər də vardır. "Turaz", "Zaman", "Dostluq" MMC-lər, "Elit" toxumçuluq təsərrüfatı ötən illərdə olduğu kimi, yenə də öndədirlər. Dəvəçi, Dağbilici, Əmirxanlı, Rəhimli və digər kəndlərdə isə yüksək keyfiyyətli taxıl yetişdirilib.

***Akif ƏLİYEV, "Azərbaycan"***

## Astarada yeni ziyarətgah - Zəfər Parkı salınıb

Vətən müharibəsində Astara rayonundan 574 nəfər iştirak etmiş, 41 nəfər şəhid olmuş, 138 nəfər yaralanmış, sağlamlığını itirmişdir. Ümumilikdə Birinci və İkinci Qarabağ müharibələrində rayonumuzun 124 cəsur, mərd oğlu şəhidlik zirvəsinə ucalmışdır.




Noyabrın 8-nin Azərbaycanda Zəfər Günü kimi qeyd edilməsi ilə əlaqədar Prezidentin sərəncamından sonra Astara şəhərinin Heydər Əliyev prospektində Zəfər Parkının inşasına başlanmışdır. Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığı və möhtəşəm tarixi zəfəri özündə əks etdirən, müasirliyi ilə seçilən, xüsusi dizaynla inşa edilmiş xatirə abidəsi Azərbaycan Silahlı Qüvvələrinin yaranması günü ərəfəsində istifadəyə verilmişdir.



Bununla bağlı keçirilən tədbirdə bildirilmişdir ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf etdirilərək dünyanın güclü ordularından birinə çevrilən Azərbaycan Silahlı Qüvvələri şanlı qəhrəmanlıq salnaməsi yazaraq düşmən üzərində tarixi zəfər çaldı. Bu qələbə xalqımızın birliyi, qəhrəman əsgər və zabitlərimizin Vətən sevgisi, iradəsi, əzmi ilə qazanıldı.

Qeyd olundu ki, qəhrəman oğullarımız Birinci Qarabağ müharibəsində də Vətənin müdafiəsinə qalxmışlar. Lakin vahid komandanlığın olmaması, ordudakı hərc-mərclik, ölkədəki anarxiya və xaos torpaqlarımızın itirilməsi, işğalı ilə nəticələnmişdir. Nəhayət ki, Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qısa müddətdə torpaqlarımızı işğaldan azad edərək zəfər tarixi yazdı.

Sonra bildirildi ki, yaşadığımız bu sevincli günlər üçün şəhidlərimizə, qazilərimizə və bütün döyüşçülərimizə borcluyuq. Onlar tərəddüd etmədən canlarını fəda edərək erməni vandallarının zaman-zaman xalqımızın başına gətirdikləri müsibətlərin, şəhidlərimizin qisasını aldılar.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin sərəncamları ilə Vətən müharibəsində qəhrəmanlıqla döyüşmüş hərbi qulluqçular müxtəlif orden və medallarla təltif olunmuşlar. Qələbə rəmzi olan Zəfər Parkında medallar təqdim edilmişdir. Rayon icra hakimiyyətinin başçısı Q.Ağayev şəhid polkovnik-leytenant Nail Orucovun təltif olunduğu "Azərbaycan Bayrağı" ordenini və "Vətən uğrunda" medalını oğlu İbrahimə təqdim edərək atası ilə bütün Azərbaycan xalqının fəxr etdiyini, qürur duyduğunu bildirdi.

Sonra "İgidliyə görə", "Hərbi xidmətlərə görə", 3-cü dərəcəli "Vətənə xidmətə görə", "Döyüşdə fərqlənməyə görə" və "Vətən uğrunda" medalları şəhid hərbi qulluqçuların ailələrinə və qazilərə təqdim olundu.

***Safail MƏMMƏDOV, Astara***

## Gədəbəydə bu il 10,4 min hektardan çox sahədə kartof əkilib

### Alimlər rayonda yeni kartof sortlarını sınaqdan keçirirlər

Hər il olduğu kimi, bu il də Gədəbəy fermerləri ölkə əhalisini bol kartofla təmin etməyi qarşılarına məqsəd qoymuşlar. Rayon aqrar inkişaf mərkəzinin direktoru Asəf Nağıyevlə söhbət zamanı öyrəndik ki, bu il təsərrüfat sahibləri 10 min 44 hektar sahədə kartof əkmişlər.





Əsasən yerli sortlara - "Telman", "Əmiri", "Ağçiçək" və s. sortlara üstünlük verən fermerlər bu il də bol məhsul götürəcəklərinə inanırlar. Belə ki, keçən il hər hektardan 120 sentner məhsul götürən təsərrüfat sahibləri cari il bu rəqəmin xeyli çox olacağını deyirlər.

Onu da öyrəndik ki, rayonda yerli sortlarla yanaşı, kənardan gətirilmiş daha məhsuldar toxumlara da üstünlük verilir. Həmin sortların yerli iqlim şəraitinə uyğunlaşdırılması üçün işlər aparılır.

Son illər rayonda əkin sahələri xeyli genişləndirilib. Hazırda Gədəbəydə elə kənd yoxdur ki, orada kartof yetişdirilməsin. Ən çox kartof Slavyanka, Zəhmət, Söyüdlü, Saratovka, Qızıltorpaq, Düz Rəsullu və digər kəndlərdə əkilir.

Qızıltorpaq kəndinin sakini, kartofçuluqda zəngin təcrübə toplayan fermer Əli İsmayılov hər il 22 hektar sahədən bol məhsul götürür. Keçən il 700 ton kartof istehsal edən fermer bu il də bol məhsul yetişdirmişdir. Hər hektardan orta hesabla 35 ton kartof götürən təsərrüfat sahibi istehsal etdiyi kartofun bir hissəsini toxum kimi satır. Keçən il 290 ton toxumluq kartof satan Əli İsmayılov əmindir ki, cari ildə bu rəqəm xeyli çox olacaqdır.

Qeyd edək ki, rayonda kartofçuluqla məşğul olan təsərrüfatların bir çoxu məhsulu qış mövsümünə saxlamaq üçün anbar inşa etdirmişdir. Onlardan biri də Əli İsmayılovdur. Onun 500 tonluq anbarı imkan verir ki, həm istehsal etdiyi kartof toxumunu, həm də satış üçün nəzərdə tutulan kartofu normalara uyğun şəkildə uzun müddət saxlaya bilsin. Təsərrüfat texnika ilə də tam təmin olunub. İstər şum, istər əkin, istər becərmə, istərsə də kartofun çıxarılması təsərrüfata məxsus texnikanın köməyi ilə həyata keçirilir ki, bu da məhsulun maya dəyərinin aşağı düşməsinə səbəb olur.

Onu da bildirək ki, Azərbaycan Elmi Tədqiqat Tərəvəzçilik İnstitutunun alimləri Gədəbəydə 5 sort kartofun sınağını keçirirlər. "Çənlibel", "Vaqif", "Uğur", "Turan" və "Nevski" adlanan sortlar uğurlu nəticələr versə, onların ölkə üzrə geniş yayılmasına başlanılacaqdır.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Biz birlikdə güclüyük!

## Dünyanın yeni qorxusu - “Delta” ştammı...

Əvvəli 1-ci səh.



Ancaq bu ştamm yayıldığı ölkələrə görə simptom fərqlilikləri göstərə bilir. Belə ki, ölkələrdən asılı olaraq, bu ştammın mədə ağrısı, ürəkbulanma, iştahsızlıq kimi fərqli simptomları da müşahidə olunur.

Narahatlıq doğuran məlumatlardan birini də Çinin Xəstəliklərə Nəzarət və Onların Profilaktikası üzrə Mərkəzinin əməkdaşı Fen Szıszyan CCTV telekanalının efirində söyləyib. O, bildirib ki, koronavirusun “Delta” ştammı dünyada dominantlıq edə və bir çox ölkələrə yayıla bilər. Mərkəzin əməkdaşı diqqətə çatdırıb ki, bu ştammın yüksək yoluxuculuğu virusun canlı qalmasına və daha sürətlə yayılmasına səbəb olur.

Məlumat üçün bildirək ki, bir müddət əvvəl Çinin cənubundakı Quandun əyalətinin Şençjen şəhərində “Delta” ştammına bir neçə yoluxma hadisəsi qeydə alınıb.

Artıq bu ştamm sərhədləri aşmaqda davam edir. “Delta” ştammının dünyanın 90-dan çox ölkəsində yayıldığı barədə Ümumdünya Səhiyyə Təşkilatı məlumat verib. Azərbaycanla həmsərhəd olan ölkələr də bu sıradadır. Ən qorxulu vəziyyət isə hazırda Rusiyada müşahidə olunur.

Qeyd edək ki, ilk dəfə Hindistanda aşkar edilən COVID-19 infeksiyasının “Hindistan ştammı” bu ölkədə ötən ilin oktyabrında aşkarlanıb. Sonradan onun yeni növləri müəyyən olunub. “Delta” ştammının mutasiyaya uğraması davam edib. Nəticədə “Delta plyus” növü də yaranıb. Mütəxəssislər bildiriblər ki, “Delta plyus” “Delta” ilə bənzərdir. Amma onunla müqayisədə yoluxma qabiliyyəti daha yüksəkdir. Rusiyada da koronavirusun “Delta plyus” ştammına yoluxma faktı qeydə alınıb. Bu barədə Qrip üzrə Smorodintsev Elmi-Tədqiqat İnstitutu direktorunun araşdırma üzrə müavini Daria Danilenko məlumat verib. Mütəxəssis bildirib ki, yeni növə yoluxma faktı hələ ki, ölkədə ilk və təkdir. Onun sözlərinə görə, bu növün təhlükə dərəcəsindən danışmaq hələ tezdir.

Danilenkonun bu məlumatından öncə Rospotrebnadzorun “Vektor” Viroloji və Biotexnoloji Tədqiqat Mərkəzinin baş direktoru Rinat Maksyutov açıqlamışdı ki, Rusiyada 16 mindən çox potensial COVID-19 mutasiyası aşkarlanıb.

Koronavirusun “Delta” ştammı aşkarlanan digər qonşu ölkə İrandır. Həmin ölkədə 10-dan çox şəxsdə həmin ştamm tapılıb. Bu məlumatı ISNA-ya açıqlamasında Məşhəd Tibb Elmləri Universitetinin rektor müavini Mehdi Kelyan söyləyib. O, deyib: “Təəssüf ki, dünən axşam Məşhəddə 10-dan çox “Delta” ştammına yoluxma müəyyənləşdirildi”. Mehdi Kelyan testlərin təhlil üçün paytaxt Tehrana göndərildiyini açıqlayıb: “Sözügedən yoluxmaların “Delta” ştammı olduğundan əminik, ancaq yekun rəy Tehran tərəfindən verilməlidir”.

Azərbaycana yaxın qonşu olan daha bir ölkədə - Gürcüstanda da COVID-19-un yeni ştammı aşkarlanıb. Hər gün bu xəstəliyə yoluxanların sayı artmaqda davam edir.

Qardaş ölkə Türkiyəyə gəlincə, COVID-19-un “Delta” ştammı bu ölkədən də yan keçməyib. Ölkədə “Delta plyus” ştammı isə aşkarlanmayıb. Türkiyənin səhiyyə naziri Fahrettin Koca “Delta” ştammının ölkənin 26 vilayətində göründüyünü bildirib. Nazir deyib: “Hələ “Delta plyus” ştammı yoxdur, amma “Delta” variantı artmaqdadır. “Delta” mutasiyasına 138 nəfərin yoluxduğundan bəhs etdim, indi 224-ə yüksəldi. 16 vilayətdə görülən “Delta” variantı hazırda 26 vilayətdə görünür. Xəstələrin əksəriyyəti isə (134) İstanbuldadır”.

Fahrettin Koca “Twitter” hesabından etdiyi paylaşımda bildirib: “Hər 4 nəfərdən birinə vaksin vuruldu. İkiqat dozada peyvənd alanların sayı bu gün (29 iyun) günorta saatlarında 15 milyona çatıb. 18 yaşdan yuxarı əhalimizin 25 faizi artıq peyvənd olunub. Epidemiyaya qarşı gücümüzün artması vaksin vurduranların sayının artmasından asılıdır. Növbəsi gələnlər vaksin vurdursunlar”.

Azərbaycanda koronavirusla mübarizə davam edir, lazımi tibbi, sosial, iqtisadi tədbirlər görülür. Sevindirici haldır ki, Azərbaycanda “Delta” ştammına yoluxma ilə bağlı fakt qeydə alınmayıb. Ancaq ştammın sürətlə yayılması, həmçinin qonşu ölkələrdə də aşkar olunması real təhlükədir və ciddi narahatlıq doğurur.

Mütəxəssislər bu fikirdədirlər ki, ştammın təsirini azaltmağın əsas yolu vaksinasiyadır. Bəlanın qarşısına sədd çəkmək, daha yaxşı epidemioloji vəziyyətə nail olmaq üçün ən effektiv vasitə budur. Azərbaycanda bu ilin yanvarından başlayaraq vaksinasiya prosesi uğurla həyata keçirilir. Mütəxəssislər prosesin müsbət nəticələri barədə danışırlar. Son günlər koronavirusa yoluxma və ölüm sayında ciddi azalmanın olması, bir sıra sərt karantin qaydalarının aradan qaldırılması da ümidləri artırıb. Təəssüf ki, koronavirusun “Delta” ştammının sürətlə yayılması bir daha göstərir ki, təhlükə hələ sovuşmayıb. Odur ki, qorxulu infeksiyadan özünü və yaxınlarını qorumaq üçün qaydalara əməl etmək, ehtiyatı əldən verməmək vacibdir.

*Zöhrə FƏRƏCOVA,*
*“Azərbaycan”*

## Vaksinasiyadan yayınanlar həyatlarını təhlükəyə atırlar

### Və ya koronavirusun digər xəstəliklərin yaranmasındakı rolu

Koronavirus artıq dünyada “dillər əzbəri”dir, təəssüf ki, yaxşı mənada yox. İnsanları qorxudan, bəşəriyyəti təhlükə ilə üz-üzə qoyan bu bəla deyəsən qismən də olsa, yaxamızdan qopmaq ərəfəsindədir. Dünyada, o cümlədən də ölkəmizdə COVID-19 pandemiyasına yoluxanların sayı azalmaqdadır.

Son günlərin statistik göstəricilərinə baxdıqda istər-istəməz arxada qalan təlaşlı, vahiməli günləri xatırlamalı olur, özünü bir az da ciddi şəkildə qorumağa çalışırsan.

Bu gün dünyada hər kəsi düşündürən bəlanın nədən yaranması, yaxud yaradılması, qarşısının alınmasının mümkünlüyü barədə bir-birini bəzən təsdiq, bəzən isə təkzib edən məlumatlar artıq o qədər də maraqlı deyil. Ona görə də insanların ötən ildəkindən fərqli olaraq, bu gün daha çox ayıq-sayıq olması təbiidir. COVID-19 pandemiyası bəşəriyyəti yalnız ölüm təhlükəsi ilə hədələmədi, eyni zamanda ölkələrin iqtisadiyyatına da külli miqdarda ziyan vurdu. Səhiyyə sistemi az qala fəaliyyətinin əsas hissəsini koronavirusla mübarizəyə səfərbər etdi. Buna görə də digər xəstəliklərin müalicəsi arxa plana keçdi.

Bütün bunların, deyəsən, tarixin arxivinə atılmasına az qalıb. Son günlərin yoluxma və sağalma, eləcə də vaksinasiya göstəricilərinə nəzər salsaq, insanların özünüqoruma instinktinin xeyli yüksəldiyini deyə bilərik.

Ötən ilin eyni dövrü ilə müqayisə etdikdə mövcud durumun o qədər də təhlükəli olmamasına baxmayaraq, tələb olunan qayda-qanunlara əməl etməyin zəruriliyi unudulmamalıdır. İctimai yerlərdə, nəqliyyatda, xüsusən də marşrut avtobuslarında və metroda insanlar ən azı tibbi maskadan istifadə etməlidirlər ki, yoluxma halları aradan qalxsın.

Doğrudur, insanların koronavirusdan uzaq durması üçün dövlət və hökumət tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər, xüsusən bu ilin əvvəlindən başlayan vaksinasiya prosesində iştirak edənlərin sayının günbəgün artması da bu baxımdan təqdirəlayiqdir.

Pandemiya ilə bağlı bir il təxirə salınan futbol üzrə Avropa çempionatı oyunlarının bir qismi də Azərbaycanda keçirilir. İyun ayının əvvəlində AVRO-2020-nin futbol oyunlarının birinin sonunda Danimarka futbolçusu Kristian Erikson qəflətən meydançada yıxılıb. Tibb işçilərinin vaxtında müdaxiləsi onun həyatını xilas edə bildi. Maraqlıdır: nə baş vermişdi?

Mərkəzi Gömrük Hospitalının invaziv kardioloqu Emin Hacıbalayev AVRO-2020 futbol meydançasında futbolçunun qəflətən ürək dayanmasının mümkün olan səbəbləri barədə ətraflı məlumat verib. Həkim bildirib ki, peşəkar futbolçu Kristian Erikson hər il kardioloji müayinələrdən keçir. Yalnız müayinədən sonra futbol meydançasına buraxılır. Bu dəfə isə meydançada futbolçunun fiziki yüklənməsi nəticəsində oyunun sonuna yaxın ürəyinin ritminin pozulması, mədəcik fibrilyasiyası və sonra isə ürək dayanması baş verib. Kardio-reanimatoloji tədbirlərlə qısa müddətdə ürəyin ritmini bərpa etmək mümkün olub.

Futbolçu hospitala aparılaraq, vəziyyəti stabilləşdirildikdən sonra kardioloji müayinələr yerinə yetirilib: “...Hipertrofik kardiomiopatiya, sağ mədəcəyin aritmogen displaziyası, Bruqada sindromu, uzun QT sindromu kimi nisbətən nadir rast gəlinən səbəblər daha əvvəl müayinələr zamanı aşkar olunmayan səbəblərdəndir. Ona görə də ilk növbədə EKQ və EXO müayinələri aparılıb. Ürək dayanmasından sonra edilən koronar angio müayinəsi təsdiq edib ki, damarlarda tıxanma olmadığı halda ürək dayanması baş verib. Bundan sonra növbəti addımlar - qan analizləri, genetik analizlər, troponin səviyyəsinin müəyyən edilməsi və ürəyin MRT müayinəsi diaqnoz qoymağa kömək edib. MRT nəticəsində ürək əzələsinin iltihabı - miokardit aşkar olunub...”



Həkimin sözlərinə görə, miokarditin etimologiyası infeksion, toksik, revmatoloji və allergik ola bilər. Futbolçuda isə aşkar olunub ki, virus infeksiyası ürəyin iltihabı ilə nəticələnib. Virus infeksiyası kimi ilkin olaraq simtomsuz keçən COVID-19 xəstəliyi düşünülür. Miokardit ürək əzələsinin zədələnib çapıq toxuma ilə əvəz olunmasına gətirib çıxarır. Bu isə fiziki yüklənmə zamanı tez yorulma, zəiflik, sinədə ağrı kimi əlamətlərin yaranmasına, aritmiyalara, ürəyin böyüməsinə və ən ağır formada isə ölümə gətirib çıxara bilər: “...İltihaba səbəb olmuş əsas xəstəliyin müalicəsi simptomatik və kardio protektiv dərmanların təyini ilə aparılır. 6 aya qədər fiziki məşqlərə qadağa qoyulur. Kristian Eriksona isə qəfləti ölümün qabağını almaq üçün kardioverter-defibrilyator (İCD) implantasiyası məsləhət olunub. COVID-19 xəstəliyinin belə ağır fəsadlaşmalara səbəb olduğunu nəzərə alaraq, pandemiya zamanı özünü qorumaq üçün karantin qaydalarına ciddi riayət etmək, peyvənd olunmaq və COVID-19 xəstəliyi keçirmiş insanların kardioloji müayinələrdən keçməsi olduqca vacibdir”.

Yalnız bu faktdan göründüyü kimi, COVID-19 pandemiyası ona qarşı mübarizə aparılmasını deyil, ümumiyyətlə, ondan uzaq olmanın vacibliyini ortaya qoyur. Məhz bu baxımdan əldə edilən müəyyən yumşalmalardan arxayınlaşmaya lüzum yoxdur. Hər kəs ayıq-sayıqlığını itirməməli, kütləvilikdən uzaq dayanmalıdır.

Vaksinasiya prosesinə gəlincə, son günlərin məlumatları ürəkaçandır. Lakin bundan arxayınlaşmağın yenidən vəziyyətin pik həddinə qalxmasına səbəb ola biləcəyi də istisna edilmir. Mütəxəssislərin gəldiyi qənaət insanların sağlamlığının daha da möhkəmləndirilməsi deməkdir. Hələ də təəssüfedici hallara rast gəlmək olur ki, bu da insanları çaş-baş salan sosial media üzərindən yayılan dezinformasiyalardır. Lakin ÜST də öz tövsiyə və məlumatlarında dönə-dönə vurğulayır ki, koronavirusdan törənə biləcək, mənşəyi məlum olmayan digər xəstəliklərə düçar olmamaq, eləcə də normal, adi həyata qayıtmaq üçün vaksinasiya tezliklə başa çatdırılmalıdır. Ölkəmizdə vaksinasiya prosesinə qoşulanların sayının son günlər artması da diqqətdən yayınmır. Dünənə qədər vaksinasiyaya şübhəli baxan ailələr indi ərazi tibbi müəssisələrinə müraciət etmək üçün tələsir və qonşularına, yaxın-uzaq qohum-əqrabalarına da peyvəndlənmənin üstünlüklərini anlatmağa çalışırlar.

Bu gün cəmiyyətdə, el arasında belə bir fikir formalaşmaqdadır: ...tezliklə şadlıq saraylarına aparan yollar açılacaq - ”...deyirlər ki, toy olacaq...”

*Məhəmməd NƏRİMANOĞLU,*
*“Azərbaycan”*

## Bakı parkları əsl istirahət yeridir

Üzücü və qorxunc pandemiya dövründə şəhər gəzintisinə çıxmaq, bir-iki günlüyə də olsa, harasa dincəlməyə getmək üçün demək olar ki, hamı darıxıb.

Odur ki, karantin rejiminin yumşaldıcı akkordlarını yaşadığımız bu isti yay aylarında insanlar məzuniyyət və istirahət günlərini ailəliklə səmərəli keçirmək üçün Xəzərətrafı kənd və qəsəbələrə, ölkəmizin bölgələrinə, təbiətin qoynuna, sanatoriya və müalicəxanalara, xarici ölkələrə, uzaq şəhərlərə üz tuturlar. Elələri də var ki, yay istirahətlərini 44 günlük Vətən müharibəsində işğaldan azad edilmiş Qarabağ bölgəsində - öz dədə-baba yurdlarında keçirmək arzusundadır. Çox təəssüf ki, erməni terrorçuları tərəfindən minalanmış Qarabağın arzu olunan dilbər guşələrinə getmək hələlik mümkünsüzdür. Lakin 30-a dözən 31-ə də dözər, deyiblər. Bizləri məmnun edən odur ki, bu yerlərin dədə-baba sakinləri dost-tanışları qarışıq cənnətməkan yerlərə gəzməyə də gedəcəklər, həmişəlik yaşamağa da.

Hazırda Bakıda ailə qayğıları, işi və ya ildən artıq davam edən COVID-19-un tələbləri ilə əlaqədar bəzən gəzintiyə belə çıxa bilməyənlər yayın qızmar günlərini yola vermək üçün nə edirlər? İşdən sonra istirahət saatlarını, şənbə və bazar günlərini necə keçirirlər? Onu da qeyd edək ki, mövsümlə əlaqədar istər bölgələrdən, istərsə də qonşu xarici ölkələrdən Bakıya gələnlərin sayı Bakıdan gedənlərdən qat-qat çoxdur. Çünki Bakı və onun ətraf qəsəbələri gündən-günə gözəlləşir, abadlaşır, insanların sosial şəraitinin hərtərəfli təmini və istirahətlərinin mənalı keçməsi üçün lazımi infrastruktur yaradılır. Son illər Bakı və onun ətraf qəsəbələrində 50-dən çox yeni mədəniyyət və istirahət parkı salınmış, 89-u isə əsaslı təmir olunmuşdur. Prezident İlham Əliyev yeni salınan parklardan birinin açılışı zamanı demişdir: “Son illər ərzində Bakı şəhərində bir çox parklar, ictimai yerlər, istirahət guşələri yaradılmışdır. İndi Bakı parklar, bağlar şəhəridir”.

Bakı həm də yaşıllıqlar və fontanlar şəhəridir. Artıq bu parklar, bağlar, fontan və yaşıllıqlarla əhatə olunmuş istirahət guşələri Bakı sakinlərinin və qonaqların əsl istirahət məkanına çevrilmişdir. Belə parklardan biri dörd il öncə, köhnə Basin küçəsi deyilən ərazidəki yöndəmsiz və qəzalı vəziyyətdə olan evlərin yerində yaradılmış Heydər Əliyev Muzey-park kompleksidir. Bu park şəhərin mərkəzində Bakı Musiqi Akademiyasının yanından başlayaraq Heydər Əliyev adına Saray da daxil olmaqla, Milli Akademik Dram Teatrına, oradan da Sovetski deyilən əraziyə kimi uzanır.

















Günün qüruba gedən çağı hava bürkü olsa da, parka gələnlərin ardıarası kəsilmir, əksəriyyəti də hiss olunur ki, yaxınlıqdakı binalarda yaşayan sakinlərdir. Uzun müddət dövlət qulluğunda çalışmış Telman Musayev və ali kateqoriyalı həkim-uroloq Rəfail Bayramovla da burada tanış olduq. T.Musayev dedi:

- Hər il bu vaxtlar məzuniyyətimi Yesentukidə keçirirdim. Amma bu il bir həftə Gəncədə, Göygöldə, sonra Bakıda qalmalı oldum. İstilər düşəndən demək olar, hər gün səhər də, axşam da bu bağa gəlirəm. Bir çox ölkələrdə, şəhərlərdə olmuşam. Amma Bakıda salınan parklar, yaşıllıqlar, istirahət guşələri gördüklərimdən qat-qat üstündür. Bu parkda yaradılan səliqə-sahman, yarlı-yaraşıqlı dekorativ kollar, qol-budaq atmağa başlayan Gəncə çinarları, müxtəlif ölkələrdən gətirilmiş ağaclar, müasir işıqlandırma sistemi, oturacaqlar göz oxşayır. Lazım gələndə uşağa bir stəkan sərin su içirtmək, yeri gələndə bir çaynik pürrəngi çay içmək, balacaların gəzintisini daha maraqlı etmək üçün əyləncə yerləri var. Bunlar həm valideynlərin, həm də uşaqların məmnunluğuna səbəb olur.

Dostunun fikrinə sözardı kimi həkim-uroloq Rəfail Bayramov bildirdi:

- Görünən odur ki, sovetlər dönəmindən fərqli olaraq bu gün Bakıda çoxlu park, istirahət-gəzinti yerləri olduğu kimi, müasir səhiyyə ocaqları da fəaliyyət göstərir. Son vaxtlar şəhərimizdə neçə-neçə xəstəxana, poliklinika, o cümlədən pandemiya ilə əlaqədar yaradılan modul tipli xəstəxanalar istifadəyə verilib, neçəsi əsaslı təmir olunub. Bütün bunlar ilk növbədə insanların sağlamlığına dövlət qayğısıdır. Dünyanı ağuşuna alan və ölkəmizdə bir ildən artıqdır ki, davam edən COVID-19 pandemiyasından az itki ilə çıxmağımızın başlıca səbəblərindən biri də məhz budur. Buna görə biz ziyalılar Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarıq.

Rusiyada, Uzaq Şərqdə yaşayan və son 20 ildə ilk dəfə Bakıya səfər edən Mehman Həsənovla Mərdanov qardaşları ilə S.Vurğun küçələrinin yaxınlığındakı “Zabitlər parkı”nda görüşdük. Məlum oldu ki, oğlu Murad Uzaq Şərqdə orta məktəbi bitirsə də, ali məktəbi Bakıda seçib, ADA Universitetinə qəbul olub. Odur ki, bir aydan artıqdır Bakıdadır.

- Mən gənclik illərimdə Azərbaycan Tibb İnstitutunda təhsil almışam, bağın yaxınlığındakı Mərdanov qardaşları küçəsində kirayədə yaşamışam. Bura şəhərin ən köhnə parklarından biridir, alman faşizminə qarşı döyüşlərdə həlak olan əsgərlərin xatirəsinə Böyük Vətən müharibəsi illərində salınıb. Müharibədən sonra bu parka iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun adı verilib. Əsaslı yenidənqurmadan sonra “Zabitlər parkı” 2011-ci ildə yenidən açılıb. 4 hektar sahəsi olan parkın siması tamamilə dəyişib. Burada orijinal işıqlandırma sistemi, əzəmətli daş fəvvarə və bürünc heykəllər qoyulub: fikrə dalan şahmatçı öz gedişini planlaşdırır, yaxud çayxana girişində gülərüz çayçı qonaqları salamlayır. Fəvvarənin yaxınlığında, skamyaların birində yorğun bürünc fotoqraf oturub. Aralıda bir qız yoldan ötənlərə çiçək satır. Başqa bir qız isə “xana-xana” oynayır, ondan arxada bir dəstə uşaq əl-ələ verərək coşqun rəqs ritmində donub.

Mehman Həsənov bunlara işarə edərək dedi:

- Bundan öncə mən Bakının bir neçə istirahət parkında - Rixard Zorgenin adını daşıyan parkda, Dədə Qorqud bağında, Heydər Əliyev Mərkəzinin ətrafında yaradılan parkda olmuşam. Elə bil dünyanın hansısa başqa şəhərindəyəm, köhnə parkları tanıya bilmədim, təzə parklar isə lap möcüzədir. Bu, mənim 20 il əvvəl gördüyüm Bakı deyil. Burada hər şey dəyişib, yollar, binalar, parklar və xiyabanlar da. Şəhərdəki quruculuq işləri məni heyran etdi. Boş vaxtlarımı, istirahətimi bu gözəl parklarda və gəzinti yerlərində keçirirəm. Çoxlu şəkillər və videoçəkiliş etmişəm, aparıb orada həmyerlilərimizə göstərəcəyəm. Xabarovskda, Ussuriyada məni tanıyanların çoxuna istirahətə və ya turist gəzintisinə Bakıya gəlmələrini məsləhət görəcəm.

Mehman müəllimin ailə üzvləri - həyat yoldaşı Xanım, qızı Zərifə, oğlanları Əhməd və yenicə tələbə adı qazanmış Murad da Bakının müxtəlif yerlərindən, Dənizkənarı bulvardan, Hərbi Qənmətlər Parkından, İçərişəhərdən, köhnə “Sovetski” ərazisində aparılan abadlıq və quruculuq işlərindən heyranlıqla danışdılar. Bildirdilər ki, yenə də istirahətə Bakıya gələcəklər.

Bakının ətraf qəsəbələrində də bu mənzərənin şahidi olmaq mümkündür. Binəqədi rayonunun Biləcəri qəsəbəsindəki mədəniyyət-istirahət parkı buna bariz nümunədir.

Binəqədi rayonunun Biləcəri qəsəbəsindəki mədəniyyət-istirahət parkı əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilib. Prezident İlham Əliyevin Bakıətrafı kənd və qəsəbələrdə abadlıq və quruculuq işlərinə dair verdiyi tapşırıqların icrası ilə əlaqədar yenidən qurulan bu parkda yerli arxitektura elementlərini özündə əks etdirən Mədəniyyət Mərkəzinin binası təzədən tikilib. Sovetlər dönəmində Dəmiryolçular parkı kimi tanınan bu bağ da sakinlərin rahat istirahəti üçün lazımi avadanlıqlarla təchiz edilib. Parka axşamçağı gələnlər daha çox olur. Gəzinti iştirakçılarından qızı Elnarə, bacısı Şəfiqə, nəvəsi Yusif, habelə bir neçə qonşusu ilə parka dincəlməyə gələn Biləcəri dəmir yolu deposunun sabiq işçisi Raya Əsgərova və qardaşı Aydınla həmsöhbət olduq. Aydın Əsgərov dedi:

- Pensiyaçıyam, nəvələrim, bacılarım və qonşularımla demək olar ki, hər gün bu parkda təxminən iki saatlıq axşam gəzintisində oluruq. Mən uşaqlıqdan Biləcəridə yaşamışam, dəmiryolçu ailəsində böyümüşəm, atam gəncliyindən, hətta 1941-1945-ci illər Böyük Vətən müharibəsi illərində maşinist-sürücü işləyib, yaxşı işinə görə dəfələrlə orden və medallara layiq görülüb, Bakının fəxri dəmiryolçularından biri olub. Elə parkın yaxınlığındakı dəmiryolçular binasında yaşayırıq. Həyətimizin sakinləri, xüsusilə vaxtilə dəmir yolu sistemində çalışmış insanların ailələri bu parkı öz həyətləri, öz bağ yerləri bilirlər. Qonşularımdan eləsi var ki, oğlunun, ya qızının dənizqırağı ərazilərdə bağ yeri var, inanırsız, uşaqları nə qədər cəhd etsələr də, onların çoxu istirahət üçün bu parkı seçirlər. Qollu-budaqlı ağacların kölgəsi, rahat oturacaqlar, sakitlik, hər yan gül-çiçək, havası da yüngül və təmiz. Bir azdan müasir işıqlandırma sistemi parkın gecəsini gündüzə çevirəcək.

Sağ olsun dövlətimizin başçısı, onun tapşırığı ilə bu park başdan-başa yenidən qurulub, gözəl, rahat şərait yaradılıb. Bu gün Biləcəri qəsəbəsində 80 minə yaxın əhali yaşayır ki, onların da qəsəbədə gedəcəkləri yeganə istirahət yeri buradır. Ərazisi 4 hektar olan bu istirahət məkanında gördüyünüz kimi, geniş abadlıq-quruculuq işləri yüksək zövqlə həyata keçirilib. Burada 20 min kvadratmetrlik ərazidə yerli şəraitə uyğun müxtəlif ağac və gül kolları əkilib. Yaşıllaşdırılan yerlərdə avtomatik suvarma sistemi və fəvvarə quraşdırılıb, idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün süni örtüklü meydança yaradılıb.

Aydın müəllim, bacısı Raya xanım və qonşuları “Bakı parkları əsl istirahət yeridir, buranı qoyub uzaq şəhərlərə nə gəzməyə, nə də istirahətə getməyə dəyməz” dedilər.

*Rəhman SALMANLI,*
*İlham BABAYEV (foto),*
*“Azərbaycan”*

Futbol üzrə XVI Avropa çempionatı





Əvvəli 1-ci səh.

# İngilis soyuqqanlılığı alman "maşını"na qalib gəldi

1998-ci ildə isə İsrailin "Orad" şirkəti "Virtual Replay" proqramı sayəsində topun qapı xəttini keçdiyini təsdiqləmişdi.

Budəfəki qarşılaşmaya da maraq kifayət qədər böyük idi. Düzdür, ilk hissədə mübarizə meydançanın daha çox mərkəzində getsə də, ingilislərin qurduqları hücumlar daha kəsərli idi. Oyunun əvvəlindən üstünlüyü ələ keçirən İngiltərə yığması meydançanın rəqibə aid hissəsində pressinq tətbiq edərək almanların oyun qurmasına mane olurdu. Bununla da, Almaniyanın yarımmüdafiəçisi Toni Kroosla hücum xəttində yer alan oyunçuların bağlantısı kəsilirdi. Lövün komandası yalnız yaranan əks-hücumlarda müdafiənin arxasına atılan toplarla qol epizodu yaratmağa çalışırdı.

Onu da vurğulayaq ki, İngiltərənin hücumçusu Heri Keyn topsuz oyunlarda daha fəal idi. Onun hücum xəttində hərəkətli olması almanlara müdafiə olunmaqda problemlər yaşadırdı. Belə ki, mərkəz müdafiəçilərin davamlı olaraq irəli çıxmaları arxada boşluqlar yaradırdı. Bu boş zonalardan isə Sterlinq faydalanırdı. Lakin qapıçı Noerin inamlı çıxışı almanların qol buraxmasına mane olurdu.

Fasilədən sonra İngiltərə millisinin ardıcıl qurduğu hücumlar öz nəticəsini verdi. 75-ci dəqiqədə Sterlinq vurduğu qolla görüşdə hesabı açdı. Qoldan sonra ötürmələrə üstünlük verən ingilislər oyunun tempini istədikləri kimi apardılar. Görüşün qalan dəqiqələrində Almaniya millisində Müllerin əks-hücum zamanı qol vurmaq üçün şansı olsa da, ondan yararlana bilmədi. Əvəzində cinahlardan daha çox hücumlara üstünlük verən ingilislər 86-cı dəqiqədə Keynin vurduğu qolla hesab arasındakı fərqi 2 topa çatdırdılar. Elə bu qol da qarşılaşmada sonuncu oldu.

Beləliklə, 2:0 hesabı ilə qalib gələn İngiltərə yığması dörddəbir finalda iyulun 3-də Romada Ukrayna ilə üz-üzə gələcək.



# 120 dəqiqəlik oyunun taleyi son saniyədə həll olundu

## 1/8 final mərhələsi

**1/8 final mərhələsinin son matçı İsveç və Ukrayna yığmaları arasında keçirildi. Qarşılaşmada həyəcan, gərgin mübarizə - nə desəniz var idi. İsveçlilər meydançaya 4-4-2, ukraynalılar isə 4-3-3 taktiki sxemi ilə düzülmüşdülər.**

**İsveç - Ukrayna - 1:2**
**Qollar:** Zinçenko, 27 (0:1), Forsberq, 43 (1:1), Dovbik, 120+1 (1:2)
**Qırmızı vərəqə:** Danielson, 99 (İsveç)
**Baş hakim:** Daniele Orsato (İtaliya)
Qlazqo. "Hempden Park" stadionu

Matça Ukrayna seçməsi daha sürətli başladı. Ukraynalılar İsveçin itirdiyi hər topdan sonra sürətli hücuma keçməyi bacarırdılar. İlk 10 dəqiqədən sonra İsveçin meydançanın mərkəzində pressinq tətbiq etməsi Şevçenkonun komandasına boş zona buraxmırdı. Yekunda itirilən hər top İsveç və Ukrayna yığmalarının qapısı qarşısında qol epizodları ilə yadda qalırdı. Belə epizodlardan birində Zinçenko 27-ci dəqiqədə vurduğu mükəmməl zərbə ilə görüşdə hesabı açdı.

Qoldan sonra İsveç millisinin baş məşqçisi oyun planında dəyişikliyə getdi - müdafiədən oyun qurmaq yerinə uzun ötürmələrlə meydançanın rəqibə aid hissəsində cinahlardan hücuma keçid taktikası seçdi. Eyni zamanda itirilən hər topun tez bir zamanda qaytarılması ukraynalıların hücum kəsərini zəiflətdi. Nəticədə Forsberq uzaqdan vurduğu qolla hesabda tarazlığı bərpa etdi.

Fasilədən sonra Ukrayna millisində fiziki yorğunluq hiss olunmağa başladı. Elə buna görə idi ki, hər itirilən topdan sonra boş zonalarda çoxala bilmirdilər. Nəticədə fiziki cəhətdən daha hazırlıqlı görünən İsveç futbolçuları bir neçə real qol epizodu yaratdılar.

Görüşün əsas vaxtı heç-heçə başa çatdığından 30 dəqiqə əlavə vaxt təyin olundu. Hər kəs qarşılaşmanın penaltilərə gedəcəyini gözlədiyi bir vaxtda sol cinahdan ötürülən topu Dovbik baş zərbəsi ilə qapıya göndərərək Ukraynanı hesabda irəli çıxardı - 2:1.

Beləliklə, İsveçin üstünlüyü şəraitində keçən matçın son saniyəsində vurulan qol sayəsində qələbə qazanan Ukrayna yığması 1/4 finala yüksəldi.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*



# Danimarkadan Bakıya gələcək azarkeşlərin sayı açıqlandı

**Danimarka millisinin "Avro-2020"nin 1/4 finalında Bakıda Çexiya ilə keçirəcəyi oyun üçün paytaxtımıza gələcək azarkeşlərinin sayı müəyyənləşib. Danimarka Futbol İttifaqı (DBU) Bakı Olimpiya Stadionundakı qarşılaşmaya 800 fanatın yollanacağını açıqlayıb.**

DBU-nun koordinatoru Anders Hagen bu sayın artacağını da istisna etməyib. Federasiya rəsmisi qarşılaşmaya böyük marağın olduğunu söyləyib. Biletlərin satışı isə iyunun 28-dən başlayıb.

Qeyd edək ki, iyulun 3-də Bakı Olimpiya Stadionunda keçiriləcək Çexiya - Danimarka oyunu saat 20:00-da start götürəcək. UEFA hər iki komandanın azarkeşlərinə 2500 bilet satılacağını açıqlayıb.



# Çakırdan yeni rekord

**Türkiyə Futbol Federasiyasının hakimi Cüneyt Çakır Avropa çempionatları tarixində yeni rekorda imza atıb. O, buna "Avro-2020"nin 1/8 finalında idarə etdiyi İspaniya - Xorvatiya oyunundan (5:3) sonra nail olub. Bununla 44 yaşlı referinin Avropa çempionatlarının final mərhələsində baş hakim olduğu matçların sayı 9-a çatıb.**

C.Çakır Avropa çempionatlarının final mərhələsində ən çox oyun idarə edən hakim olub. O, isveçli Anders Friski (8 oyun) geridə qoyub. Həmçinin Çakırın 56-sı milli komanda səviyyəli turnirlərdə olmaqla beynəlxalq yarışlarda idarə etdiyi qarşılaşmaların sayı 200-ə yüksəlib.

C.Çakır "Avro-2012", "Avro-2016" və "Avro-2020" yarışlarının hər birində 3 qarşılaşmada baş hakim olub.



# "Ukraynanın sevgisini qazandıq"

**Ukrayna millisinin baş məşqçisi Andrey Şevçenko "Avro-2020"nin 1/8 finalında İsveçə qalib gələrək növbəti mərhələyə adladıqları matç haqqında danışıb.**

Təcrübəli mütəxəssis deyib: "Oyundan əvvəl yarımmüdafiə xəttini bir az möhkəmlətməyə qərar verdik. Yarımmüdafiəçilərdən çox işləmələrini xahiş etdik. Oyuna nəzarət etməyə çalışdıq, amma bu, həmişə işə yaramadı. Lakin komanda mənim təlimatlarıma tamamilə əməl etdi. Tələsmirdik, topu cinahdan-cinaha ötürürdük, buna görə ilk qolu biz vurduq. Rəqib çox yaxşı çıxış etdi. Maraqlı futbol oynanıldı. Heç kim uduzmaq istəmirdi, ona görə də belə bir dramatik matç keçdi".

Şevçenko azarkeşlərə, komandaya və bu qələbəyə görə zəng vuraraq onları təbrik edən ölkə Prezidenti Volodimir Zelenskiyə təşəkkür etməyi də unutmayıb: "Bizi dəstəkləməyə gələn hər kəsə minnətdaram. Ailəm və övladlarım da gəlmişdi. Bu nəticəni əldə etməyi çox istəyirdim. Komandama da sərf etdikləri enerjiyə, göstərdikləri qəhrəmanlığa görə təşəkkür edirəm. Prezidentimizə də minnətdaram. Bizə zəng etdi və dəstək oldu. Bilirik ki, onlar bizim üçün çalışırlar. Komandamız öz oyunu və fədakarlığı ilə bütün Ukraynanın sevgisini qazandı".

Çalışdırıcı 1/4 finaldakı rəqibləri İngiltərə millisini də dəyərləndirib: "Çətin bir matç olacaq. Kiminlə qarşılaşacağımızı bilirik. Qalib gəlmək üçün hazırlaşmağa vaxt var. Romaya uçub hazırlığa başlayacağıq".

# Çexiyalı futbolçu Bakıda qələbə qazanacaqlarına inanır

**Çexiya millisinin futbolçusu Antonin Barak "Avro-2020"nin 1/4 finalında Bakıda Danimarka ilə keçirəcəkləri matç haqqında danışıb. 27 yaşlı yarımmüdafiəçi Çexiya Futbol Federasiyasının rəsmi saytına müsahibəsində deyib:**

"Belə oyunlarda azarkeş bazası vacibdir və bu baxımdan 1/4 finalın Bakıda keçirilməsinə görə təəssüflənirik. Çünki azarkeşləri və ailələrimizi oraya gətirməyəcəyik. Matç Kopenhagendə oynanılsaydı, Danimarka torpağında olsa belə, yenə də bəzi azarkeşləri və sevdiklərimizi oraya gətirə bilərdik. Bununla hər şey tamamilə fərqli olardı".



2017-ci ildə dünya çempionatının seçmə mərhələsində Bakıya səfərini xatırlayan Barak hazırkı şərtlərin həmin vaxtla eyni olmadığını deyib: "Dünya çempionatının seçmə mərhələsində Karel Yarolimin baş məşqçiliyi altında oynayanda Bakıda idim. Səfər uzun müddət çəkdi, fərqli şərtlər var idi. Amma bu, Avropa çempionatıdır, özü də 1/4 final. İndi hər matç bizim üçün sonuncu ola bilər. Rəqib üçün də eyni olacaq. Çıxılmaz vəziyyətdə olduğumuzu düşünə bilmərik. Hər iki komanda üçün eyni şərtlər olacaq və bacardığımız qədər oyuna yaxşı hazırlaşmalıyıq".

# "Bu, futboldakı ən acı təcrübəmdir"

**İsveç millisinin baş məşqçisi Yanne Anderson "Avro-2020"nin 1/8 finalında Ukraynaya uduzaraq mübarizəni dayandırdıqları matç haqqında danışıb.**

59 yaşlı mütəxəssis deyib: "Olduqca yaxşı bir oyun keçirdik. İkinci hissədə oyuna nəzarət edə bildik. Ancaq sonradan oyun əlavə vaxta getdi və bu zaman müdafiə olunduq. Bu, bəlkə də futboldakı ən acı təcrübəmdir. Hamı məğlubiyyətə görə əsəbiləşdi. Paltardəyişmə otağında isə sükut var idi. Hamı sadəcə susurdu. Deyiləcək bir şey yox idi. İndi bizə heç nə kömək edə bilməz.

Bu gecə ölkəmizə getməliyik. Birdən-birə hər şey başa çatdı, birlikdə qurduğumuz gözəl olan hər şey. Böyük nəticə əldə etməyə yaxın idik. Ancaq başımızı dik tutub irəli baxacağıq. Çünki İsveç millisi 2004-cü ildən bəri qrupdan çıxmamışdı. Biz isə bunu bacardıq".



# Kroos millidə karyerasını başa vurur

**Toni Kroos Almaniya millisində karyersını başa vurmağa hazırlaşır.**

Bu haqda "Bild" nəşri məlumat yayıb. 31 yaşlı yarımmüdafiəçinin bu qərarını yaxın vaxtlarda açıqlayacağı bildirilib.

Qeyd edək ki, Almaniya millisi "Avro-2020"nin 1/8 finalında İngiltərəyə uduzaraq (0:2) mübarizəni erkən dayandırıb. Toni Kroos millidə 2010-cu ildən oynayır. O, həmin il dünya üçüncüsü, 2014-cü ildə isə dünya çempionu olub.

# İyun ayı üçün elektrik enerjisinin tələbatı rekord həddə çatıb

**“29 iyun - Ölkənin elektrik enerjisi tarixində tələbat rekordunu vurdu”**

**“Azərişıq” ASC-nin xidmət göstərdiyi ərazilərdə elektrik enerjisinə tələbatda rekord göstərici qeydə alınıb**

**Elektrik enerjisinə olan tələbatın iyun ayı üzrə müqayisəli dinamikası**







“Azərişıq” ASC-nin Mətbuat xidmətindən verilən məlumata əsasən xidmət göstərilən ərazilər üzrə iyun ayı üçün elektrik enerjisinə tələbatda rekord göstərici qeydə alınmışdır. Belə ki, iyun ayının 21-dən etibarən havanın temperaturunun mövsüm normasından yuxarı olması səbəbindən soyutma və havalandırma avadanlıqlarının istifadəsinə tələbat yüksəlib. Bu da təbii olaraq elektrik enerjisi istehlakının artmasına səbəb olmuşdur. İyun ayının 21-26-sı aralığında enerji göstəricisinə tələbat 2020-ci il ilin müvafiq dövrü ilə müqayisədə gündəlik 6,2 milyon kVts artmışdır. İyun ayının 27-si 16,4 milyon, 28-i 20,4 milyon, 29-u isə 18,2 milyon kVts olmaqla son 3 gündə 55,0 milyon kVts elektrik enerjisinin istehlakında artım qeydə alınmışdır. Bununla da iyun ayının 29-u elektrik enerjisinin günlük tələbatı “Azərişıq” ASC üzrə 66,4 milyon kVts qeydə alınmışdır ki, bu da elektroenergetika tarixində rekord göstərici olmuşdur. İyun ayında isə ümumi artım keçən ilin müvafiq dövrü ilə müqayisədə 106 milyon kVts olması gözlənilir.

“Azərişıq” ASC tərəfindən abonentlərə xəbərdarlıq edilir ki, soyutma və havalandırma avadanlıqlarından fasiləsiz istifadə enerji artımına səbəb olur ki, bu da istifadə edilən elektrik enerjisinin dəyərini artırır. İstifadə edilən elektrik enerjisinin dəyərinin artması növbəti hesabat ayında təqdim olunan bildirişlərdə öz əksini tapacaqdır. Abonentlərimizdən bir daha xahiş olunur ki, elektrik enerjisindən istifadədə təhlükəsizlik qaydalarına riayət etsinlər. Həmçinin hər bir abonent sahə personalına müraciət etməklə sayğac göstəricilərinin qeydiyyata alınmasında şəxsən iştirak edə bilər.

Oxunma qrafiklərindən kənarlaşmaların aradan qaldırılması, indeks göstəricilərinin sistemə daxil edilməsində insan faktorunun və xətanın 0-a endirilməsi eyni zamanda hesabat dövrünün qüsursuz icra edilməsi üçün “Azərişıq” ASC-də yeni layihələrdən biri olan, sayğacların optik göz vasitəsilə oxunması işi reallaşdırılır. Sayğac göstəricilərinin birbaşa sistemə ötürülməsi insan faktoru olmadan həyata keçirilir.

İstehlakçılarımız tərəfindən elektrik enerjisinin istifadəsinə dair şikayət olduğu təqdirdə “Azərişıq”ASC-yə məxsus info@azerishiq.az elektron poçt ünvanına və ya “199” Çağrı Mərkəzinə müraciət etmələri tövsiyə olunur.

# Beynəlxalq aləm

## Kanadada bir ay ərzində 1148 uşaq cəsədi aşkar edilib



Kanadada son ay ərzində yerli əhali üçün yaradılmış keçmiş internat məktəbləri ərazisində yerləşən adsız məzarlıqlarda 1148 uşaq cəsədi aşkar edilmişdir. Daha 182 cəsəd Britaniya Kolumbiyası əyalətində Müqəddəs Yucin keçmiş katolik missiyası internat məktəbi ərazisində tapılmışdır.

Bu barədə TASS agentliyi xəbər verir. Məlumata görə, ötən həftə ölkənin qərbində yerləşən Saskaçevan əyalətində hinduların uşaqları üçün yaradılmış keçmiş kilsə internat məktəbi ərazisində yüzlərlə adsız məzarlıqlar aşkar olunmuşdur. Məzarlıqlarda 751 uşağın cəsədi tapılmışdır. Kanadanın Baş naziri Castin Trüdo aşkar edilmiş məzarlıqları “Kanada tarixində ən pis səhifələrdən biri adlandırmışdır”.

Kanada hökuməti adından 1840-cı ildə katolik kilsəsi tərəfindən ilk internat məktəbləri açılmışdır. Sonuncu məktəblər 1997-ci ildə qapanmışdır. Həmin məktəblər yerli xalqların 150 mindən çox uşağının zorla öz ailələrindən alınaraq saxlandığı yerlər kimi tarixə düşmüşdür.

Güman edilir ki, uşaqların əksəriyyəti qəddar davranışa, seksual və fiziki zorakılığa, habelə aclığa və soyuğa məruz qalmışdır. Bəzilərinin üzərində tibbi eksperimentlər keçirilmişdir.

2008-ci ildə Kanadada kilsə internat məktəblərində bu cür insidentlərin təhqiqi üzrə komissiya yaradılmışdır. Təhqiqatın yekununa görə 2015-ci ildə Kanada hökuməti həmin məktəblərin fəaliyyətini “mədəni soyqırımı” kimi tanımışdır.

## Suriya həbsxanalarında yüzlərlə uşaq saxlanılır

Suriyanın şimal-şərqində YPG/PKK terrorçu təşkilatının nəzarətində olan ərazilərdəki həbsxanalarda yüzlərlə uşaq saxlanılır. Bu barədə Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) Yaxın və Orta Şərq üzrə regional proqramlarının direktoru Fabrisio Karboni məlumat vermişdir.

Onun dediyinə görə, son onillikdə suriyalılar çox böyük itkilər vermişlər. Bu böyükmiqyaslı faciə fonunda ən mürəkkəb böhranlardan biri dərinləşir. On minlərlə uşaq düşərgələrdə saxlanılır, həddi-büluğa çatmamış yüzlərlə oğlan uşağı isə həbsxanalara salınıb. Onların bəzilərinin 12 yaşı var.

Karboni qeyd etmişdir ki, BQXK öz missiyası çərçivəsində dünyanın bir çox ölkələrində münaqişə zonalarında olmuşdur. Lakin Suriyanın şimal-şərqindəki Əl-Hol şəhərində yerləşən düşərgəyə hər bir səfər “onun üçün xüsusilə əzablı” olmuşdur.

Əl-Hol şəhəri də YPG/PKK terrorçularının nəzarətindədir. Eyniadlı düşərgədə 60 minə yaxın adam saxlanılır. Onların əksəriyyəti qadınlar və uşaqlardır.

Karboninin dediyinə görə, düşərgədəki saxlanma şəraiti dözülməzdir və belə şərait həm uşaqların, həm də böyüklərin həyatı və sağlamlığı üçün təhlükə yaradır.

## Kabil bütün siyasi qüvvələri barışığa çağırır



Əfqanıstan Ali Milli Barışıq Şurasının sədri Abdulla Abdulla ölkənin siyasi qüvvələrini birgə hərəkətə çağırmışdır. Onun dediyinə görə, əcnəbi kontingentin ölkədən çıxarılması ilə zorakılıq artır.

Eyni zamanda Abdulla “Taliban” hərəkatı tərəfindən hücumların sayının artmasına diqqəti yönəltmişdir. O demişdir: “Taliblər sülh danışıqları aparmaq əvəzinə zorakılıq səviyyəsini yüksəltməyi üstün tutmuşlar. Əfqan xalqı əvvəllər də taliblərin sülh təşəbbüslərinə şübhə ilə yanaşırdı. İndi isə zorakılığın artması fonunda bu şübhələr daha da güclənmişdir. Əfqanıstan hökuməti yaranmış vəziyyətdən çox rahatsızdır. Ölkədə baş verənlərə biganə qalmaq mümkün deyil”. Şura sədrinin fikrincə, hər iki tərəf sülhə iradəsini nümayiş etdirməlidir.

## Türkiyədə koronavirusa qarşı vaksinin üçüncü dozuna icazə verildi



Türkiyədə 50 yaşdan yuxarı şəxslər, habelə tibbi personal yeni tip koronavirusa qarşı peyvəndin üçüncü dozunu vurdura bilər. Bu barədə səhiyyə naziri Fəxrəddin Qoca məlumat vermişdir.

Nazirin dediyinə görə, əlavə vaksin vurdurmaq istəyənlər bütün ölkə üzrə qəbula yazıla bilərlər. Qoca qeyd etmişdir ki, peyvənd üçün vaksini pasiyent özü seçə bilər.

Nazir bir daha COVID-19-a qarşı kollektiv immunitetə nail olunması üçün peyvəndlənmənin vacibliyini xatırlatmışdır.

## Oreqonda isti 63 nəfərin həyatına son qoyub



ABŞ-ın Oreqon ştatında rekord istiyə görə azı 63 nəfər həlak olmuşdur. Bu barədə yerli “Oregonian” qəzeti xəbər verir.

Məlumata görə, ştatın ən iri şəhəri Portlendin də daxil olduğu Maltnoma dairəsi sərhədində 44-97 yaşlı 45 nəfər günvurmadan dünyasını dəyişmişdir. Halbuki 2017-2019-cu illərdə ştatın bütün ərazisində bu səbəbdən cəmi 12 ölüm halı qeydə alınmışdı.

Bildirilir ki, dünən ştatda havanın temperaturu 46,7 dərəcədən yüksək olmuşdur.

# Rövşən Əkbərovun barəsində cinayət işi üzrə Baş Prokurorluq tərəfindən aparılan istintaq yekunlaşdırılıb

Rövşən Əkbərovun barəsində cinayət işi üzrə Baş Prokurorluq tərəfindən aparılan istintaq yekunlaşdırılıb.

Əvvəllər xəbər verildiyi kimi, aparılmış istintaqla Rövşən Əkbərovun 2001-ci il mayın 31-dən iyunun 1-nə keçən gecə Kiyev şəhəri Deqtyaryov küçəsi, 7 ünvanında yerləşən “Sikora” kafesində yeyib-içdikdən sonra saat 04 radələrində həmin kafenin yaxınlığında Elçin Əliyev ilə aralarında yaranmış cüzi münaqişə səbəbindən xuliqanlıq niyyəti ilə sonuncunun ürək nahiyəsinə kəsici-deşici predmetlə xəsarət yetirərək Elçin Əliyevi qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən olunub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Rövşən Əkbərova Cinayət Məcəlləsinin 12.1, 120.2.2 (qəsdən adam öldürmə) və 12.1, 221.3-cü (xuliqanlıq) maddələri ilə ittiham elan edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib.

# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

## 2021-ci il üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyun 2021-ci il tarixli 356 s nömrəli sərəncamı ilə təsdiq edilmiş plana əsasən aşağıdakı ixtisaslara doktorant və dissertant hazırlığı üzrə QƏBUL ELAN EDİR

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | Elmlər doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən: əyani | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən: qiyabi | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən: əyani | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən: qiyabi | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| **Azərbaycan Dövlət Pedaqoji Universiteti** | | | | | | | | | |
| 1211.01 | Diferensial tənliklər | 1 | 1 | | | | | | |
| 2211.01 | Bərk cisim mexanikası | | | | | | | | 1 |
| 2220.01 | Yarımkeçiricilər fizikası | 1 | 1 | | | | | | |
| 2301.01 | Analitik kimya | | | | 1 | | | | |
| 2306.01 | Üzvikimya | | | | 1 | | | | |
| 2411.01 | İnsan və heyvan fiziologiyası | 1 | | 1 | | | | | |
| 2417.01 | Botanika | 1 | | 1 | | | | | |
| 5408.01 | Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası | 1 | | 1 | | | | | |
| 5503.02 | Vətən tarixi | 1 | 1 | | | | | | |
| 5706.01 | Azərbaycan dili | 1 | | 1 | | | | | |
| 5710.01 | Türk dilləri | 1 | 1 | | | | | | |
| 5714.01 | Müqayisəli tarixi və müqayisəli tipoloji dilçilik | 1 | 1 | | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | 1 | | 1 | | | | |
| 5801.01 | Azərbaycan dilinin tədrisi metodikası | | | | 1 | | | | 1 |
| 5801.01 | İngilis dilinin tədrisi metodikası | | | | | | | | 1 |
| 5801.01 | Biologiyanın tədrisi metodikası | | | | | | | | 1 |
| 5801.01 | Riyaziyyatın tədrisi metodikası | | | | 1 | | | | 1 |
| 5801.01 | Ədəbiyyatın tədrisi metodikası | | | | 1 | | | | |
| 5801.01 | Coğrafiyanın tədrisi metodikası | 1 | 1 | | | | | | |
| 5801.01 | İnformatikanın tədrisi metodikası | 1 | 1 | | | | | | 1 |
| 5801.01 | Musiqinin tədrisi metodikası | 1 | 1 | | | | | | |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | 1 | | 1 | | | | | 1 |
| 5803.01 | Müəllim hazırlığı və fəaliyyəti | 1 | 1 | | | | | | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 2 | 1 | 1 | | | | | |
| 6104,01 | Pedaqoji psixologiya | 1 | | 1 | | | | | |
| 6107.01 | Ümumi psixologiya | 1 | 1 | | 1 | | | | |
| | **Cəmi:** | 19 | 12 | 7 | 7 | | | | 7 |

**QEYD:** *Doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TİMS) vasitəsilə elektron qaydada həyata keçiriləcək. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsil müəssisələrinin tələbə qəbulu və qeydiyyatı” xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər. Sənəd qəbulu üçün son tarix: 15 iyul 2021-ci il; Fəlsəfə fənni üzrə imtahan 1, 2, 3 sentyabr 2021-ci il; İxtisas imtahanının keçirilməsi 9, 10 sentyabr 2021-ci il.*

# Azərbaycan İnvestisiya Holdinqi təkliflər sorğusu elan edir

Azərbaycan İnvestisiya Holdinqi proqram təminatları və SSL sertifikatlarının satın alınması məqsədilə təkliflər sorğusu elan edir.

Təkliflər sorğusunda proqram təminatları və SSL sertifikatlarının hazırlanması və tətbiq olunması sahəsində ixtisaslaşan peşəkar rezident və qeyri-rezident mikro, kiçik və orta sahibkarlıq subyektləri, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilərlər.

Təkliflər sorğusunda iştirak etmək istəyənlər 200 (iki yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Azərbaycan prospekti 6, ünvanından (telefon: 012 599-87-80, daxili nömrə: 2008, otaq № 311) əldə edə bilərlər.

**Emitent**
**“Kapital Bank” ASC Mərkəz filialı**
**Bank kodu: 200026**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK: AIIBAZ2X**
**Alan**
**Azərbaycan İnvestisiya Holdinqi**
**VÖEN: 1702893761**
**H/H - AZ13AIIB38060019440818786102**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar təkliflər sorğusunda iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;*
- *təklif (qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 bank günü təşkil etməlidir);*
- *təklif dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin və onlara edilmiş əlavə və düzəlişlərin müvafiq qaydada təsdiqlənmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
- *təkliflər sorğusuna dair təklifi və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının son 3 (üç) il ərzində oxşar müqavilələr üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *digər sənədlər (təkliflər sorğusunun Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).*

İddiaçılar konsorsium yaratmaqla təkliflər sorğusunda iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

Təkliflər sorğusunun predmeti üzrə proqram təminatları və SSL sertifikatlarının (6 adda, 105 ədəd) satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 1 (bir) gün müddətində Bakı şəhəri, Səbail rayonu, Azərbaycan prospekti, 6 ünvanına təqdim olunmalıdır.

Təkliflər sorğusu üzrə təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- təqdim ediləcək malların dəyəri;
- malların çatdırılması müddəti.

İddiaçılar təkliflər sorğusuna dair təkliflərini qapalı, möhürlənib imzalanmış ikiqat zərflərdə iki nüsxədə (üzərində “əsli” və “surəti” yazılmış) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin əsli və surəti arasında fərqlər olduqda üstünlük üzərində “əsli” sözü yazılmış nüsxəyə veriləcəkdir.

Azərbaycan Respublikasından olan iddiaçıların təkliflər sorğusu üzrə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə **16 iyul 2021-ci il saat 17:00-dək** Bakı şəhəri, Azərbaycan prospekti, 6 ünvanına (əlaqələndirici şəxs - Babək Amaşov, telefon: 012 599-87-80, daxili nömrə: 2008. babek.amashov@aih.az) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **19 iyul 2021-ci il saat 11:00-da** Bakı şəhəri, Azərbaycan prospekti, 6 ünvanında (otaq: 209) açılacaqdır.

***Tender komissiyası***

# *Baş Prokurorluq:* “Gürcüstandan Azərbaycana bir nəfər ekstradisiya edilib”

Azərbaycan Respublikasının Baş Prokurorluğu milli qanunvericiliyin və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, o cümlədən “Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında” Minsk Konvensiyasının tələblərinə əsasən Gürcüstan Baş Prokurorluğu ilə ikitərəfli münasibətlər çərçivəsində, Azərbaycan ərazisində cinayət törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilməsindən ötrü respublikamıza ekstradisiya olunması barədə sorğu edilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Səbail Rayon Polis İdarəsinin İstintaq şöbəsinin icraatında olan cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilmiş Səlimov Elşad Tofiq oğlunun ayrı-ayrı şəxslərin etibarından sui-istifadə etmə yolu ilə özgə əmlakını ələ keçirərək dələduzluq etməsinə əsaslı şübhələr müəyyən olunub.




Elşad Səlimov barəsində beynəlxalq axtarış elan edilib.

Axtarışda olan şəxsin Gürcüstan ərazisində yerinin müəyyənləşdirilməsi əsası ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun Gürcüstan Baş Prokurorluğuna sorğusu təmin edilib və Elşad Səlimov Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə ölkəmizə ekstradisiya olunub.

# B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 04 iyun 2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə Çəp tipli işıqlandırıcı çıraq və ehtiyat hissələrinin satın alınmasına dair açıq tender (Elektron) üsulu ilə müsabiqə keçirilmiş və **"ERG BAKU" MMC** qalib elan olunmuşdur.

Qalib ilə ƏDV daxil 633896.00 manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 07 iyun 2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə "Bakı Metropoliteni" QSC üçün idxal-ixrac əməliyyatlarında gömrük sənədlərinin rəsmiləşdirilməsi üzrə broker xidmətlərinin satın alınmasına dair açıq tender (Elektron) üsulu ilə müsabiqə keçirilmiş və **"CJ ICM FZCO"** şirkətinin Azərbaycan Respublikasındakı filialı qalib elan olunmuşdur.

Qalib ilə ƏDV daxil 91214.00 (doxsan bir min iki yüz on dörd manat 00 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 11 iyun 2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə "Bakı Metropoliteni" QSC-nin "Elmlər Akademiyası" stansiyasının inzibati binasının 5-ci mərtəbəsində pəncərələrin hazırlanıb quraşdırılması işlərinin satın alınmasına dair açıq tender (Elektron) üsulu ilə müsabiqə keçirilmiş və "Nimex" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə ƏDV daxil 53 553,12 (əlli üç min beş yüz əlli üç manat 12 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Abşeron Rayon İcra Hakimiyyəti açıq tender elan edir

**LOT 1. Abşeron rayonu, Xırdalan şəhəri ərazisində yolların təmiri işlərinin satın alınması.**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 50-1.1-ci maddəsinə əsasən açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən müsabiqədə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

İştirak haqqının ödənilməsi yalnız **"ASAN ödəniş"** vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək istəyənlər müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə LOT üzrə **250 (iki yüz əlli) manat məbləğində iştirak haqqını** ödəyərək Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**Satınalan təşkilat: Abşeron Rayon İcra Hakimiyyəti**
**H/h: AZ46CTRE00000000000002516831**
**VÖEN: 3100056421**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**S.W.İ.F.T : CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi: Abşeron Rayon İcra Hakimiyyəti Başçısı Aparatının baş məsləhətçisi - Əliyev Fariz Murad oğlu.

Telefon: 012 342 1116, 050 332 47 77, elektron poçt: fariz.eliyev.58@mail.ru

Ünvan: Xırdalan şəhəri, M.Ə.Rəsulzadə küçəsi, 7.

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə təsdiqedici sənəd.
3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri (iddiaçıların hüquqi sənədlərinin surəti notarial qaydada təsdiqli olmalıdır).
4. Tender təklifi (Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).
5. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).
6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətinin dayandırıldığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməlidir. 01 iyul 2021-ci il tarixdən sonrakı tarixdə alınmış arayış olması mütləqdir).
7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.
8. İddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektinə aid edilməsi barədə müvafiq dövlət orqanından arayış.
9. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməlidir. 01 iyul 2021-ci il tarixdən sonrakı tarixdə alınmış arayış olması mütləqdir).
10. İddiaçının analoji işlərdə təcrübəsi, maddi-texniki və kadr imkanları haqqında rəsmi məlumat.
11. İddiaçının son üç ildə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyinə görə məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması barədə rəsmi məlumat.
12. Məhkumluğun olmaması barədə arayış,
13. Tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır. İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla tələb olunan digər sənədləri **26 iyul 2021-ci il saat 12:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **03 avqust 2021-ci il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **04 avqust 2021-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

**"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti** tərəfindən 25 may 2021-ci il tarixdə elan edilmiş **LOT 1 üzrə Kəlbəcər rayonunda "Lev-4 KSES"in yenidən qurulması işlərinin satın alınması** üzrə təkliflər sorğusu üsulu ilə keçirilən tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən **"FARCON" QSC** tenderin qalibi müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilat ilə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Bakı Kommersiya Məhkəməsinin qanuni qüvvəyə minmiş 16.06.2020-ci il tarixli e-2-2(113)-1455/2020 nömrəli Qətnaməsi ilə "Lider TV və Radio-Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra **"Borclu"**) müflis elan edilmiş və Abbasov Mikayıl Hümmət oğlu əmlak inzibatçısı təyin edilmişdir.

Bununla Borclunun kreditorları "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq 22 iyul 2021-ci il tarixdə saat 11:00-da Bakı şəhəri, Yasamal rayonu, Şəfayət Mehdiyev, ev 83/23 ünvanında keçiriləcək kreditorların ilkin yığıncağına dəvət edilir.

Kreditorlar 60 gün ərzində əmlak inzibatçısına aşağıdakı ünvana müraciət edərək tələblərini irəli sürə bilərlər: AZ1141, Bakı şəhəri, Yasamal rayonu, Şəfayət Mehdiyev, ev 83/23; Tel.: (99412) 497-61-58, (99412) 497-88-99 (111).

***Tender komissiyası***

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

"Azərmətbuatyayımı" ASC (012) 440-46-94, (012) 441-19-91
"Azərpoçt" ASC (012) 598-49-55, (051) 225-02-13
"Qaya" firması (012) 566-77-80, (050) 214-40-53
"Kaspi" MMC (012) 432-39-55, (012) 510-82-24
"Region Press" MMC (055) 316-79-01, (050) 316-79-01
"Səma-M" MMC (012) 594-09-59
"Ziya" LTD (012) 497-76-96, (050) 306-77-22
"Pressinform" MMC (012) 598-49-52, (070) 340-01-00
"City press" MMC (055) 819-09-26

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


# Azərbaycan Respublikası Təhsil Nazirliyi
## *Sumqayıt Dövlət Universiteti*
## 2021-ci il üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktoranturaya qəbul elan edir

***Fəlsəfə doktoru proqramı üzrə***

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru proqramı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | |
| | | cəmi | o cümlədən: büdcə hesabına | | ödənişli əsaslarla | | cəmi | o cümlədən: büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1202.01 | Analiz və funksional analiz | 1 | | 1 | | | | | |
| 1203.01 | Kompüter elmləri | 2 | | 2 | | | | | |
| 2314.01 | Neft kimyası | 1 | | 1 | | | | | |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | 1 | | 1 | | | | | |
| 5503.02 | Vətən tarixi | 1 | | 1 | | | | | |
| 5706.01 | Azərbaycan dili | 1 | | 1 | | | | | |
| 5714.01 | Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik | 1 | | 1 | | | | | |
| Cəmi | | 8 | | 8 | | | | | |

***Elmlər doktoru proqramı üzrə***

| İxtisasın şifri | İxtisasın adı | Elmlər doktoru proqramı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | |
| | | cəmi | o cümlədən: büdcə hesabına | | ödənişli əsaslarla | | cəmi | o cümlədən: büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1211.01 | Diferensial tənliklər | 1 | | 1 | | | | | |
| 5308.01 | Ümumi iqtisadiyyat | 1 | | 1 | | | | | |
| 5706.01 | Azərbaycan dili | 1 | | 1 | | | | | |
| Cəmi | | 3 | | 3 | | | | | |

Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Təhsil Nazirliyinin **portal.edu.az** saytına daxil olmaqla, orada "Ali və orta ixtisas təhsil müəssisələrinə tələbə qəbulu və qeydiyyatı" xidmətini seçərək, təlimatlara (Təlimatlarla **sdu.edu.az** saytında tanış olmaq olar) uyğun olaraq qeydiyyatdan keçdikdən sonra sənədlərin kağız variantını şənbə və bazar günlərindən başqa hər gün səhər saat 09:00-dan 17:00-dək Sumqayıt Dövlət Universitetinin Doktorantura və magistratura şöbəsinə təqdim etməlidirlər.

**Sənəd qəbulu üçün son tarix 15 iyul 2021-ci il.**

Fəlsəfə fənni üzrə imtahan 1,2,3 sentyabr, ixtisas imtahanı isə 9,10 sentyabr 2021-ci il tarixlərində keçirilməsi planlaşdırılır.

**Ünvan: Sumqayıt şəhəri, 43-cü məhəllə, Əsas tədris binası, otaq №243.**

Tel: (018)642-12-63, 050 339-68-36

***Rektorluq***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**QULU TARQULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**HACI QULU TARQULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**HACI QULU TARQULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Bakı Neft Maşınqayırma Zavodu" ASC-nin sədri Eldar Vəliyev tələbə yoldaşı Tofik Hüseynova qardaşı

**ÇİNGİZİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**HACI QULU TARQULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin rəhbərliyi və kollektivi şöbənin müdir müavini Anar Nağıyevə atası

**RÜSTƏM NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinin professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin rektorunun səlahiyyətlərini müvəqqəti icra edən Anar Nağıyevə atası

**RÜSTƏM NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 3716
Sifariş 1159
Qiyməti 40 qəpik